AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKI

NATIONAL BANK OF AZERBAIJAN REPUBLIC



İLLİK HESABAT 2000 ANNUAL REPORT

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKI**

**NATIONAL BANK OF AZERBAIJAN REPUBLIC**



# İLLİK HESABAT 2000 ANNUAL REPORT

# M Ü N D Ə R İ C A T

**Giriş** . . . . . **4**

**1. Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyəti**

1.1. Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyətinin ümumi xarakteristikası . . . . . 6
1.2. Tə'diyə balansı . . . . . 13

**2. Pul-kredit siyasəti**

2.1. Pul-kredit siyasətinin başlıca istiqamətləri və əsas yekunları . . . . . 26
2.2. Pul-kredit tənzimlənməsi alətləri . . . . . 30
2.3. Maliyyə bazarının inkişafı . . . . . 32

**3. Valyuta siyasəti və valyuta tənzimlənməsi**

3.1. Valyuta siyasəti və valyuta bazarının inkişafı . . . . . 40
3.2. Qızıl-valyuta ehtiyatlarının vəziyyəti və idarə olunması . . . . . 44
3.3. Milli Bankın beynəlxalq əlaqələri . . . . . 44

**4. Bank sisteminin vəziyyəti və bank nəzarəti**

4.1. Bank sisteminin vəziyyətinin ümumi xarakteristikası . . . . . 52
4.2. Dövlət banklarının yenidən qurulması . . . . . 54
4.3. Bank nəzarəti . . . . . 56

**5. Ödəniş sisteminin vəziyyəti və emissiya-kassa işinin təşkili**

5.1. Ödəniş sisteminin vəziyyəti və təşkili . . . . . 62
5.2. Emissiya-kassa işinin təşkili . . . . . 66

**6. Müstəqil beynəlxalq audit şirkətinin 2000-ci ilin yekunu üzrə Milli Bankın illik balansı barədə rə'yi** . . . . . **70**

**7. Mühasibat balansı və Milli Bankın maliyyə fəaliyyətinin yekunları** . . . . . **72**

**8. Bank sisteminin normativ-hüquqi bazasının inkişafı** . . . . . **114**

**9. Milli Bankın idarəetmə strukturu** . . . . . **120**

**Qrafiklər və cədvəllər** . . . . . **126**

# TABLE OF CONTENTS

**Introduction** . . . . . **5**

**1. Social and economic conditions in Azerbaijan Republic**

1.1 General characteristics of social and economic conditions in Azerbaijan Republic . . . . . 7
1.2 Balance of payments . . . . . 14

**2. Monetary and credit policy**

2.1 Principal objectives and main results of monetary and credit policy . . . . . 27
2.2 Instruments for monetary and credit regulation . . . . . 31
2.3 Development of financial market . . . . . 33

**3. Foreign currency policy and foreign currency regulation**

3.1 Foreign currency policy and development of the foreign currency market . . . . . 41
3.2 The situation with gold and foreign currency reserves and their regulation . . . . . 45
3.3 International relations of the National Bank . . . . . 47

**4. The situation with the banking system and banking controls**

4.1 General characteristics of the situation with the banking systems . . . . . 53
4.2 Reorganization of the State banks . . . . . 55
4.3 Banking controls . . . . . 57

**5. The situation with the payment system and constituents of emission-cash operations**

5.1 The situation with and constituents of the payment system . . . . . 63
5.2 Organization of cash emission and cash transactions . . . . . 67

**6. Independent international auditor`s report on the National Bank's annual balance for the year 2000** . . . . . **71**

**7. Accounting balance and summary of the National Bank's financial activity** . . . . . **73**

**8. Development of the normative and legislative framework for the banking system** . . . . . **115**

**9. Organizational structure of the National Bank** . . . . . **121**

**Charts and tables** . . . . . **127**

# Giriş

*Azərbaycan Respublikası Milli Bankının 2000-ci ilin yekunları üzrə təqdim etdiyi hesabatda Milli Bankın fəaliyyətinin bütün istiqamətlərinin şərhi və ölkənin iqtisadi durumu öz əksini tapmışdır.*

*Milli Bank hesabat ilində öz fəaliyyətini pul-kredit siyasətinin başlıca istiqamətlərində nəzərdə tutulan məqsəd və vəzifələrin yerinə yetirilməsi üzərində qurmuşdur. 2000-ci ildə yeridilən pul-kredit siyasətinin əsas məqsədini ölkədə bərqərar olmuş makroiqtisadi sabitliyi daha da möhkəmlətmək, milli valyutanın məzənnəsini çevik tənzimləməklə onun sabitliyini qorumaq, valyuta ehtiyatlarını zəruri səviyyədə saxlamaq, bank islahatlarını daha da dərinləşdirmək təşkil etmişdir. Yaranmış əlverişli makroiqtisadi şəraitdə Milli Bank 1999-cu ilin ortalarından e'tibarən götürülmüş yeni kursu - deflyasiyanın qarşısının alınması və iqtisadiyyatın likvidliyinin artırılması kursunu davam etdirmişdir.*

*Qarşıda qoyulan məqsədlərə nail olunmuş, iqtisadi artıma adekvat olaraq və mövcud maliyyə sabitliyinə xəta yetirmədən pul təklifinin artımına monetar zəmin yaranmış, deflyasiyanın qarşısı alınmış və pul-kredit göstəriciləri əvvəlki ilə nisbətən xeyli yaxşılaşmışdır. Bütün bunlar ölkədə aparılan iqtisadi islahatları sür'ətləndirməyə, iqtisadi artımın davamlılığını tə'min etməyə imkan vermiş və beləliklə də əhalinin sosial vəziyyətinin yaxşılaşmasına əlverişli şərait yaratmışdır.*

*Hesabat ilində də özəl və dövlət bankları üzrə islahatlar davam etdirilmişdir. Özəl bankların yenidən qurulması çərçivəsində onların diaqnostikası aparılmış və müxtəlif me'yarlar üzrə keyfiyyətcə qiymətləndirilməsi həyata keçirilmiş, bank sisteminin zəif banklardan təmizlənməsi istiqamətində radikal addımlar atılmışdır. Dövlət banklarının yenidən qurulması çərçivəsində isə üç iri dövlət bankının birləşdirilməsi nəticəsində bir sağlam dövlət bankı yaradılmışdır. Eyni zamanda bank infrastrukturunun inkişaf etdirilməsi, xüsusilə mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, elektron ödəniş sisteminin tətbiqi istiqamətində xeyli işlər görülmüşdür. Nəticədə bank sisteminin, xüsusilə özəl bankların iqtisadiyyatda rolu artmış, banklara inamın artması hesabına genişlənən əmanət və depozit bazası bankların kredit qoymaq imkanlarını genişləndirmiş, sağlam rəqabət mühitində müştərilərə xidmətdə beynəlxalq standartlara uyğun çeşidli, yüksək xidmət texnologiyası məhsullarının tətbiqi genişlənmişdir.*

*Hesabat ilində Milli Bankın fəaliyyətində ən əlamətdar hadisələrdən biri də mərkəzi iqtisadi orqanlar arasında ilk dəfə olaraq Milli Bankın 2001-2004-cü illər üzrə strateji inkişaf planının işlənməsi olmuşdur. Bu sənəddə Milli Bankı daha çevik və daha müasir tənzimləmə orqanına çevirmək, habelə onun missiyasının reallaşdırılmasının effektivliyini yüksəltmək yolları göstərilmişdir. 2000-ci ilin ortalarında Milli Bankda həyata keçirilmiş radikal struktur yenidənqurulması strateji planda öz əksini tapmış məqsədlərə daha səmərəli nail olmağa imkan verəcəkdir.*

*Təqdim olunan hesabatla ətraflı tanışlıq Azərbaycan Respublikası Milli Bankının 2000-ci ildəki fəaliyyəti haqqında, ümumilikdə bank sisteminin və pul-kredit sferasının inkişafında əldə olunmuş uğurlar və mövcud problemlər barədə daha dolğun mə'lumat almağa imkan verəcəkdir.*

*Ümid edirik ki, bu hesabat peşəkarlar, elmi işçilər, işgüzar adamlar, habelə geniş ictimaiyyət üçün maraq kəsb edəcəkdir.*

# Introduction

*The annual report of National Bank of Azerbaijan Republic (NBAR), prepared on the results of the year 2000 includes clarification of all objectives for the National Bank's activities and economic situation in the country.*

*During the reporting year, National Bank's activities were oriented toward achievement of goals and objectives considered by the general strategy for development of monetary and credit policy. Main objectives of monetary and credit policy, carried out during the year 2000, included further strengthening of macroeconomic stability in the country, timely regulation of exchange rate for the national currency and, thus, protection of its stability, improvement of efficiency in managing foreign currency reserves, and further extension of banking reforms. Given the beneficial macroeconomic conditions, the new course of action adopted by the National Bank in mid 1999 has continued the strategy of eliminating deflation and keeping inflation within acceptable limits.*

*The objectives set were successfully achieved; monetary grounds for increasing money supply that would be adequate to economic growth, and yet not dangerous to present financial stability, were developed; deflation was eliminated; and monetary and credit indicators improved considerably, compared to previous periods. All of this made it possible to safeguard acceleration of economic reforms and further economic growth, thus, providing favorable grounds for improving social conditions of the population.*

*Reforms related to private and state banks have also continued during this reporting year. Diagnostic audits of many private banks were carried out within the framework of their reorganization program, and their quality was assessed against various criteria. Radical steps were taken to clear the banking system and liquidate weak banks. Additionally, within the framework of reorganization program for the state banks, one new stable bank was established as a result of a merger of the three large state banks. At the same time, a lot of work was done in relation to development of the banking infrastructure, specifically, bringing accounting system in conformity with international standards and utilization of electronic payment system. As a result, the role of the banking system in the economy, especially the role of private banks, increased. Savings and other deposits, which have grown as a result of growing trust in banks, increased the capability of the banks to provide loans. Utilization of high-quality technology products, under conditions of healthy competitive environment, in conformity with international standards for customer services, has also increased.*

*During the reporting year, one of the significant events in the activities of the National Bank was working out the National Bank's strategic development plan for 2001-2004. It was the first initiative of the National Bank among central economic bodies in Azerbaijan to prepare such a plan. This document showed the ways for transforming the National Bank into a more flexible and more modern regulative body and improving effectiveness of realization of its mission. Structural reorganization of the National Bank in mid 2000 will further facilitate rational achievement of the objectives reflected in this strategic plan.*

*Full familiarization with the report presented will make it possible for the reader to get more comprehensive information about the activities of the National Bank of Azerbaijan Republic in the year 2000, general information about achievements in the banking system, developments in monetary and credit sphere and current problems.*

*We hope that this report will be interesting for professionals, researchers, businessmen, as well as general public.*

# 1. AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

## 1.1. Azərbaycan Respublikasının sosial-iqtisadi vəziyyətinin ümumi xarakteristikası

2000-ci ilin yekunları Azərbaycan iqtisadiyyatında pozitiv meyllərin güclənməsini və iqtisadi artım tempinin dayanıqlı olmasını bir daha nümayiş etdirir. Neft layihələrinin reallaşdırılması miqyasının getdikcə genişlənməsi, bununla əlaqədar milli iqtisadiyyatda neft sənayesinin multiplikativ effektinin artması ilə bağlı qeyri-neft sənaye sahələrində həm istehsal, həm də kapital qoyuluşları göstəricilərinə görə müəyyən irəliləyişlərin əldə olunması, dünya bazarlarında əlverişli qiymət konyunkturası ilə əlaqədar olaraq respublikanın xarici ticarət şəraitinin xeyli yaxşılaşması ümumən iqtisadi subyektlərin maliyyə vəziyyətinin sabitləşməsi və maliyyə resurslarının istehsal sahələrinə, xüsusilə qeyri-neft sektoruna yönəlməsi prosesini sür'ətləndirmişdir. Ölkənin iqtisadi və sosial inkişafını xarakterizə edən makroiqtisadi göstəricilər XX əsrin son ilində əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

2000-ci ildə ölkədə istehsal olunan ÜDM-in həcmi 21.9 trilyon manat olmuş, 1999-cu illə müqayisədə onun real həcmi 11,4%, o cümlədən məhsul istehsalı sahələrində 8,5%, xidmət sahələrində 11,3% artmışdır. ÜDM-in strukturunda bu sahələrin xüsusi çəkiləri müvafiq olaraq 48,2% və 44,6% təşkil etmişdir. Qalan 7,2%

**2000 -ci ildə ÜDM-in sahə strukturu**




xalis vergilərin payına düşmüşdür. Əhalinin hər nəfərinə 2767,8 min. manat (618,6 ABŞ dolları) və ya 1999-cu illə müqayisədə 10,5% çox ÜDM istehsal olunmuşdur. Onu da deyək ki, 2000-ci ildə MDB məkanında ən yüksək iqtisadi artım Azərbaycanda müşahidə edilmişdir. ÜDM-in real artımını tə'min edən amillərin strukturunda dəyişikliklər baş vermişdir. Sənayedə yaradılan əlavə dəyərin xüsusi çəkisi 25,5%, kənd təsərrüfatında 18%, tikintidə 4,7%, nəqliyyat və rabitədə 15,5%, ticarət və ictimai iaşədə 6,6% təşkil etmişdir.

Əsas məhsul istehsalı sahələrindən biri olan sənayenin fiziki həcm indeksi özündən əvvəlki

# 1. SOCIAL AND ECONOMIC CONDITIONS IN AZERBAIJAN REPUBLIC

### 1.1 General Characteristics of social and economic conditions in Azerbaijan Republic

Results of the year 2000 demonstrate, once again, strengthening positive trends in Azerbaijan's economy and steady economic growth rate. Ongoing increase in the scale of implementation of oil projects, certain progress in both production and capital funding indicators in non-oil industry, related to an increase of a multiplier effect in connection with this, considerable improvement in the country's foreign trade conditions, related to beneficial price structure in the world markets, have accelerated the process of general improvement in financial situation of economic subjects and redirection of financial resources to the sphere of production, especially to the non-oil sector. Macroeconomic indicators, characterizing economic and social development of the country for the last year of the 20th century, have considerably improved, compared to the previous year.

The volume of GDP produced in the country during the year 2000 made up 21.9 trillion manats, which, compared to 1999, shows an increase of 11.4% in real terms, including 8.5% - for production sectors and 11.3% - for service sectors. In the structure of GDP the share of those sectors made up 48.2% and 44.6% respectively. The remaining 7.2% correspond to net taxes. Per capita GDP made up 2,767.8 thousand manats (USD 618.6), which, compared to 1999, represents an increase of 10.5%. It is also worth noting that Azerbaijan experienced the highest rate of economic growth during 2000 among CIS countries. Changes took place in the structure of factors supporting real GDP growth. The share of added value created in the industry made up 25.5%, in agriculture – 18%, in construction – 4.7%, in transportation and communication 15.5%, in trade and public catering – 6.6%.

Physical volume index of the industry, which is one of the main production sectors, in comparison to the same figures for a previous year,

**Structure of GDP in 2000**



**Respublika iqtisadiyyatının sahələr üzrə fiziki həcm indeksləri**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| ÜDM-in nominal həcmi, mlrd. man | 10668,8 | 13663,2 | 15791,4 | 17203,4 | 18576,2 | 21939,8 |
| Adambaşına düşən ÜDM həcmi, min man. | 1410,3 | 1787,7 | 2046 | 2207,5 | 2362,5 | 2767,8 |
| ÜDM-in real həcm indeksi: -əvvəlki ilə nisbətən | 88,2 | 101,3 | 105,8 | 110,0 | 107,4 | 111,4 |
| -1990-cı ilə nisbətən | 41,8 | 42,3 | 44,7 | 49,2 | 52,8 | 58,9 |
| Sənaye | 78,6 | 93,3 | 100,3 | 102,2 | 103,6 | 106,9 |
| Kənd təsərrüfatı | 93,0 | 103,0 | 93,9 | 106,2 | 107,1 | 112,1 |
| Kapital qoyuluşu | 82,0 | 240,0 | 139 | 123 | 98 | 102 |
| Nəqliyyatla yük daşınması | 76,6 | 99,2 | 110,6 | 112,2 | 107,3 | 117,8 |
| Ticarət | 102,3 | 114,1 | 114,9 | 110,3 | 113,3 | 109,8 |
| Pullu xidmətlər | 75,6 | 115,7 | 111,1 | 114,0 | 105,4 | 105,8 |

illə müqayisədə 1996-cı ildə 6,7% azalmışdısa, 1997-ci ildə 0,3%, 1998-ci ildə 2,2%, 1999-cu ildə 3,6%, 2000-ci ildə isə 6,9% artmışdır.

2000-ci ildə neft və qaz hasilatında 1,4%, metallurgiya sənayesində 2,5 dəfə, neft-kimya sənayesində 23,2%, yeyinti sənayesində 2,2%, elektroenergetikada 3,2%-lik artım müşahidə olunmuşdur.

Ötən il kənd təsərrüfatı üçün xüsusilə uğurlu olmuşdur. Dövr ərzində kənd təsərrüfatının ümumi məhsulu 12,1%, o cümlədən bitkiçilik məhsulları istehsalı 18,9%, heyvandarlıq məhsulları isə 3,8% artmışdır.

Qeyd etmək lazımdır ki, iqtisadi artım makroiqtisadi sabitliyin dayanıqlı olması şəraitində davam etmişdir. Belə ki, 2000-ci ildə qiymətlərin artımı 1999-cu ilə nisbətən 1,8% təşkil etmiş, ərzaq məhsullarının qiymətləri 2,3%, qeyri-ərzaq mallarının qiymətləri isə cəmi 1,9% bahalaşmış, xidmət tarifləri 0,5% ucuzlaşmışdır. 1999-cu ilin dekabrına nəzərən qiymət indeksi 2,2% təşkil etmişdir.

Ümumiyyətlə, 2000-ci ildə makroiqtisadi sabitliyə tə'sir göstərən amilləri sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar:



**Physical volume indices for economic sectors in the country**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Nominal GDP, bln. manats | 10668,8 | 13663,2 | 15791,4 | 17203,4 | 18576,2 | 21939,8 |
| Per capita GDP, thousand manats | 1410,3 | 1787,7 | 2046 | 2207,5 | 2362,5 | 2767,8 |
| GDP real volume index: -compared to last year | 88,2 | 101,3 | 105,8 | 110,0 | 107,4 | 111,4 |
| -compared to 1990 | 41,8 | 42,3 | 44,7 | 49,2 | 52,8 | 58,9 |
| Industry | 78,6 | 93,3 | 100,3 | 102,2 | 103,6 | 106,9 |
| Agriculture | 93,0 | 103,0 | 93,9 | 106,2 | 107,1 | 112,1 |
| Capital investments | 82,0 | 240,0 | 139 | 123 | 98 | 102 |
| Cargo transportation | 76,6 | 99,2 | 110,6 | 112,2 | 107,3 | 117,8 |
| Trade | 102,3 | 114,1 | 114,9 | 110,3 | 113,3 | 109,8 |
| Monetary services | 75,6 | 115,7 | 111,1 | 114,0 | 105,4 | 105,8 |

decreased by 6.7% in 1996 and increased by 0.3% in 1998, by 2.2% in 1999, and by 3.6% in 2000.

Growth rate for oil and gas industry during the year 2000 was 1.4%, for metallurgy sector – 2.5 times, for petrochemical industry – 23.2%, for food industry – 2.2%, and for electric energy sector – 3.2%.

Last year was especially successful for agricultural sector. During this period total output in agricultural sector increased by 12.1%. Growth in the plant-growing produce output made up 18.9%, and in animal husbandry - 3.8%.

It is necessary to note that economic growth has continued under conditions of steady macroeconomic stability. For instance, growth rate in prices during the year 2000 was 1.8% as compared to 1999, prices for foodstuffs increased only by 2.3%, for non-food products – by 1.9%, and service tariffs decreased by 0.5%. The price index, as compared to December 1999, made up 2.2%.

In general, factors influencing macroeconomic stability in 2000 may schematically be represented as follows:



Ölkədə struktur islahatlarının mühüm tərkib hissəsi olan **özəlləşdirmə** prosesi davam etmişdir. Özəlləşdirmə prosesi başlanandan 2001-ci ilin yanvar ayının 1-ə kimi ilkin dəyəri 449,7 mlrd. manat olan 31226 kiçik müəssisə və obyekt, o cümlədən 605 sənaye, 113 kənd təsərrüfatı müəssisələri, 261 tikinti təşkilatı, 128 başa çatmamış tikinti, 2257 ticarət, 649 iaşə müəssisəsi, 9421 məişət xidməti, 514 yanacaq doldurma məntəqəsi, 14376 nəqliyyat müəssisəsi və nəqliyyat vasitələri, 56 kommunal təsərrüfatı obyekti və 2846 digər obyektlər və avadanlıqlar özəlləşdirilmişdir. Orta və iri müəssisə və obyektlərin özəlləşdirilməsi davam etməkdədir və yanvar ayının 1-nə kimi nizamnamə kapitalı 3.4 trln. manat olan 1169 dövlət müəssisəsi səhmdar cəmiyyətə çevrilmişdir.

Aparılan struktur islahatlarının nəticəsidir ki, özəl bölmədə istehsalın həcmi ildən-ilə artır. İqtisadiyyatın qeyri-dövlət bölməsində 1997-ci ildə ÜDM-in 46%-i, 1998-ci ildə 55%-i, 1999-cu ildə 62%-i, 2000-ci ildə 65%-i istehsal olunmuşdur. 2000-ci ildə ümumi sənaye məhsulunun 43,6%-i, kənd təsərrüfatı məhsulunun 98%-i, tikintinin 67%-i, nəqliyyatla yük daşınmasının 54%-i, sərnişin daşınmasının 83,3%-i, rabitə xidmətlərinin 61,1%-i, ticarətin 98,5%-i, pullu xidmətlərin 56,6%-i qeyri-dövlət bölməsi tərəfindən yerinə yetirilmişdir.

Respublika iqtisadiyyatına, xüsusilə onun neft sektoruna xarici sərmayənin dayanıqlı axınının müşahidə olunması şəraitində 2000-ci ildə **investisiya fəallığı** yüksək səviyyədə qalmaqda davam etmişdir. Hesabat ilində bütün maliyyə mənbələri hesabına əsaslı kapitala 4683,9 mlrd. manat və ya 1999-cu ilə nisbətən 2,4% çox investisiya qoyuluşu həyata keçirilmişdir. İnvestisiyaların 81,9% istehsal tə'yinatlı obyektlərin yaradılmasına yönəldilmişdir. Əsaslı kapitala yönəldilmiş investisiyaların 50%-dən çoxu xarici investisiyaların payına düşmüşdür.

Ümumi investisiya qoyuluşunun 74%-i müəssisə və təşkilatların vəsaiti, 4,5%-i əhalinin xüsusi vəsaitləri, 6,7%-i bank kreditləri, 3%-i büdcə vəsaitləri və s. hesabına olmuşdur.

Hesabat ilində istifadə edilmiş investisiyaların 2997,2 mlrd. manatı (64%) sənaye sahələrinə, o cümlədən 2384,4 mlrd. manatı (50,9%) neft və qaz hasilatına, 361,9 mlrd. manatı (7.7%) e'mal sənayesinə, 250,9 mlrd. manatı (5.4%) elektrik enerjisi və su təhcizatı sahələrinə, 322.1 mlrd. manatı (6.9%) ticarətə, 256.4 mlrd. manatı (5.5%) nəqliyyata, 211,1 mlrd.manatı (4,5%) rabitəyə, 488,8 mlrd. manatı (10.4%) mənzil tikintisinə, 157,2 mlrd. manatı (3.4%) səhiyyəyə və sosial xidmət sahələrinə yönəldilmişdir. Kapital qoyuluşlarının ÜDM-ə nisbəti 21,3%-ə bərabər olmuşdur ki, bu da ölkədə investisiya fəallığının ümumən qənaətbəxş səviyyədə olmasına dəlalət edir.

***Dövlət maliyyəsi.*** Respublikada baş verən iqtisadi proseslər, aparılan islahatlar dövlət büdcəsinin gəlir və xərclərinin dinamikasına və strukturuna da tə'sir göstərmişdir. Yeridilən büdcə-vergi siyasətinin nəticəsi olaraq 2000-ci ilin yekunları üzrə büdcənin gəlirləri əvvəlki ilə nisbətən 27,9%, xərcləri isə 19,5% artaraq ÜDM-in müvafiq olaraq 16,3% və 17,4% -ni təşkil etmişdir.

Büdcəyə bütün növ daxilolmalar, o cümlədən vergi gəlirləri 30,4%, vergi olmayan gəlirlər və rüsumlar 3,8% artmışdır.

Büdcəyə daxilolmaların yaxşılaşması proqnozda nəzərdə tutulmuş xərclərin maliyyələşdirilməsini tə'min etməyə imkan yaratmışdır. Sosial müdafiə və sosial tə'minat xərclərinə 697 mlrd. manat və ya büdcənin ümumi xərclərinin 18,3%-i, iqtisadiyyatın inkişafına isə

The **privatization** process, being an important constituent of structural reforms in the country has also continued. From the commencement of privatization process up until 1 January 2001, 31226 small companies and units with total initial value of 449.7 bln. manats, including 605 – in industrial sector, 113 – in agricultural sector, 261 – in construction sector, 128 constructions in progress, 2257 trade companies, 649 catering companies, 9421 financial services companies, 514 gas stations, 14376 transportation companies and means of transportation, 56 utility units and 2846 other units and pieces of equipment were privatized. The privatization of medium-size and large businesses is currently in progress and up to January 1, 1169 state enterprises with the total share capital of 3.4 trln. manats, were reorganized into joint-stock companies.

As a result of structural reforms carried out, production volume in the private sector is growing from year to year. Non-state sector of the economy contributed to 46% of the GDP in 1997, 55% in 1998, 62% in 1999, and 65% in 2000. During the year 2000, 43.6% of total industry output, 98% of agriculture production, 67% of construction, 54% of cargo transportation, 83.3% of passenger transportation, 61.1% of communication services, 98.5% of trade, 56.6% of financial services related to non-state sector.

Under conditions of steady flow of foreign investments into the economy of the country, especially into its oil sector, **investment activity** in the year 2000 remained at high levels. During the reporting year, investment in fixed capital from all financial sources increased by 4,683.9 bln. manats, or by 2.4%, compared to 1999. 81.9% of investments were aimed at creation of production-oriented units. More than 50% of total investments into fixed capital were financed by foreign sources.

74% of total investments were financed by the companies' own funds, 4.5% - by personal savings of general public, 6.7% - by bank loans, and 3% - by budgetary funds.

2,997.2 bln. manats of investments during the reporting year (64%) were made in the industrial sector, of which 2,384.4 bln. manats (50.9%) related to oil and gas production; 361.9 bln. manats (7.7%) – to processing industry; 250.9 bln. manats (5.4%) – to electric energy and water distribution sectors; 322.1 bln. manats (6.9%) – to trade; 256.4 bln. manats (5.5%) – to transportation; 211.1 bln. manats (4.5%) – to communication; 488.8 bln. manats (10.4%) – to residential construction; 157.2 bln. manats (3.4%) – to health and social care sectors. The ratio of capital investments to GDP made up 21.3% and it proves that investment activities in the country are, in general, quite satisfactory.

***State finance.*** Economic processes taking place in the country and reforms carried out also influenced the state budget income and expenses dynamics and structure. As a result of budget and taxes policy implemented, based on the results of the year 2000, budgetary income has increased by 27.9% compared to last year and expenses – by 19.5% making up 16.3% and 17.4% of GDP, respectively.

There was an increase in all types of inflows into the state budget, including increase in income from taxes by 30.4% and duties – by 3.8%.

Improvement of inflows into the state budget made it possible to provide financing for forecasted expenditures. Social security and social welfare expenses made up 697 bln. manats or 18.3% of total budget expenditures, and 447 bln. manats, or 11.7% accordingly, was allocated for economic development.

müvafiq olaraq 447 mlrd. manat və ya 11,7% vəsait ayrılmışdır.

Dövlət büdcəsinin kəsiri 241,7 mlrd. manat təşkil etmişdir ki, bu da ÜDM-in 1,1%-nə bərabər olmuşdur.

***Sosial sfera.*** İqtisadi artımın dinamik xarakter alması şəraitində 2000-ci ildə də əhalinin gəlirlərinin artması prosesi davam etmişdir. İlin yekunlarına görə əhalinin nominal pul gəlirlərinin həcmi əvvəlki illə müqayisədə 11,1% artaraq 17,9 trln. manat təşkil etmişdir ki, bu da ÜDM-in 81,7%-nə bərabərdir. Əhalinin sərəncamında qalan real pul gəlirləri ötən illə müqayisədə 9,2% artaraq 16,9 trln. manata çatmışdır. Adambaşına düşən real pul gəlirlərinin həcmi isə 2221 min manat təşkil edərək əvvəlki ilə nisbətən 8,3% artmışdır.

Əhalinin pul gəlirlərinin formalaşmasında əsas yer sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə məxsusdur. Azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafı üçün yaradılan imkanla əlaqədar əhalinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirləri 13.5% artmışdır.

Əhalinin pul gəlirlərinin strukturunda əmək haqqı ikinci yeri tutur. 2000-ci ildə orta aylıq nominal əmək haqqı 1999-cu ilə nisbətən 15% artaraq 205.1 min manata (46 $) çatmış, istehlak qiymətləri indeksini nəzərə almaqla əmək haqqının real artımı 13% olmuşdur. Azərbaycanda orta aylıq əmək haqqı bir sıra MDB ölkələrində olduğundan yüksəkdir. Əhaliyə verilən pensiya və müavinətlərin aylıq məbləği isə 16,3% artmışdır.

2000-ci ildə iqtisadi fəal əhalinin sayı 3749.1 min nəfər (respublika əhalisinin 47,1%-i), onlardan iqtisadiyyatda məşğul olanlar 3705.9 min nəfər, rəsmi işsiz statusu alanlar isə 43.2 min nəfər təşkil etmişdir. Əvvəlki illə müqayisədə iqtisadi fəal əhalinin sayı 0,1% artmış, məşğul olanların sayı ötən ilin səviyyəsində qalmış, işsiz statusu alanların sayı 4,4% azalmışdır. Hazırda hökumət işsizlik probleminin həlli ilə ciddi məşğul olur, onun həlli yollarını axtarır. Bir tərəfdən yeni iş yerlərinin açılması, müvafiq bazar infrastrukturunun yaradılması (əmək birjası, ixtisas dəyişmə kursları və.s), digər tərəfdən işsizlərin sosial müdafiəsi istiqamətində tədbirlər həyata keçirilir. 2000-ci ildə iri və orta müəssisələrdə əvəzçilik və mülki-hüquq xarakterli müqavilələr üzrə işləmək üçün 16,7 min nəfər cəlb edilmişdir. Həm də işsizlərin 2502 nəfərinə işsizliyə görə müavinət verilmişdir. Son illərdə özəl sektorun inkişafı da bu problemin həllinə yeni imkanlar açır.

## 1.2. Tə’diyə balansı

Milli Bank artıq altı ildir ki, beynəlxalq standartlara cavab verən hesabat tə’diyə balansını tərtib edir. Balansın tərtib olunma keyfiyyəti beynəlxalq maliyyə institutlarının ekspertlərinin də müsbət rə’yini almışdır.

Azərbaycan Respublikasının 2000-ci il üçün tərtib edilmiş tə’diyə balansının baza parametrləri aşağıdakı kimi olmuşdur.

***Cari əməliyyatlar hesabı.*** Müsbət haldır ki, 2000-ci ildə cari əməliyyatların ümumi kəsiri 1999-cu ilin müvafiq göstəricisinə nisbətən nəzərəçarpacaq dərəcədə - 431,9 mln. dollar azalaraq 167,8 mln. dollar məbləğində olmuşdur. Bunun da əsas səbəbi beynəlxalq neft kontraktlarının yeni mərhələyə qədəm qoyması – neftçıxarma və ixrac mərhələsinə keçməsi nəticəsində ölkədən neft ixracının xeyli dərəcədə artması ilə bağlıdır.

State budget deficit made up 241.7 bln. manats, which is 1.1% of the GDP.

***Social sphere.*** Under conditions, when economic growth has acquired a dynamic nature, the process of maximizing earnings of the population during the year 2000 has also continued. According to results of the reporting year, the level of nominal monetary earnings of the population increased by 11.1%, compared to the last year, and made up 17.9 trillion manats, which is equal to 81.7% of GDP. Real monetary earnings kept as disposable income of the population increased by 9.2% compared to last year and made up 16.9 trillion manats. The level of real per capita monetary earnings made up 221 thousand manats, which is 8.3% higher than last year.

Special role in formation of population's monetary earnings belongs to earnings from entrepreneurial activity. Earnings from entrepreneurial activity of individuals, boosted by favorable conditions provided for development of entrepreneurs and sole proprietors, increased by 13.5%.

Wages and salaries occupy the second place in the structure of monetary earnings of the population. During the year 2000, average monthly nominal salary increased by 15%, compared to 1999 and reached 205.1 thousand manats ($46). Taking in consideration price index, real salary increase made up 13%. Average monthly wage is higher than in several CIS countries. Pensions and allowances paid to the public increased by 16.3%.

In 2000, the number of persons capable of working was 3,749.1 thousand (47.1% of the country's population), 3705.9 thousand of them were involved in economic activities, and 43.2 thousand had an official status of unemployed. Compared to last year, the number of persons capable of working increased by 0.1%, the number of working people stayed at the last year's level, and the number of people who obtained a status of unemployed decreased by 4.4%. At present, the government is actively working to eliminate problems of unemployment, seeking the ways to solve them. The measures being taken are aimed at provision of new employment opportunities and development of an appropriate market infrastructure (labor market, job-training courses, etc.) on one hand, and social protection of the unemployed on the other hand. During 2000, 16.7 thousand persons were employed to work in medium-size and large companies at more than one position and based on civil and legal contracts. At the same time, 2502 persons received unemployment allowances. Development of the private sector during the last years provides new opportunities for solving this problem.

## 1.2 Balance of payments

National Bank has been developing the balance of payments report conforming to international standards for the last six years. The quality of this balance of payments has also received positive comments from experts of international financial institutions.

Basic parameters for the balance of payments for Azerbaijan Republic developed for the year 2000 are outlined below.

***Current payments account.*** It is a positive event that total deficit of current operations, compared to figures for 1999, has drastically decreased by 431.9 mln. US Dollars, and made up 167.8 mln. US Dollars. The main reason for this is related to significant increase in the level of oil exports from the country, as a result of taking international oil contracts to new stages of oil extraction and export.

**Cari əməliyyatlar hesabının saldosu (mln. $)**




***Xarici ticarət.*** 2000-ci ilin yekunlarına görə xarici ticarət dövriyyəsi 3397,3 mln. dollar təşkil etmiş və 1999-cu ilin müvafiq göstəricisinə nisbətən 38,2% artmışdır. Müqayisə olunan dövrdə ölkəyə idxal olunan məhsulların həcmi cəmisi 7,4% artdığı halda, ixrac 1,8 dəfə artmışdır. İxracın ümumi həcmi 1999-cu ilin müvafiq göstəricisindən 833,1 mln. dollar çox olmuş və 1858,3 mln. dollar təşkil etmişdir. İdxalın həcmi isə cəmi 105,6 mln. dollar artaraq 1539,0 mln. dollar olmuş, idxal və ixracın ÜDM-dəki xüsusi çəkiləri müvafiq olaraq 31,4% və 37,9% təşkil etmişdir.

**Xarici ticarətin strukturu**

| | 1999-cu il | | 2000-ci il | | 1999-cu ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | mln. $-la | xüsusi çəkisi, %-l | mln. $-la | xüsusi çəkisi, %-l | |
| Dövriyyə-cəmi o cümlədən | 2458 | 100 | 3397 | 100 | 138 |
| İxrac | 1025 | 42 | 1858 | 55 | 181 |
| İdxal | 1433 | 58 | 1539 | 45 | 107 |
| Saldo | -408 | | 319 | | |

**İxracın** strukturunda neft məhsulları mühüm yer tutur və onların payına ümumi ixracın 85%-i düşür. Hesabat dövründə xarici dövlətlərə 1579 mln. dollarlıq neft məhsulları ixrac olunmuşdur ki, bu da 1999-cu ilin müvafiq göstəricisindən 778 mln. dollar çoxdur. Bu əsasən ilkin neftin ixracı ilə bağlıdır. Bir tərəfdən dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar ölkədən

***Foreign trade.*** According to the results of the year 2000, the volume of foreign trade made up 3,397.3 mln. US Dollars, which, compared to 1999, represents an increase by 38.2%. During the period under comparison, while the volume of goods imported into the country increased by 7.4%, the volume of exports increased 1.8 times. Amount of exports was 833.1 mln. US Dollars higher, compared to 1999, and made up 1,858.3 mln. USD. The volume of imports has increased by only 105.6 mln. US Dollars and made up 1,539.0 mln. US Dollars. The share of import and export figures in GNP made up 31.4% and 37.9%, respectively. -

Oil products occupy a substantial part in the structure of exports, and relate to 85% of total exports. During the reporting year, oil products for the amount of USD 1,579 mln. were exported to foreign countries, which is by USD 778 mln. more than in 1999. This is mainly related to the export of the Early Oil. On one hand, the price of each ton of oil exported from the country increased by 90 dollars, compared to 1999, due to the increase in oil prices at international markets. On the other side, the volume of exported early oil increased by 800 thousand tons. Respectively, out of oil products for the total amount of USD 1,579.0 mln, exported from the country in 2000, only USD 482 mln. relates to the refined oil products. As for the crude oil, it has to be noted that during the current year crude oil was exported from the country for the amount of 1,097.4 bln. dollars, which is 606.1 mln. dollars more than in 1999. Out of total oil exported, oil for the amount of USD 1,015.3 mln. was exported by Azerbaijan International Operating Company (oil consortium). It has to be noted that oil for the amount of 558.3 mln dollars was exported as repatriation of direct investments made by large foreign oil companies in Azerbaijan in relation to the "Contract of the Century", i.e. it decreased foreign liabilities of

**Balance of current operations account ($ mln)**



ixrac olunmuş xam neftin hər tonunun qiyməti 1999-cu ilə nisbətən 90 dollar artmış, digər tərəfdən isə ixrac olunmuş ilkin neftin həcmi də 800 min ton çoxalmışdır. Belə ki, 2000-ci il ərzində ölkədən ixrac olunmuş 1579,0 mln. dollarlıq neft məhsullarının yalnız 482 mln. dollarlığı neft e'malı məhsullarının payına düşür. Xam neft ixracına gəldikdə isə qeyd etmək lazımdır ki, cari il ərzində ölkədən 1097,4 mln. dollarlıq xam neft ixrac olunmuşdur ki, bu da 1999-cu ilin müvafiq göstəricisindən 606,1 mln. dollar çoxdur. İxrac olunmuş xam neftin 1015,3 mln. dollarlığı Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (konsorsium) tərəfindən ixrac lığı isə müvafiq olaraq konsorsiumun payçı xarici şirkətlərinin və Azərbaycan hökumətinin paylarına düşən gəlir nefti kimi ixrac edilmişdir. İxrac olunmuş bütün xam neftin 82,1 mln. dollarlığı isə ARDNŞ-i və ölkənin digər müəssisələri tərəfindən xaricə göndərilmişdir.

Ölkə ixracının digər strateji məhsulu olan pambıq ixracının səviyyəsi 1999-cu ilə nisbətən 71,4% (15,2 mln. dollar) artaraq 36,5 mln. dollar təşkil etmişdir. Bunun da əsas səbəbi ixrac olunmuş pambığın miqdarının 13 min ton artmasıdır. 2000-ci il ərzində respublikadan 56,7 mln. dollarlıq kimya məhsulları, 68,6 mln. dollarlıq maşın və avadanlıq da xarici ölkələrə ixrac olunmuşdur.

**İxracın funksional strukturu**

| | 1999-cu il | | 2000-ci il | |
|---|---|---|---|---|
| | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə |
| İxrac - cəmi | 1025 | 100,0 | 1858 | 100,0 |
| o cümlədən Yanacaq-xammal məhsulları | 902 | 88,0 | 1713 | 92,2 |
| o cümlədən - neft məhsulları | 801 | 78,1 | 1579 | 85,0 |
| - digər xamal | 101 | 9,9 | 134 | 7,2 |
| Maşın və avadanlıq | 29 | 2,8 | 63 | 3,4 |
| İstehlak malları | 53 | 5,2 | 56 | 3,0 |
| Digər mallar | 41 | 4,0 | 26 | 1,4 |

edilmişdir. Qeyd edək ki, konsorsium tərəfindən ixrac olunmuş neftin 558,3 mln. dollarlığı "Əsrin müqaviləsi" ilə bağlı xarici ölkələrin iri neft şirkətləri tərəfindən Azərbaycana yönəldilmiş birbaşa investisiyaların repatriasiyası kimi, yə'ni neft sektorunun xarici öhdəliklərinin azalması hesabına, 317,0 mln. və 140,0 mln. dollar-

Əvvəlki dövrlərdə olduğu kimi, yenə də **idxalın** strukturu ixracın strukturundan köklü surətdə fərqlənir. Fiziki şəxslərin çarter hava reysləri və avtomobil nəqliyyatı ilə məkik idxalını (367,8 mln. dollar) və humanitar malları (48,5 mln. dollar) nəzərə almaqla 2000-ci il ərzində respublikaya 768,5 mln. dollarlıq xalq istehlakı

**Structure of foreign trade**

| | 1999 qod | | 2000 qod | | Compared to 1999, in % |
|---|---|---|---|---|---|
| | $ mln. | Share, in % | $ mln. | Share, in % | |
| Total turnover including | 2458 | 100 | 3397 | 100 | 138 |
| Export | 1025 | 42 | 1858 | 55 | 181 |
| Import | 1433 | 58 | 1539 | 45 | 107 |
| Balance | -408 | | 319 | | |

the oil sector. Oil for 317.0 mln and 140.0 mln. dollars, respectively, was exported as the profit oil belonging to the foreign companies participating in the consortium and to the government of Azerbaijan. Oil for the amount of 82.1 mln dollars was exported to foreign countries by SOCAR and other state enterprises.

The level of export of another strategic product of the country – cotton – increased by 71.4% (15.2 mln dollars) compared to 1999 and made up 36.5 mln. dollars. The main reason for this was an increase in the amount of exported cotton by 13 thousand tons. Chemical products for 56.7 million dollars, machinery and equipment for 68.6 million dollars has also been exported to foreign countries during 2000.

**Functional structure of exports**

| | 1999 qod | | 2000 qod | |
|---|---|---|---|---|
| | Amount, $ mln. | Share, in % | Amount, $ mln. | Share, in % |
| Export – total including | 1025 | 100,0 | 1858 | 100,0 |
| Fuel and raw materials | 902 | 88,0 | 1713 | 92,2 |
| including - Oil products | 801 | 78,1 | 1579 | 85,0 |
| - Other raw materials | 101 | 9,9 | 134 | 7,2 |
| Machinery and equipment | 29 | 2,8 | 63 | 3,4 |
| Consumer goods | 53 | 5,2 | 56 | 3,0 |
| Other products | 41 | 4,0 | 26 | 1,4 |

As during previous periods, the structure of **imports** differs substantially from the structure of exports. Taking in consideration import by individuals by means of charter flights and automobiles (367.8 mln. dollars), and humanitarian aid (48.5 mln. dollars), consumer goods for 768.5

malları gətirilmişdir. Bunun da 50%-ə qədəri, yə'ni 364,7 mln. dollarlığı ərzaq məhsullarının payına düşür. Eyni zamanda qeyd etmək lazımdır ki, idxalı əvəz edən yerli istehsalın artması əvəz edən bə'zi sənaye sahələrinin müəyyən qədər inkişaf etməsidir. Hər iki meyl pozitiv nəticədir.

Xarici ticarətin 18,8%-i MDB-yə üzv olan dövlətlərin, 81,2%-i isə digər xarici dövlətlərin payına düşür. Respublikamız əmtəə mübadiləsində İtaliya, Rusiya, Türkiyə, ABŞ, Fransa, İran, Böyük Britaniya, İsrail, İsveçrə və Gürcüstan ilə daha çox intensiv ticarət əlaqələri yaratmışdır. Bütövlükdə Azərbaycan Respublikasının idxal – ixrac əməliyyatlarının 75,8%-i yuxarıda adı çəkilən əsas tərəf müqabilləri olan 10 dövlət ilə aparılmışdır.

**İdxalın funksional strukturu**

| | 1999-cu il | | 2000-ci il | |
|---|---|---|---|---|
| | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə |
| İdxal- cəmi | 1433 | 100,0 | 1539 | 100,0 |
| o cümlədən İstehlak malları | 851 | 59,4 | 769 | 50,0 |
| o cümlədən - ərzaq məhsulları | 402 | 28,1 | 365 | 23,7 |
| - digər xamal | 449 | 31,3 | 404 | 26,3 |
| İnvestisiya yönümlü mallar | 350 | 24,4 | 334 | 21,7 |
| Digər mallar | 41 | 4,0 | 26 | 1,4 |

nəticəsində 1999-cu illə müqayisədə xalq istehlakı mallarının idxalı 80 mln. dollar, o cümlədən ərzaq məhsulları 40 mln. dollara qədər azalmışdır. İdxalın funksional strukturunda investisiya yönümlü maşın-avadanlıqların və malların xüsusi çəkisi 22% təşkil edərək 334 mln. dollar məbləğində olmuşdur. Bundan başqa il ərzində respublikaya 130 mln. dollarlıq istehsal tə'yinatlı kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, 1999-cu ildə həmin məhsulların idxalı 114 mln. dollar məbləğində olmuşdur. Bütövlükdə keçən illə müqayisədə, qeyd etdiyimiz kimi, idxalın ümumi həcmi cəmi 105,6 mln. dollar artmışdır. Bunun da əsas səbəbi obyektiv amillərin tə'siri nəticəsində birbaşa xarici investisiyalarla bağlı ölkə iqtisadiyyatına investisiya yönümlü idxal mallarının bir qədər azalması, yə'ni əvvəlki illərdə geniş miqyaslı investisiya axınlarının "məhsulvermə" dövrünün başlanması və idxalı

***Xidmətlər balansı.*** 2000-ci il ərzində xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər əsas yerlərdən birini tutmuşdur və həmin xidmətlərin ümumi həcmi 744,3 mln. dollar təşkil etmişdir. Qeyri-rezidentlər tərəfindən Azərbaycanın hüquqi və fiziki şəxslərinə 484,5 mln. dollar məbləğində xidmət göstərildiyi halda, Azərbaycanın xarici ölkələrin rezidentlərinə göstərdiyi xidmətlərin dəyəri 259,8 mln. dollar təşkil etmişdir. Xidmətlər balansı kəsirinin 2000-ci ildə də belə

mln. dollars has been imported in the country during 2000. Up to 50% of those imports, i.e. 364.7 mln. dollars relates to foodstuffs. At the same time, it is necessary to note that as a result "output" from large-scale investments during previous periods and certain development of several industry sectors substituting imports. Both trends can be considered positive results.

**Functional structure of imports**

| | 1999 qod | | 2000 qod | |
|---|---|---|---|---|
| | Amount, $ mln. | Share, in % | Amount, $ mln. | Share, in % |
| Import – totals | 1433 | 100,0 | 1539 | 100,0 |
| Including Consumer goods | 851 | 59,4 | 769 | 50,0 |
| Including - food products | 402 | 28,1 | 365 | 23,7 |
| - other | 449 | 31,3 | 404 | 26,3 |
| Investment-dependent products | 350 | 24,4 | 334 | 21,7 |
| Other products | 41 | 4,0 | 26 | 1,4 |

of increase in local production substituting imports, import of consumer goods decreased by 80 mln. dollars, including 40 mln. dollars related to foodstuffs, as compared to 1999. In the functional structure of imports, the share of investment-dependent machinery, equipment and products made up 22% or 334 mln. dollars. Additionally, production-oriented chemicals, as well as ferrous and non-ferrous metal products for 130 mln. dollars were imported during the reporting year. For comparison, it is necessary to note that export of those products in 1999 made up 114 mln. dollars. In total, compared to the last year, as we noted, total volume of imports increased by 105.6 mln. dollars. The main reason for this was a certain decrease of investment dependent products imported in the country, in relation to direct foreign investments, under the influence of certain objective factors, i.e. the start of the period of

18.8% of foreign trade was carried out with CIS countries, 81.2% - with other foreign countries. Our country has established more intensive trade relations related to exchange of goods with Italy, Russia, Turkey, USA, France, Iran, Great Britain, Israel, Switzerland, and Georgia. In total, 75.8% of import and export operations of Azerbaijan Republic were carried out with the above mentioned 10 countries.

***Balance of services.*** During the year 2000, reciprocal services played one of the main roles in economic relations of Azerbaijan with foreign countries, with the total volume of those services making up 744.3 mln dollars. While services provided to individuals and companies in Azerbaijan by non-resident parties made up 484.5 mln dollars, Azerbaijan has provided services to foreign residents for the amount of 259.8 mln dollars. The fact that the deficit of balance

yüksək olması (224,7 mln. $) əsasən beynəlxalq neft kontraktları çərçivəsində neft sektorunun fəaliyyəti ilə bağlı işlərin yerinə yetirilməsinə sərf edilmiş 452,6 mln. dollar məbləğində vəsaitin 150,3 mln. dollarının xidmətlərə görə xarici dövlətlərin rezidentlərinə ödənilməsi ilə bağlıdır.

Tə’diyə balansında öz əksini tapmış qarşılıqlı xidmətlər dövriyyəsinin 35,4%-i nəqliyyat üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 263,4 mln. dollara bərabər olan nəqliyyat xidmətlərinin 54,7%-i Azərbaycan rezidentlərinin xarici dövlətlərin nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır. Öz növbəsində Azərbaycanın digər ölkələrə göstərdiyi nəqliyyat xidmətlərinin ümumi dəyəri 119,3 mln. dollara bərabər olmuşdur. Bu vəsaitin xeyli hissəsi TRASEKA layihəsi çərçivəsində respublika ərazisi vasitəsilə Orta Asiya respublikaları ilə Avropa ölkələri arasında tranzit yükdaşımalarının intensivləşməsi nəticəsində əldə edilmişdir.

Hesabat dövründə xaricilərə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 63,1 mln. dollara bərabər olmuşdur ki, bunun da 51,9%-i (32,7 mln. dolları) qeyri-rezidentlərin Azərbaycana işgüzar səfərlərə gəlmələri ilə bağlıdır. Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 131,6 mln. dollar olmuşdur. Burada əsas amil respublikamızdakı iqtisadi fəallığın və daxili sabitliyin bərqərar olması ilə əlaqədar turistlərin və iş adamlarının qarşılıqlı axınının lazımi səviyyədə qalması olmuşdur.

***Gəlirlər.*** Gəlirlərin ümumi dövriyyəsi 447,3 mln. dollara bərabər olmuşdur. Bunun da əsas hissəsini (87,5%) Azərbaycandan ödənişlər təşkil edir. Nəticədə 1999-cu illə müqayisədə gəlirlər üzrə ümumi kəsir xeyli (290,5 mln. dollar) artaraq 335,5 mln. dollara çatmışdır. Bu artım əsasən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin xarici payçı investorlarının gəlirlərinin repatriasiyası ilə əlaqədardır.

***Cari transfertlər.*** Cari transfertlər üzrə xarici ölkələrdən alınan humanitar, texniki və digər yardımların ümumi dəyəri 65,7 mln. dollara bərabər olmuşdur. Yardımların ümumi dəyərinin əsas hissəsini humanitar idxal malları təşkil edir. Belə ki, 2000-ci il ərzində ölkəyə gətirilmiş humanitar idxal mallarının ümumi həcmi 48,5 mln. dollar məbləğində olmuşdur. Cari transfertlər üzrə əməliyyatlara daxil olan fiziki şəxslərin pul baratları üzrə qarşılıqlı köçürmələrinin müsbət saldosu 3,6 mln. dollar təşkil etmişdir. Bütövlükdə cari transfertlər üzrə əməliyyatlar 73,1 mln. dollarlıq müsbət saldo ilə nəticələnmişdir.

***Kapitalın və maliyyənin hərəkəti hesabı.*** 2000-ci ildə ölkəyə ümumi kapital axını neft bonusu da daxil olmaqla keçən illə müqayisədə 154,7 mln. dollar azalaraq 1234,6 mln. dollar məbləğində olmuşdur. Bunun da əsas səbəbləri müqayisə olunan dövr ərzində neft sektoruna yönəldilmiş birbaşa investisiyaların, neft bonusunun və dövlət tə’minatlı kreditlərin azalması ilə əlaqədardır. Bunun isə neqativ hal olmayıb əvvəlki illərdəki geniş miqyaslı investisiya axını ilə bağlı olması mətndə izah edilmişdir.

Müsbət haldır ki, Azərbaycan iqtisadiyyatına bütün formalarda cəlb edilmiş xarici kapitalın ÜDM-də xüsusi çəkisi yüksək olaraq qalmaqdadır (25,2%). Qeyd etmək lazımdır ki, iqtisadi artımın stimullaşdırılması baxımından ən effektiv formada - **birbaşa investisiyalar** formasında daxilolmalar ölkəyə cəlb olunmuş xarici kapitalın 47,7%-ni təşkil etmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, birbaşa investisiyaların strukturunda neft sektorunun xüsusi çəkisi 76,9%

of services in 2000 was still so high (224.7 mln dollars), is mainly related to the fact that 150.3 mln dollars out of funds in the amount of 452.6 mln dollars, earned from implementation of work related to oil sector operations within the framework of international oil contracts, were paid to foreign residents for services provided.

35.4% of reciprocal services reflected in the balance of payments relates to activities carried out in transportation sector. 54.7% of transportation services for the total amount of 263.4 mln dollars were related to usage of foreign transportation systems by residents of Azerbaijan. In turn, total value of transportation services provided by Azerbaijan to other countries amounted to 119.3 mln dollars. Much of this money was earned as a result of increased intensity of cargo transportation among European countries in the framework of the TRASECA project.

During the reporting period, the value of tourism services provided to foreigners amounted to 63.1 mln dollars, 51.9% (32.7 mln dollars) of which was related to business trips of non-residents to Azerbaijan. In turn, the value of services provided by foreign countries to Azeri residents in relation to tourism made up 131.6 mln dollars. The main factor here was that the reciprocal travel of tourists and businessmen, in relation to continuing internal stability and economic activity in the country, stayed at the necessary level.

***Incomes.*** Total turnover of incomes made up 447.3 mln dollars. Major part of them (87.5%) was represented by payments from within Azerbaijan. As a result, total deficit related to incomes increased significantly, compared to 1999, (by 290.5 mln dollars) and reached 335.5 mln dollars. This increase is mainly related to repatriation of profits of foreign investors, participating in Azerbaijan International Operating Company.

***Current transfers.*** Total volume of humanitarian, technical and other types of aid received from foreign countries by means of current transfers made up 65.7 mln. dollars. Main part of total volume of financial aid is comprised of humanitarian imported goods. For instance, during 2000 total volume of humanitarian goods imported in the country made up 48.5 mln dollars. Positive balance of mutual transfers by means of money orders of individuals, included in operations related to current transfers, made up 3.6 mln dollars. In total, operations related to current transfers resulted in positive balance of 73.1 mln dollars.

***Capital and finance movement account.*** In 2000, total inflow of capital into the country, with the oil bonus included, decreased by 154.7 mln dollars compared to the last year and made up 1,234.6 mln dollars. Main reasons for this, in the period under comparison, is related to decrease of direct investments allocated for the oil sector, oil bonus, and loans guaranteed by the government. This document does not consider it a negative event for the reporting period, but rather a too large investment inflow during previous years.

It is a positive event that the share of all forms of foreign capital attracted into economy of Azerbaijan in the GDP still remains high (25.2%). It is necessary to note that foreign capital inflows into the country made in the most effective form from the point of view of stimulation of economic growth – **direct investments** – amounted to 47.7%. At the same time, it is worth noting that in the structure of direct investments, the share of oil sector made up 76.9%, which was due to invest-

**Azərbaycan Respublikasına xarici kapital axınının funksional strukturu**

| | 1999-cu il | | 2000-ci il | | 2000-ci il 1999-cu ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | mln. dollar | xüsusi çəkisi, %-lə | mln. dollar | xüsusi çəkisi, %-lə | |
| Birbaşa investisiyalar | 691,0 | 49,7 | 588,3 | 47,7 | 85,1 |
| -neft sektoru | 526,9 | 37,9 | 452,6 | 36,7 | 85,9 |
| -digər sektorlar | 164,1 | 11,8 | 135,7 | 11,0 | 82,7 |
| Kreditlər və digər investisiyalar | 543,3 | 39,1 | 546,3 | 44,2 | 100,6 |
| -dövlət tə'minatlı kreditlər | 331,3 | 23,8 | 265,6 | 21,5 | 80,2 |
| -digər kreditlər və investisiyalar | 212,0 | 15,3 | 280,7 | 22,7 | 132,4 |
| Neft bonusu | 155,0 | 11,2 | 100,0 | 8,1 | 64,5 |
| CƏMİ | 1389,3 | 100,0 | 1234,6 | 100,0 | 88,9 |

təşkil etmişdir ki, bu da iri neft layihələri çərçivəsində büdcə xərcləri ilə əlaqədar səhmdar kapital şəklində daxil olmuş sərmayələrlə bağlıdır. Neft kontraktları ilə bağlı olmayan birbaşa investisiyaların respublikaya axını davam etmiş və belə sərmayələrin ümumi həcmi hesabat ili ərzində 135,7 mln. dollar təşkil etmişdir.

Hesabat dövründə milli iqtisadiyyatımıza yönəldilmiş xarici sərmayələrin ümumi həcminin 44,2%-ni tə'diyə balansının metodologiyasına əsasən **digər investisiyalar** kateqoriyasına daxil olan qısa və uzunmüddətli kreditlər və ssudalar, ticarət kreditləri, avans ödənişləri, depozitlər və s. valyuta əməliyyatları şəklində daxil olmuş vəsaitlər təşkil edir. 2000-ci ildə bu göstərici bir qədər artaraq 546,3 mln. dollar olmuşdur.

Hesabat dövrünün tə'diyə balansının digər investisiyalar kateqoriyasına daxil olan **kreditlər və ssudalar** bölməsində dövlət tə'minatı əsasında beynəlxalq maliyyə və digər təşkilatlar tərəfindən ayrılmış kreditlərin istifadə olunmuş hissəsi öz əksini tapmışdır. Belə ki, bu təşkilatlar tərəfindən ayrılmış vəsaitin hesabat dövründə 265,6 mln. dolları istifadə olunmuşdur ki, bu da əsas e'tibarı ilə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir.

***Ehtiyat aktivləri.*** Azərbaycanın ixrac potensialının durmadan artımı və ölkə iqtisadiyyatına yönəldilmiş xarici sərmayələr tə'diyə balansının cari əməliyyatlar hesabının kəsirinin tam maliyyələşdirilməsini və ölkənin xarici valyuta ehtiyatlarının artmasını tə'min etmişdir. Bunun nəticəsində isə 2001-ci il yanvar ayının 1-nə olan vəziyyətə görə "Neft Fondunun aktivləri" də daxil olmaqla ölkənin formalaşmış xarici dönər valyutada ehtiyatları beynəlxalq normalara uyğun həcmdə idxalı maliyyələşdirməyə imkan verir.

Bütövlükdə Azərbaycanın xarici iqtisadi fəaliyyətinin yekunları xarici tərəfdaşların ölkəmizə olan e'timadının artdığını göstərir. 2000-ci ildə ölkəmiz 140 xarici dövlət ilə iqtisadi əlaqələr yaratmışdır. Makroiqtisadi vəziyyətin sabitləşməsi, özəl sektorun möhkəmləndirilməsinə

**Functional structure of foreign capital flow in Azerbaijan Republic**

| | 1999 qod | | 2000 qod | | 2000 Compared to 1999, in % |
|---|---|---|---|---|---|
| | USD mln | Share, in % | USD mln | Share, in % | |
| Direct investments | 691,0 | 49,7 | 588,3 | 47,7 | 85,1 |
| -oil sector | 526,9 | 37,9 | 452,6 | 36,7 | 85,9 |
| -other sectors | 164,1 | 11,8 | 135,7 | 11,0 | 82,7 |
| Loans and other investments | 543,3 | 39,1 | 546,3 | 44,2 | 100,6 |
| -loans under govern ment guarantee | 331,3 | 23,8 | 265,6 | 21,5 | 80,2 |
| -other credits and investments | 212,0 | 15,3 | 280,7 | 22,7 | 132,4 |
| Oil bonus | 155,0 | 11,2 | 100,0 | 8,1 | 64,5 |
| TOTAL | 1389,3 | 100,0 | 1234,6 | 100,0 | 88,9 |

ments made in the form of share capital, related to budgetary expenses in the framework of large oil projects. The inflow of direct investments not related to oil contracts in the country has also continued and total volume of such investments during the reporting year made up 135.7 mln dollars.

During the reporting period, 44.2% of total volume of foreign investments made into the national economy represented funds received through short- and long-term loans and credits, trade loans, advance payments, deposits, and other foreign currency operations, mainly included in the **other investments** category on the basis of balance of payments methodology. During 2000 this indicator increased again and reached 546.3 mln. dollars.

Used part of the loans provided by international financial and other organizations on the basis of government guarantee has been reflected in **loans and credits**, included in the category of other investments in the balance of payments during the reporting period. Accordingly, 265.6 mln dollars out of funds provided by those organizations were used during the reporting period, which were confidently used to finance investment projects.

***Reserve funds.*** Continuous growth of export potential of Azerbaijan and foreign investments directed into the country's economy ensured complete financing of the deficit at the account of current operations of the balance of payments and increase in the state foreign currency reserves. As a result of this, state hard foreign currency reserves at 1 January 2001, including "Oil fund assets", give a chance to finance imports in the volume corresponding to international standards.

In total, results of foreign economic operations of Azerbaijan show that the confidence of foreign parties in our country has increased. During 2000, Azerbaijan Republic established economic relations with 140 countries. Stabilization of macroeconomic situation,

yönələn struktur islahatları, eləcə də iqtisadiyyatın neft sektorunun daha da inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq maliyyə mərkəzlərində yüksək investisiya reytinqi alması üçün geniş imkanlar yaradır.

structural reforms aimed at strengthening of private sector, as well as further development of oil sector of the economy, give Azerbaijan a good chance to get high financial rating among international financial centers.

# 2. PUL-KREDİT SİYASƏTİ

## 2.1. Pul-kredit siyasətinin başlıca istiqamətləri və əsas yekunları

***2000-ci il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri.*** Milli Bankın hər il üçün fəaliyyətinin əsas istiqamətləri «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq işlənən pul-kredit siyasətinin başlıca istiqamətlərində təcəssüm olunur.

2000-ci il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri respublikada mövcud sosial-iqtisadi vəziyyətin təhlilinin, son altı ildə yeridilən pul-kredit siyasətinin yekunlarının, respublika hökümətinin və Milli Bankın beynəlxalq maliyyə-kredit təşkilatları ilə birgə işlədikləri sənədlərin, Azərbaycan Respublikası Prezidentinin pul-kredit və valyuta siyasətinin təkmilləşdirilməsi və bank islahatlarının daha da dərinləşdirilməsi barədə ardıcıl qəbul etdiyi fərmanlardan irəli gələn vəzifələrin nəzərə alınması əsasında formalaşmışdır. Əvvəlki illərdə olduğu kimi 2000-ci ildə də yeridilən pul-kredit siyasətinin əsas məqsədini ölkədə bərqərar olmuş maliyyə sabitliyini möhkəmlətmək, milli valyutanın məzənnəsini çevik tənzimləməklə onun sabitliyini qorumaq, beynəlxalq normalara uyğun xarici valyuta ehtiyatları yaratmaq, bank islahatlarını daha da dərinləşdirmək təşkil etmişdir. Pul-kredit və valyuta siyasətində 1999-cu ilin ortalarından başlayaraq götürülmüş yeni kursun müsbət nəticələr verməyə başladığını nəzərə alaraq onun 2000-ci ildə də davam etdirilməsi nəzərdə tutulmuşdu. Belə ki, deflyasiyanın qarşısını almaq və inflyasiyaya məqbul çərçivədə yol vermək qarşıya məqsəd kimi qoyulmuşdur. İqtisadiyyatın tələbatına uyğun olaraq və maliyyə sabitliyinə xəta yetirmədən pul kütləsini artırmaq və bunun üçün pul parametrlərini lazımi həddə çatdırmaq nəzərdə tutulmuşdu. 2000-ci ilin sonuna nəzərdə tutulmuş xalis beynəlxalq valyuta ehtiyatlarının həcmi respublikanın yüksək beynəlxalq likvidliyini tə'min etməyə imkan verməli, dövlətin xalis xarici valyuta ehtiyatlarının həcmi 3 aydan artıq idxala kifayət etməli idi.

Nəzərdə tutulan proqram məqsədlərinə nail olmaq üçün mərkəzləşdirilmiş kredit resursları üzrə faizlərin kredit auksionları vasitəsilə çevik tənzimlənməsi, məcburi ehtiyat normalarının dinamik dəyişdirilməsi, valyuta bazarının tənzimlənməsi və qiymətli kağızlar bazarında əməliyyatlar kimi alətlərdən fəal istifadə olunması göstərilirdi.

2000-ci il üçün pul-kredit siyasətinin başlıca istiqamətlərində bank sisteminin daha da möhkəmləndirilməsi tədbirlərinə xüsusi yer verilmişdir. Bank sistemini möhkəmləndirməyin strateji istiqamətləri kimi dövlət banklarının yenidən qurulması və onların özəlləşdirilməyə hazırlanmasının davam etdirilməsi, özəl bankların mövcud problemlərinin həlli üzrə sistemli tədbirlərin həyata keçirilməsi, həmçinin bank sisteminin səmərəli fəaliyyəti üçün infrastrukturun, xüsusən də qanunvericilik bazasının təkmilləşdirilməsi göstərilmişdir.

İstiqamətlərdə o da qeyd olunmuşdur ki, 2000-ci il üçün nəzərdə tutulan pul-kredit siya-

# 2. MONETARY POLICY

## 2.1 Principal objectives and main results of monetary policy

***Principal objectives of monetary policy for 2000.*** Principal objectives for the activities of the National Bank are stated in principal objectives of monetary policy developed in conformity with the law of Azerbaijan Republic "On National Bank of Azerbaijan Republic".

Principal objectives for monetary policy for the year 2000 were developed in the same way, and those objectives have been based on the analysis of present social and economic conditions in the country, results of monetary policy observed during the last six years, documents used by the central government and National Bank jointly with international financial and credit institutions, with consideration of assignments coming from adopted decrees of the President of Azerbaijan Republic on regulation of monetary and exchange rate policies and further broadening of banking reforms. As during previous years, the main goals of monetary policy during the year 2000 they were to increase financial stability achieved in the country, to protect national currency by means of regulation of its exchange rate, to establish foreign exchange reserves complying to the international standards, and to further expand banking reforms. Taking into consideration positive results of the new strategy adopted starting from mid 1999 in relation to monetary and exchange rate policies, it was planned to continue in 2000. For instance, elimination of deflation and keeping inflation within acceptable limits was set as the main goal. Increasing money supply in compliance with the level of demand in the economy without negative influence on financial stability, and bringing monetary parameters to the necessary level for this purpose, was also taken in consideration. The level of net international foreign exchange reserves planned for the end of 2000 was supposed to give a chance to ensure high international liquidity of the country. The level of net state foreign exchange reserves was supposed to be enough to support more than 3 months of imports.

To achieve program goals set, such instruments as timely regulation of interest for centralized credit resources by means of credit auctions, dynamic change in the ratio of required reserves, regulation of foreign exchange market, and activities at securities markets were used.

During 2000, the principal strategy for monetary policy specifically considered measures aimed at further strengthening of the banking systems. As part of a strategy, aimed at strengthening the banking system, several measures were taken, including reorganization of the state banks and their further preparation for privatization, implementation of systemic measures for solving current problems in private banks, as well as improvement of infrastructure, especially the legislative framework, for efficient operation of the banking system.

The strategy that were used, also considered the fact that the implementation of the main goals

sətinin əsas məqsəd və vəzifələrinin yerinə yetirilməsi iqtisadiyyatın digər sferalarında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən, ölkədə yeridilən iqtisadi siyasətin bütün qanadlarının düzgün sinxronlaşdırılmasından çox asılıdır. Bundan başqa ölkə iqtisadiyyatının sür'ətlə dünya iqtisadiyyatına inteqrasiya olunduğu, dünyada baş verən iqtisadi hadisələrin qloballaşdığı və respublikaya da tə'sir göstərdiyi bir şəraitdə pul-kredit siyasətinin çevikliyini daha da artırmaq nəzərdə tutulmuş və zəruri hallarda onun təshih olunması istisna edilməmişdir.

***2000-ci il pul-kredit siyasətinin əsas yekunları.*** 2000-ci il üçün müəyyən olunmuş pul-kredit siyasətinin başlıca istiqamətlərində qarşıda qoyulan məqsədlərə nail olunmuşdur.

Deflyasiyanın qarşısı alınmış və 2000-ci ildə 2,2%-lik inflyasiya müşahidə olmuşdur. Xatırladaq ki, 1998-ci ildə 7,6%, 1999-cu ildə isə 0,5%-lik deflyasiya baş vermişdi.

Valyuta məzənnəsinin iqtisadi cəhətdən əsaslandırılmış dinamikası tə'min edilmişdir. Milli Bankın məzənnə siyasətinin yumşaldılmasını davam etdirməsi nəticəsində 2000-ci ildə manatın ABŞ dollarına nəzərən məzənnəsi ilin əvvəlinə nisbətən 4,4% devalvasiyaya uğramışdır. Xatırladaq ki, 1999-cu ildə devalvasiya tempi 12,4% olmuşdur.

2000-ci il üçün inflyasiyanın səviyyəsi və manatın xarici dönərli valyutalara nəzərən məzənnəsi üzrə qoyulan məqsədlərə çatmaq **pul proqramı** parametrlərinin həcminə ciddi riayət olunması hesabına əldə edilmişdir. Belə ki, xalis daxili aktivlərin maksimum həddi üzrə müəyyən edilmiş 223,3 mlrd. manatlıq proqram məbləği faktiki olaraq 197,4 mlrd. manat, dövlət idarəetmə sektoruna xalis kreditlər üzrə rəqəmlər isə uyğun olaraq, -70,7 mlrd. manat və –92,5 mlrd. manat təşkil etmişdir. Xalis beynəlxalq aktivlərin həcmi minimum 324,8 mln. dollar proqram səviyyəsinə qarşı faktiki olaraq 344 mln. dollar olmuşdur.

2000-ci il ərzində pul bazasının (ehtiyat pulların) əsaslı artması davam etmiş və bu artımın tempi 22,7% təşkil etmişdir. Pul bazasının artımı əsasən xalis beynəlxalq ehtiyatların artımı hesabına baş vermişdir.

Geniş pul kütləsi 18,3% artmış və 1 yanvar

**Əsas pul göstəricilərinin dəyişməsi**

| | 01.01.2000 | 01.01.2001 | Əvvəlki ilə nisbətən dəyişmə | |
|---|---|---|---|---|
| | | | %-lə | mlrd. man. |
| Pul kütləsi, mlrd. manat | 1989,9 | 2730,3 | 37,2 | 740,4 |
| o cümlədən, manatla pul kütləsi | 1404,3 | 1661,1 | 18,3 | 256,8 |
| Pul ehtiyatı, mlrd. manat | 1324,7 | 1765,4 | 33,2 | 440,7 |
| o cümlədən, manat ehtiyatı | 1256,6 | 1542,0 | 22,7 | 285,4 |
| Xarici aktivlər, mlrd. manat | 1240,2 | 1570,0 | 26,6 | 329,8 |
| Daxili aktivlər, mlrd. manat | 87,7 | 197,4 | 2,2d. | 109,7 |

and objectives of the monetary policy for the year 2000 strongly depend on achievement of objectives in other spheres of economy and correct synchronization of all constituents of economic policy carried out in the country. Additionally, given fast integration of the country's economy into the world economy, globalization of economic events taking place in the world and their impact on our country, the policy also considered further increase of the flexibility of monetary policy and its possible correction, if proved necessary.

***Main results of the monetary policy for the year 2000.*** The goals set as part of the main strategy for monetary policy for the year 2000 were successfully achieved.

Deflation was taken care of, and during the year 2000 the rate of inflation made up 2.2% per annum. In 1998 deflation rates made up 7.6%, and in 1999 – 0.5% per annum, respectively.

Dependency of foreign exchange rate solely on economic factors was also ensured. As a result of continued depreciation policy, the exchange rate of manat to US dollar during the year 2000 devaluated 4.4% compared to the beginning of the year. In 1999 such devaluation made up 12.4%.

Objectives related to inflation rate for the year 2000 and exchange rate of manat were achieved because of strict control over volume of the money program parameters. For instance, planned maximum limit for net domestic assets set at 223.3 bln. manats, actually made up 197.4 bln. manats and net loans to state administrative sector, respectively –70.7 bln. manat and – 92.5 bln. manat. Volume of net international assets as compared to minimum planned level of 423.8 bln. US dollars, actually made up 344 bln. US dollars.

Main increase of reserve money during the year 2000 has continued, and the rate of this increase made up 22.7%. The increase in reserve money took place mainly due to the increase of net international reserves.

**Changes in main monetary indicators**

| | 01.01.2000 | 01.01.2001 | Change year over year | |
|---|---|---|---|---|
| | | | in % | bln. manats |
| Money supply, bln. manats | 1989,9 | 2730,3 | 37,2 | 740,4 |
| including<br>manat money supply | 1404,3 | 1661,1 | 18,3 | 256,8 |
| Reserve money, bln. manats | 1324,7 | 1765,4 | 33,2 | 440,7 |
| including<br>manat reserves | 1256,6 | 1542,0 | 22,7 | 285,4 |
| Foreign assets, bln. manats | 1240,2 | 1570,0 | 26,6 | 329,8 |
| Domestic assets, bln. manats | 87,7 | 197,4 | 2,2d. | 109,7 |

Overall money supply increased by 18.3% and made up 1661.1 bln manats as of 1 January 2001. For comparison, it has to be noted that money supply in 1999 increased by 15.2%. Considering the price dynamics, real growth rate of money supply in 2000 made up 15.8%. While the ratio of money supply growth to growth in prices

**Monetar sektorun indikatorları (%-lə dəyişmə)**




2001-ci il tarixinə 1661,1 mlrd. manat təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, 1999-cu ildə pul kütləsi 15,2% artmışdır. Qiymətlərin dinamikasını nəzərə alsaq 2000-ci ildə pul kütləsinin real artım tempi 15,8% təşkil etmişdir. Pul kütləsinin qiymətləri qabaqlama əmsalı sabit qaldığı halda (1,16), onun ÜDM-i qabaqlama əmsalı 1,07-dən 1,06-a düşmüşdür. Bu, o deməkdir ki, pul kütləsinin artımı qiymətlərdən daha çox iqtisadi artıma tə'sir göstərmişdir. Başqa sözlə desək, iqtisadi subyektlər pul kütləsinin artmasına istehsalın həcminin daha yüksək templə artması ilə reaksiya vermişlər. Ümumiyyətlə, son vaxtlar iqtisadiyyatın pulla tə'minatının yaxşılaşması pul-kredit siyasətinin yumşaldılmasının vaxtında və düzgün olduğunu göstərir.

Nağd pul dövriyyəsinin yaxşılaşması da davam etmişdir. Belə ki, emissiyanın məxaricdə xüsusi çəkisi 2,7% təşkil etmişdir. 2000-ci ildə dövriyyədə olan aşınmış əskinasların təzələri ilə əvəz olunması prosesi də davam etmişdir.

## 2.2. Pul-kredit tənzimlənməsi alətləri

Milli Bank 2000-ci ildə pul-kredit bazarını banklararası kredit hərraclarında, valyuta və Dövlət Qısamüddətli İstiqraz Vərəqələri bazarında iştirak etmək, həmçinin məcburi ehtiyat normalarını dəyişdirmək vasitəsilə tənzimləmişdir.

Mərkəzləşdirilmiş kreditlər əvvəlki illərdə olduğu kimi pul təklifini tənzimləməyin əsas vasitələrindən biri olmuşdur. Mərkəzləşdirilmiş resurslar kommersiya banklarına müəyyən edilmiş pul proqramı çərçivəsində ayrılmışdır.

1999-cu ilin noyabr ayının 1-dən 10%-ə endirilmiş mərkəzi uçot dərəcəsi hesabat dövründə dəyişməz qalmışdır. Real faiz dərəcəsi 7,8% təşkil etmişdir. Bu da, MDB ölkələri arasında ən aşağı uçot dərəcəsidir.

2000-ci ildə həm manat hesabları, həm də valyuta hesabları üzrə məcburi ehtiyat normaları 10% təşkil etmişdir. Qiymətli kağızlar bazarının inkişafına şərait yaratmaq üçün Milli Bank tərəfindən kredit təşkilatlarına məcburi ehtiyat

**Indicators of monetary sector (change in %)**




remained stable (1.16), the ratio of the money supply growth to GDP growth decreased from 1.07 to 1.06. This means that the growth of money supply has influenced economic growth more than prices. In other words, the economy reacted to growth of money supply by higher-rate growth in production level. In general, latest improvement in providing economy with money shows that softening of monetary policy was a timely and correct measure.

Improvement of cash turnover has also continued. For instance, the share of money emission in expenditures made up 2.7%. The process of substituting worn-out banknotes in circulation has also continued in 2000.

### 2.2 Monetary instruments

In 2000, National Bank regulated monetary market by means of interbank auctions, participation in foreign currency and Treasury Bills markets, as well as changing the level of required reserves.

Centralized credits, as during previous years, were one of the means of regulating money supply. Centralized resources were allocated to commercial banks in the framework of present money program.

Discount rate brought to the level of 10% starting from November 1, 1999, remained unchanged. Real interest rate made up 7.8%. This was the lowest discount rate among CIS countries.

During the year 2000, required reserves limit in both manat and foreign currency was set at 10%. In order to support development of securities market, National Bank permitted credit institutions to use 25% of the funds kept as required reserves, starting from May 1999, and 50% of the funds kept as required reserves, starting from November 1999, for the purchase of securities. This measure not only facilitates development of securities market, but also provides conditions for increasing supply of money into economy.

Lately, the role of the securities market has also increased in the regulation of monetary market.

**1995-2000-ci illərdə inflyasiyanın və mərkəzləşdirilmiş kreditlərə görə faiz dərəcəsinin dəyişməsi**




fondunda saxladıqları vəsaitlərin 1999-cu ilin mayından 25%-ni, noyabrdan isə artıq 50%-ə qədərini qiymətli kağızların alınması məqsədinə istifadə etməyə icazə verilmişdir. Bu, qiymətli kağızlar bazarının inkişafına təkan verməklə yanaşı iqtisadiyyata pul təklifinin artmasına şərait yaradır.

Son vaxtlar pul-kredit bazarının tənzimlənməsində qiymətli kağızlar bazarının da rolu artmaqdadır. Qiymətli kağızlar bazarında əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vəsait cəlb etmək vasitəsi, digər tərəfdən isə Milli Bank üçün pul-kredit siyasətinin həyata keçirilməsi, pul-kredit bazarının tənzimlənməsi aləti rolunu oynamışdır. Hələlik, açıq bazarda əməliyyatlar pul-kredit siyasətinin əsas alətinə çevrilməmişdir. Azərbaycanda qiymətli kağızların təkrar bazarı inkişaf etdikcə açıq bazarda əməliyyatlardan daha geniş miqyasda istifadə etmək imkanları yaranacaqdır. Həm də gələcəkdə Milli Bank açıq bazarda əməliyyatlar aparmaq üçün təkcə hökumətin deyil, eyni zamanda özünün buraxdığı qiymətli kağızlardan da istifadə edəcəkdir.

Artıq Milli Bank tərəfindən dövlət qısamüddətli istiqraz vərəqələri ilə açıq bazar əməliyyatlarının aparılmasının normativ–hüquqi bazası yaradılmışdır. 2001-ci ildə həyata keçirilməsi nəzərdə tutulan DQİV ilə REPO və əks REPO əməliyyatları qiymətli kağızlar bazarının sonrakı inkişafına təkan verəcəkdir.

## 2.3. Maliyyə bazarlarının inkişafı

***Dövlət qısamüddətli qiymətli kağızlar bazarı***

Azərbaycanın qiymətli kağızlar bazarının nisbətən zəif inkişaf etmiş seqmentidir. 1996-cı ildən fəaliyyətə başlayan DQİV bazarı ötən illər ərzində sür'ətlə inkişaf etmişdir. 2000-ci ildə isə dövlət qısamüddətli borc öhdəlikləri bazarının inkişaf tempi bir qədər də sür'ətlənmişdir.

Hesabat ilində emitent tərəfindən DQİV-nin ilkin yerləşdirilməsi üzrə 36 auksion keçirilmişdir. Auksionlarda əsasən 90, 91 və 92 günlük DQİV-i təklif edilmişdir. 2000-ci ildə yerləşdirməyə təklif olunmuş DQİV-nin həcmi əvvəlki ilin göstəricisinə nisbətən 156,0 mlrd. manat, yaxud 38,61 faiz artmış və nominal üzrə 560,0 mlrd. manat təşkil etmişdir. Hesabat ilində yerləşdirilmiş DQİV-nin ümumi həcmi nominal üzrə 344,6 mlrd. manat, yaxud yerləşdirilməyə təklif olunmuş DQİV-nin 61,5 faizini təşkil et-

Change in inflation and interest rate for centralized credits during 1995-2000




Operations at the securities market have played a role of a means for attracting funds to the state budget, on one hand, and as an instrument for implementing monetary policy for the National Bank and monetary market regulation, on the other hand. So far, open-market operations have not transformed into the major instrument of monetary policy. With the development of secondary securities market in Azerbaijan, the chances to use larger-scale open-market operations will increase. Additionally, in the future open-market operations, beside securities issued by the government, the National Bank will use securities, issued by itself.

Normative and legislative framework has already been developed for carrying out open-market operations with short-term Treasury bills. Repurchase and reverse repurchase transactions with T-bills, expected to start in 2001, will contribute to further development of the securities market.

### 2.3 Development of financial market

***Short-term Treasury Bills Market.*** Securities market in Azerbaijan is a relatively weakly developed segment. T-bills market, which started operating in 1996, has been quickly developing over the subsequent years. In 2000, the rate of development of the state short-term debt securities has increased even more.

36 auctions for primary placements of T-bills were held by the issuer during the fiscal year. The auctioned T-bills mainly had maturities of 90, 91, and 92 days. The volume of T-bills proposed for placement in 2000, compared to the previous year's figures, increased by 156.0 bln. manat, or 38.61%, and made up 560.0 bln. manat in nominal prices. Total volume of T-bills placed during the fiscal year made up 344.6 bln. manat in nominal prices, or 61.5% of total T-bills auctioned. While at the end of 1999 there were T-bills for the amount of 77.6 bln manats in circulation, at the end of 2000 the volume of such T-bills made up 127.8 bln. manats.

In 2000, the T-bills market differed from previous year not only in quantity but in quality. For instance, maturities of the T-bills in circulation during the reporting year have increased and their yield decreased. In contrast with 1999, it can be said that during 2000 only 3-month T-bills were circulating in the market.

mişdir. Əgər 1999-cu ilin sonunda dövriyyədə 77,6 mlrd. manatlıq DQİV vardısa, 2000-ci ilin sonunda dövriyyədəki DQİV-nin həcmi 127,8 mlrd. manat təşkil etmişdir.

2000-ci ildə DQİV bazarı ötən illə müqayisədə təkcə kəmiyyətcə deyil, keyfiyyət baxımından da fərqlənmişdir. Belə ki, hesabat ilində dövriyyədə olan DQİV-lərin müddətliyi artmış, onların gəlirliyi isə aşağı düşmüşdür. 1999-cu ildən fərqli olaraq 2000-ci ildə bazarda demək olar ki, yalnız 3 aylıq DQİV-lər dövr etmişdir.

1999-cu ildə DQİV üzrə orta çəkili gəlirlilik 14,6 faiz ilə 22,9 faiz arasında dəyişirdisə, 1999-cu ilin dördüncü rübündən başlayaraq Maliyyə Nazirliyi tərəfindən DQİV üzrə gəlirliliyin tədricən azaldılması prosesi başlanmışdır. 2000-ci ildə DQİV üzrə orta çəkili gəlirlilik 16,4 faiz ilə 17,1 faiz arasında dəyişmişdir. Bu zaman maksimum gəlirlilik ilin əvvəlində qeydə alınmışdır.

***Korporativ qiymətli kağızlar bazarı.*** 2000-ci ildə fəaliyyətə başlayan Bakı Fond Birjası Azərbaycanda dövlət qiymətli kağızlar bazarı ilə bərabər korporativ qiymətli kağızlar bazarının inkişafına institutsional şərait yaradır. BFB-nin daxili tənzimləmə, habelə listinq qaydalarının müəyyən olunması, geniş inkişafı gözlənilən səhm və istiqrazlar bazarının formalaşmasına hüquqi-texniki hazırlıq məqsədi daşıyır.

Azərbaycanda real sektorun (neft sektoru istisna olmaqla) rentabelliyinin aşağı olması, müəssisələrin əksəriyyətinin zərərlə işləməsi, səhmləşmə qaydasında özəlləşmiş müəssisələrin səhmləri üzrə dividendin aşağı olması korporativ qiymətli kağızlar bazarının inkişafına hələ ki, imkan vermir. Lakin strateji özəlləşmə nəticəsində bir sıra rentabelli müəssisələrin investor marağı cəlb edən səhmlərinin buraxılması, real sektorun inkişafı istiqamətində aparılan genişmiqyaslı islahatlar korporativ qiymətli kağızlar bazarının inkişafına zəmin yaradacaqdır. Real sektorla yanaşı maliyyə-bank sektorunda aparılan tədbirlər, bankların və digər maliyyə vasitəçilərinin kapitallaşdırılması prosesi, dövlət banklarının özəlləşdirilməsi bu sektorun səhm və istiqrazlar bazarının canlanmasına səbəb olacaq.

***Depozit və kredit bazarı.*** Son dövrlərdə maliyyə bazarının mühüm tərkib hissəsi olan depozit və kredit bazarında xüsusi canlanma müşahidə edilməkdədir. 2000-ci ildə istər depozit, istərsə də kredit əməliyyatlarının həcmi əhəmiyyətli dərəcədə artmışdır.

2000-ci ildə əmanət və depozitlərin (xarici valyuta ilə əmanət və depozitlər daxil olmaqla) məbləği 423,8 mlrd. manat, yə’ni 44,3% artmışdır. O cümlədən manatla əmanət və depozitlər 16%, xarici valyuta ilə əmanət və depozitlər isə 55,4% artmışdır. Xatırladaq ki, 1999-cu ildə əmanət və depozitlərin həcminin artımı 21,6% təşkil etmişdir.

Fiziki şəxslərin banklarda olan əmanətlərinin (xarici valyuta ilə əmanətlər daxil olmaqla) məbləği dövr ərzində 52,8% artaraq 01.01.2001-ci il tarixinə 396,4 mlrd. manat olmuşdur. Bu əmanətlərin 67,2%-ni (266,5 mlrd. manat) müddətli əmanətlər, 32,8%-ni isə (129,9 mlrd. manat) tələb olunanadək əmanətlər təşkil edir. Onu da qeyd edək ki, fiziki şəxslərin bank əmanətlərinin 14%-ni qeyri-rezidentlər tərəfindən qoyulmuş əmanətlər təşkil edir.

2000-ci ildə əmanət və depozitlərə görə faiz dərəcələri əhəmiyyətli dərəcədə dəyişməmişdir.

Əmanət bazasının artımı banklar tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının artmasının əsas amillərindən olmuşdur.

01.01.2001-ci il tarixinə kredit qoyuluşlarının məbləği 2322 mlrd. manat təşkil etmişdir ki, bu

While in 1999, average yield for T-bills ranged between 14.6% and 22.9%, starting from the fourth quarter of 1999, the Ministry of Finance gradually started to decrease yield on T-bills. During 2000, average yield on T-bills ranged from 16.4% to 17.1%. Maximum yield was observed at the beginning of the year.

***Corporate securities market.*** The Baku Stock Exchange, which started its activities in 2000, provided institutional conditions for development of corporate securities market in parallel with government securities market. Establishment of BSE's internal regulation guidelines and development of listing rules have an objective to facilitate legislative and technical preparation for creation of stocks and bonds market, fast development of which is highly expected.

Low profitability of the real sector (excluding the oil sector), the fact that majority of the enterprises work with loss and low dividends paid for shares in enterprises privatized by means of public offering doesn't yet give a chance for development of corporate securities market. However, offering of several shares of various profitable enterprises, which attract investors, as a result of strategic privatization and extensive reforms carried out in the sphere of development of the real sector will provide grounds for development of corporate securities market. Measures taken in financial and banking sectors, which have close relation to the real sector, the process of providing capital for banks and other financial institutions, privatization of state banks will help this sector become a primary force for animation of stocks and bonds market.

***Deposits and Loans market.*** Lately, certain enlivening takes place at the deposit and loans market, which is an important constituent of the financial market. The levels of both deposit- and loans-related activities increased significantly during 2000.

The amount of savings and deposits in 2000 (including savings and deposits in foreign currency) increased by 423.8 bln manats, i.e. 44.3%. Out of this amount, savings and deposits in manats increased by 16% and savings and deposits in foreign currency – by 55.4%. We remind you that in 1999 the level of savings and deposits increased by 21.6%.

The amount of bank savings of individuals (including foreign currency savings) during the period increased by 52.8% and amounted to 396.4 bln manats at 01.01.2001. 67.2% of those savings (266.5 bln manats) were represented by term deposits, and 32.8% (129.9 bln manats) – by demand deposits. It is also worth saying that 14% of individuals' bank savings were represented by deposits of non-residents. Interest rates for savings and deposits during 2000 did not change significantly.

The increase in savings was one of the main factors contributing to an increase in loans granted by banks in the economy of the country.

At 01.01.2001, the amount of loans granted made up 2,322 bln manats, which, compared to 01.01.2000, is 541.5 bln manat or 30.4% higher. Also, note that among the latest years, 2000 was the year with the fastest growth rate for loans.

Over the last years, the role of private banks in the structure of loans has been steadily increasing. While during 1995-96 the share of private banks in total loans granted within the country was around 17-20%, in 2000 this figure reached 34.2%.

90.1% of loans were made to legal entities, and 9.9% – to individuals.

As a result of growth in size of the private sector in the country, related to economic reforms

**Əmanətlərə görə faiz dərəcələrinin dinamikası**




da 01.01.2000-ci il tarixi ilə müqayisədə 541,5 mlrd. manat və ya 30,4% çoxdur. Qeyd edək ki, son illər ərzində kredit qoyuluşlarının ən yüksək artım tempi məhz 2000-ci ildə müşahidə edilmişdir.

Son illər kredit qoyuluşlarının strukturunda özəl bankların xüsusi çəkisi artmaqdadır. Əgər 1995-96-cı illərdə respublika üzrə cəmi kredit qoyuluşlarında özəl bankların payı təxminən 17-20% idisə, 2000-ci ildə bu göstərici 34,2%-ə çatmışdır.

Kredit qoyuluşlarının 90,1%-i hüquqi şəxslərin, 9,9%-i isə fiziki şəxslərin payına düşür.

Respublikamızda iqtisadi islahatların həyata keçirilməsi ilə əlaqədar olaraq özəl sektorun genişlənməsi nəticəsində kredit qoyuluşlarının strukturunda da özəl sektorun payı artmaqdadır. 2000-ci ilin yekunu üzrə iqtisadiyyata kredit qoyuluşlarının 67,8%-i özəl sektora yönəldilən vəsaitlərdir.

**2000-ci ildə kredit qoyuluşlarının dinamikası, mlrd. manat**



**Trends of interest rate on deposits**




carried out, the share of private sector in the structure of loans is also rising. According to the results of the year 2000, 67.8% of all loans in the economy were granted to the private sector.

It is worth noting that while according to the results of 1999, only 2.5% of total loans were represented by long-term loans, the same figure according to the results of 2000 reached 28%. In other words, long-term loans have risen 14.5 times during the year.

Interest rates for loans did not change significantly during the year 2000.

Regardless of a certain decrease in real interest rates on loans during the year, with the rate of inflation taken in consideration, they are still not favorable for businesses. High interest rates are mainly explained by the excess of demand over supply in the credit market, high risks, high interest rates for savings and deposits, as well as high profit margin for credit operations set by the banks.

**Trends for loans granted during 2000, in billion manats**



Təqdirəlayiq haldır ki, 1999-cu ilin yekunu üzrə kredit qoyuluşlarının cəmi 2,5%-ni uzunmüddətli kreditlər təşkil edirdisə, 2000-ci ilin yekunu üzrə bu rəqəm 28%-ə çatmışdır. Başqa sözlə desək uzunmüddətli kreditlər il ərzində 14,5 dəfə artmışdır.

2000-ci ildə kreditlərə görə faiz dərəcələri əhəmiyyətli dərəcədə dəyişməmişdir.

İnflyasiyanın tempi nəzərə alınmaqla kreditlərə görə real faiz dərəcələrinin il ərzində bir qədər azalmasına baxmayaraq onlar hələ də sahibkarlar üçün əlverişli deyil. Faiz dərəcələrinin yüksək olması ilk növbədə kredit bazarında tələbin təklifdən yüksək olması, risqin böyüklüyü, əmanət və depozitlərə görə faiz dərəcələrinin yüksək olması, həmçinin kredit əməliyyatları üzrə bank marjasının yüksəkliyi ilə izah olunur.

Son vaxtlar Azərbaycanda bir tərəfdən bank sisteminin inkişaf etdirilməsi istiqamətində sistemli tədbirlərin görülməsi və gələcəkdə bu işlərin daha da sür'ətləndirilməsi planları, eləcə də ölkəyə böyük həcmdə neft gəlirlərinin daxil olacağının gözlənilməsi kredit və depozit əməliyyatlarının növbəti illərdə daha yüksək templə artacağı ehtimalını yüksəldir. Belə ki, neft gəlirlərinin daxil olması ölkədə maliyyə resurslarının və deməli istər dövlətin, istər müəssisələrin, istərsə də əhalinin gəlirlərinin artacağını şərtləndirir. Bu, o deməkdir ki, bankların əmanət və depozitlər hesabına resurs bazasının genişlənməsi nətijə e'tibarilə kredit qoyuluşlarının yüksək templə artması üçün əlverişli şərait yaradacaqdır.

**Kreditlərə görə faiz dərəcələri haqqında mə'lumat**

| | 01.01.00 | 01.04.00 | 01.07.00 | 01.01.01 |
|---|---|---|---|---|
| Milli valyuta ilə qısamüddətli kreditlər | 19,8 | 19,8 | 19,4 | 19,5 |
| Xarici valyuta ilə qısamüddətli kreditlər | 17,3 | 18 | 17,6 | 18,9 |
| Milli valyuta ilə uzunmüddətli kreditlər | 19,7 | 21,2 | 21,1 | 21,6 |
| Xarici valyuta ilə uzunmüddətli kreditlər | 13,8 | 13,6 | 14 | 14 |

Latest systemic measures taken in relation to development of the banking system and plans to further accelerate this work in the future on one hand, as well as expectations of large oil revenues coming to the country, on the other hand, increase the chances for higher growth rates for credit and deposit operations in the coming years. For instance, as a result of incoming oil revenues, the growth in financial resources of the country and, therefore, earnings of the state, private companies, and general population are also expected. It means that favorable conditions will be created for increasing money reserves in banks due to increased savings and deposits, and, thus, for fast growth of credits.

**Average Interest Rates**

| | 01.01.00 | 01.04.00 | 01.07.00 | 01.01.01 |
|---|---|---|---|---|
| Short-term loans in national currency | 19,8 | 19,8 | 19,4 | 19,5 |
| Short-term loans in foreign currency | 17,3 | 18 | 17,6 | 18,9 |
| Long-term loans in national currency | 19,7 | 21,2 | 21,1 | 21,6 |
| Long-term loans in foreign currency | 13,8 | 13,6 | 14 | 14 |

# 3. VALYUTA SİYASƏTİ VƏ VALYUTA TƏNZİMLƏNMƏSİ

## 3.1. Valyuta siyasəti və valyuta bazarının inkişafı

Ötən illərdə olduğu kimi 2000-ci ildə də Milli Bank tərəfindən valyuta siyasəti yürüdülərkən «Azərbaycan Respublikası Milli Bankı haqqında» Azərbaycan Respublikası Qanununda göstərilən əsas funksiya və vəzifələr rəhbər tutulmuşdur. Belə ki, manatın sabitliyinin tə'min edilməsi, onun alıcılıq qabiliyyətinin və xarici valyutalara nisbətən məzənnəsinin tənzimlənməsi, respublikanın daxili valyuta bazarının inkişafının tə'min edilməsi, ixracın stimullaşdırılması 2000-ci ildə Milli Bankın əsas fəaliyyət istiqamətləri olmuşdur.

1999-cu ildə başlanmış devalvasiya siyasəti bu ildə də davam etdirilmişdir. Yaranmış münbit şəraitdə Milli Bank tərəfindən devalvasiya siyasətinin davam etdirilməsində məqsəd deflyasiya meyllərinin aradan qaldırılması olmuşdur. Bununla yanaşı Milli Bank rəsmi məzənnənin müəyyən olunması prosedurasında da yeniliklər həyata keçirmişdir. Yeni proseduraya əsasən Milli Bank rəsmi məzənnəni daxili valyuta bazarının ümumi həcminə nisbətən orta çəkili metodla müəyyən etməyə başlamışdır.

2000-ci il ərzində manatın ABŞ dollarına nisbətən məzənnəsi 4,4 faiz artaraq 4373 manatdan 4565 manata çatmışdır.

Daxili valyuta bazarı ötən illərdə olduğu kimi 2000-ci ildə də Milli Bankın yürütdüyü valyuta siyasətinə uyğun olaraq inkişaf etmişdir.

**Azərbaycan manatının ABŞ dollarına nisbətən rəsmi məzənnəsi (2000-ci il)**



# 3. EXCHANGE RATE POLICY

## . 3.1 Exchange rate policy and development of the foreign exchange market

In implementing exchange rate policy for the year 2000, just as during previous years, National Bank based its activities on main functions and objectives explained in the Law of Azerbaijan Republic "On National Bank of Azerbaijan Republic". For instance, main operational objectives of the National Bank during the year 2000 were ensuring manat's stability, regulation of its purchasing power and exchange rate against foreign currencies, ensuring development of internal foreign exchange market in the country and stimulation of exports.

Devaluation policy that started in 1999 has also continued this year. Under favorable present conditions, the purpose of ongoing devaluation policy implemented by the National Bank was to eliminate anti-deflation trends. In relation to this, new procedures for setting official exchange rate were also introduced by the National Bank. According to the new procedures, National Bank started to set official exchange rate on the basis of weighted average method, relative to total volume of internal foreign exchange market.

During the year 2000, exchange rate of manat to US dollar increased by 4.4%, rising from 4,373 to 4,565.

Internal foreign exchange market, just as during previous years, was developing in conformity to exchange rate policy carried out by the National Bank.

Internal foreign exchange market in the

**Official exchange rate of Azeri manat to US Dollar (during the year 2000)**



Azərbaycan Respublikasının daxili valyuta bazarı üç banklararası valyuta bazarından: Bakı Banklararası Valyuta Birjası (BBVB), Mütəşəkkil Banklararası Valyuta Bazarı (MBVB) və Açıq Banklararası Valyuta Bazarı (ABVB) və bankdaxili valyuta mübadilə əməliyyatlarından (BDMƏ) ibarətdir. BBVB 1993-cü ildə tə'sis edilmiş və dörd il yeganə valyuta bazarı olaraq fəaliyyət göstərmişdir. 1997-ci ildə BBVB-nin tərkibində yaradılmış MBVB keçici səciyyə daşımış və kommersiya banklarının liberal valyuta mübadilə əməliyyatlarına alışdırılması məqsədini güdmüşdür. 1998-ci ilin ikinci yarısında ABVB-nin e'lan edilməsi ilə MBVB tədricən öz aktuallığını itirmiş və ABVB-də əməliyyatların həcminin daim artması ilə yanaşı 2000-ci ilin dördüncü rübündən e'tibarən MBVB-də heç bir əməliyyat qeydə alınmamışdır.

Bu da valyuta bazarının yürüdülən valyuta siyasətinə uyğun olaraq inkişaf etməsindən xəbər verir. Artıq Azərbaycan Respublikasının daxili valyuta bazarı öz iştirakçılarına liberal valyuta mübadilə əməliyyatları imkanı yaradan çoxseqmentli valyuta bazarı olaraq fəaliyyət göstərir. Belə tendensiyanı valyuta bazarı seqmentlərinin xüsusi çəkilərini izləməklə də müşahidə etmək olar. Əgər, 1999-cu il ərzində BBVB-nin həcmi 290,5 mln. ABŞ dolları, MBVB-nin həcmi 206,2 mln. ABŞ dolları, ABVB-nin həcmi 283,1 mln. ABŞ dolları təşkil edirdisə, 2000-ci il ərzində BBVB-nin həcmi 186,0 mln. ABŞ dolları, MBVB-nin həcmi 123,6 mln. ABŞ dolları, ABVB-nin isə həcmi 450,4 mln. ABŞ dolları təşkil etmişdir. BDMƏ-nin həcmi 1999-cu ilə 554,5 mln. ABŞ dolları, 2000-ci il isə 1166,3 mln. ABŞ dolları təşkil etmişdir.

BBVB-nin və MBVB-nin həcmlərinin azalması və bunun müqabilində ABVB-nin həcminin ötən illərə nisbətən artması daxili valyuta bazarında getdikcə özünü tənzimləmə mexanizminin gücləndiyini və bununla da Milli Bankın valyuta bazarına müdaxilələrinin müntəzəm olaraq azaldığını göstərir. Qeyd etmək lazımdır ki, Milli Bankın daxili valyuta bazarına müdaxiləsi ötən ilə nisbətən 32,3% azalaraq 2000-ci il ərzində cəmi 35,6 mln. ABŞ dolları təşkil etmişdir.

**2000-ci ildə daxili banklararası valyuta bazarında seqmentlər üzrə hərracların həcmi (min ABŞ dolları)**



Azerbaijan Republic is comprised of the three interbank foreign exchange markets (Baku Interbank Currency Exchange (BICEX), Organized Interbank Currency Market (OICM) and Open Interbank Currency Market (OpICM)) and intra bank foreign exchange operations (IBFEP). BICEX was established in 1993 and served as the only foreign exchange market for four years. The OICM, organized within the BICEX in 1997, bore a transitory nature and had the purpose of liberalizing foreign exchange operations for commercial banks. In the second half of 1998, with the opening of OpICM, OICM gradually lost its importance with the constant growth of operations at the OpICM and, starting from the fourth quarter of 2000, no activities were carried out at OICM.

This also shows the development of the foreign exchange market in conformity with the foreign exchange policy carried out. Internal foreign exchange market of Azerbaijan Republic is already functioning as a multi-segment foreign exchange market that gives a chance to its participants to carry out liberalized foreign exchange operations. This tendency may also be noted if we look at the shares of the foreign exchange market segments. For instance, while during 1999, the trades at BICEX amounted to 290.5 mln. dollars, at OICM – to 206.2 mln. US dollars, at OpICM – to 283.1 mln. US dollars, during the year 2000 the volume of trade at BICEX made up 186.0 mln. US dollars, at OICM – 123.6 mln. US dollars, and at OpICM – 450.4 mln. US dollars. IBFEP's share made up 554.5 mln. US dollars in 1999, and 1,166.3 mln. US dollars in 2000.

The decrease in volume of trade at BICEX and OICM and the substituting relative increase in volume of trade at OpICM, in comparison to previous years show gradual improvement of self-regulation processes at internal foreign exchange market and, consequently, systematic decrease of the National Bank's interference at foreign exchange market. It is necessary to note that National Bank's interference at the foreign exchange market decreased by 32.3% compared to the last year and made up only 35.6 mln. US dollars.

During the year 2000, National Bank's interfer-

**Volume of trades at internal interbank foreign exchange market segments in 2000 (in thousand US dollars)**



2000-ci il ərzində Milli Bankın daxili valyuta bazarına müdaxilələri, bazardakı ani dəyişmələrin qarşısını almaq məqsədi güdən tənzimləyici xarakter daşımışdır. Ötən illərdə olduğu kimi, 2000-ci ildə də Milli Bankın əsas məqsədi daxili valyuta bazarının sərbəst rəqabət şərtləri altında özünü tənzimləmə prinsipi ilə işləməsini tə'min etmək olmuşdur.

### 3.2. Qızıl-valyuta ehtiyatlarının vəziyyəti və idarə olunması

Beynəlxalq aləmdə hər bir ölkənin iqtisadi qüdrətinin əsas göstəricilərindən biri onun valyuta ehtiyatlarının səviyyəsidir. Buna görə də rəsmi valyuta ehtiyatlarının formalaşdırılması və idarə edilməsi hər bir dövlətin iqtisadi siyasətinin ən mühüm istiqamətlərindən biri hesab olunur. Zəruri valyuta ehtiyatlarının mövcudluğu həm də ölkənin iqtisadi müstəqilliyinin və iqtisadi təhlükəsizliyinin əsas şərtlərindəndir.

Azərbaycan Respublikasının valyuta ehtiyatlarının Milli Bank tərəfindən idarə edilməsi 1995-ci ildən "Valyuta tənzimlənməsinin sərbəstləşdirilməsi haqqında" Prezident Fərmanının imzalanmasından başlanıb.

1995-ci ildən başlayaraq valyuta tənzimlənməsinin liberallaşdırılması və Beynəlxalq Valyuta Fondundan alınmış kreditlərin, neft və qaz yataqlarının birgə kəşfiyyatı və istismarı barədə bağlanmış sazişlər üzrə bonusların daxil olması, həmçinin valyuta ehtiyatlarının gəlirliklə idarə olunması onun həcminin 16 mln. ABŞ dollarından hesabat ilinin əvvəlinə olan 726,9 mln. ABŞ dollarınadək  artmasına zəmin yaratdı. Hesabat dövrü ərzində ölkənin qızıl-valyuta ehtiyatları cəmi 4,9% azalmış və ilin sonuna 691,4 mln. ABŞ dolları təşkil etmişdir. Bu da əsas e’tibarilə Beynəlxalq Valyuta Fondundan alınmış kreditlərin qaytarılmasına başlanması ilə bağlı olmuşdur.

Dövlətin valyuta ehtiyatlarının formalaşması və artması ilə yanaşı onun səmərəli idarə olunması aktual əhəmiyyət kəsb edir. Rəsmi valyuta ehtiyatlarının idarə edilməsi zamanı Milli Bankın əsaslındığı prinsiplər - təhlükəsizlik, optimal likvidlik və nəhayət, yüksək gəlir əldə edilməsi prinsipləridir. Beli ki, hal-hazırda valyuta ehtiyatları yüksək likvidli müddətli depozitlər şəklində dünyanın e’tibarlı banklarında saxlanılır.

Valyuta ehtiyatlarının idarə edilməsinin ən mühüm prinsiplərindən biri potensial risklərin minimuma endirilməsi vasitəsilə onların e'tibarlı saxlanmasını tə'min etməkdir. Valyuta risklərini azaltmaq məqsədi ilə xarici valyuta bazarlarında sərbəst dönərli valyutaların bir-birinə qarşı məzənnələrinin dəyişmə dinamikası, onu şərtləndirən amillər diqqətlə izlənilir, təhlil edilir və bu əsasda çevik əməliyyatlar aparılır. Digər tərəfdən isə valyuta ehtiyatları dünyanın ən yüksək kredit reytinqlərinə malik olan banklarında yerləşdirilir.

Valyuta ehtiyatlarının idarə edilməsinin səmərəliliyinin artırılması məqsədilə Milli Bankda quraşdırılmış beynəlxalq maliyyə bazarlarının mütəmadi monitorinqinə imkan verən «Röyters» informasiya sistemindən geniş istifadə olunur. Eyni zamanda bağlanan əqdlərin operativ tə'minatı və onlara xidmət real vaxt rejimində SWIFT ümumdünya banklararası maliyyə telekommunikasiya sistemi vasitəsilə həyata keçirilir.

### 3.3. Milli Bankın beynəlxalq əlaqələri

Hesabat ilində də Milli Bank beynəlxalq əlaqələrinin inkişafı istiqamətində müəyyən işlər görmüş, xarici dövlətlərin mərkəzi bankları və

ence in the foreign exchange market was of regulating nature and aimed at elimination of effects of momentary changes in the market. As during the previous years, the main purpose of the National Bank in 2000 also was to ensure self-regulation principles of internal foreign exchange market under conditions of open competition.

## 3.2 Foreign exchange reserve management

One of the main indicators of the country's economic power in every country is the level of its foreign exchange reserves. Due to this, creation and management of official foreign exchange reserves is considered one of the most important economic policy objectives of any country. Availability of necessary foreign exchange reserves is one of the main conditions for both economic independence, and economic security of the country.

National Bank started managing foreign exchange reserves of Azerbaijan Republic in 1995, after the decree "On Liberalizing of Foreign exchange Regulation" was signed.

Liberalization of foreign exchange regulation, loans received from International Monetary Fund and bonuses for contracts related to joint exploration and utilization of oil and gas fields, as well as management of foreign exchange reserves with resulting profits, laid the grounds for increasing their amounts from 16 mln USD in 1995 to 726.9 mln USD at the beginning of the reporting year. During the reporting period, gold and foreign exchange reserves of the country decreased only by 4.9% and made up 691.4 mln. USD at the end of the year. This was mainly related to the start of repayment of loans received from International Monetary Fund.

Together with creation and increase of the country's foreign exchange reserves, their rational management is also of great importance. In managing official foreign exchange reserves, National Bank follows the principles of security, optimal liquidity and, finally, high profitability. For instance, current foreign exchange reserves are kept as highly liquid term deposits in the most reliable banks of the world.

One of the most important principles in managing foreign exchange reserves is ensuring their trustworthy safekeeping, by means of minimizing potential risks. For the purpose of decreasing foreign exchange risks, trends for changes in exchange rates of hard foreign currencies against each other at foreign exchange markets and factors influencing them are carefully observed and analyzed, and prompt responses are made based on them. On the other hand, foreign exchange reserves are placed at various banks of the world with the highest credit ratings.

With the purpose of improving rational management of foreign exchange reserves, National Bank is using the "Reuters" information system, which gives a chance to constantly monitor international financial markets. At the same time, efficient confirmation and settlement of operations is facilitated by real-time worldwide interbank financial telecommunication system – S.W.I.F.T.

.

## 3.3 International relations of the National Bank

During the reporting year, National Bank has made certain steps toward development of international relations, carried out specific activities aimed at establishment of mutual relations with central banks of foreign countries and trustwor-

nüfuzlu beynəlxalq maliyyə-kredit təşkilatları ilə qarşılıqlı münasibətlər qurmaq sahəsində məqsədyönlü fəaliyyət göstərmiş, bank sektoru və maliyyə sahəsində islahatların həyata keçirilməsi üçün beynəlxalq maliyyə institutlarının texniki yardımının alınması istiqamətində səmərəli addımlar atmışdır. 2000-ci ildə Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, habelə MDB məkanına daxil olan ölkələrin Mərkəzi Bankları, kommersiya bankları ilə qarşılıqlı fəaliyyət dərinləşmiş, müvafiq strukturlar və departamentlər arasında sıx əməkdaşlıq yaradılmışdır.

Hesabat dövründə Azərbaycan Respublikasında aparılan iqtisadi və maliyyə islahatlarını həyata keçirmək məqsədilə beynəlxalq maliyyə qurumlarından kreditlər alınmış, həmin kreditlər iqtisadi idarəetmə sisteminin inkişafına və təkmilləşdirilməsinə yönəldilmiş, peşə təhsili və təcrübəsinin artırılması imkanları üçün möhkəm zəmin yaratmışdır. Milli Banka texniki yardım göstərilməsi sahəsində bir çox beynəlxalq maliyyə qurumlarının və xarici ölkələrin mərkəzi banklarının rəhbərləri ilə müvafiq razılaşmalar əldə edilmiş, Çexiya, Qazaxıstan, Türkiyə və s. dövlətlərin mərkəzi bankları ilə ikitərəfli əməkdaşlığın prioritet istiqamətləri barədə ümumi fikir mübadilələri aparılmışdır.

Milli Bank həmçinin Bank nəzarəti üzrə Bazel Komitəsinin Qafqaz və Mərkəzi Asiya üzrə regionlararası qrupunun işində müntəzəm olaraq iştirak etmiş, Türkiyənin və Pakistanın Mərkəzi Bankları ilə qarşılıqlı münasibətləri tənzimləyən əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Eyni zamanda, İsveçrənin, Böyük Britaniyanın, Fransanın və Almaniyanın Mərkəzi Bankları ilə sıx əməkdaşlıq əlaqələri qurmuşdur. Adları çəkilən banklar Milli Banka öz ekspertlərini göndərmiş, əməkdaşlarımız üçün səyyar tədris kursları keçirmək yolu ilə Milli Banka qısamüddətli texniki yardım göstərmişlər. Ümumiyyətlə, son iki il ərzində Milli Bankın əməkdaşları İngiltərə, Almaniya, Avstriya, Rusiya, Fransa, Sloveniya, Türkiyə, Yaponiya və digər ölkələrdə müxtəlif mövzularda keçirilən beynəlxalq seminarlarda iştirak etmiş, bank nəzarəti və maliyyə sektorunun inkişafı problemləri ilə bağlı qabaqcıl mərkəzi bankların təcrübəsini öyrənmişlər. Beynəlxalq maliyyə institutlarının Texniki Yardım Proqramları çərçivəsində Milli Bankın 30-dan çox əməkdaşı ixtisasartırma kurslarında və seminarlarda iştirak etmişlər.

Milli Bankın yüksək səviyyəli nümayəndə hey’əti ötən dövr ərzində Çexiya, Polşa və Xorvatiyada olmuş, onların iş təcrübəsini öyrənmişlər.

Texniki yardımın cəlb edilməsi yönümündə daim iş aparmaq Milli Bankın beynəlxalq əlaqələrinin mühüm istiqamətlərindən biridir. Bu istiqamətdə həyata keçirilən tədbirlər 1997-2000-ci illərdə 330 min. ABŞ dolları həcmində qrant şəklində texniki yardım və çoxtərəfli zəmində Beynəlxalq Valyuta Fondu vasitəsilə bank nəzarəti, ödəniş sistemləri məsələləri üzrə daimi məsləhətçilər və mühasibat uçotu üzrə qısamüddətli məsləhətçilər cəlb etməyə imkan vermişdir.

Mə’lumat üçün bildirək ki, Azərbaycan Respublikası 1992-ci ildə Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun üzvlüyünə qəbul edilmişdir.

Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycana məqsədli kredit şəklində 1 mlrd. ABŞ dollarından artıq kredit ayrılmışdır. Eyni zamanda İslam İnkişaf Bankı, Küveyt Fondu, Almaniya KFV Bankı, Kənd təsərrüfatının inki-

thy financial and credit institutions, made certain steps to obtain technical assistance from international financial institutions for implementing reforms in the banking and financial sector. Cooperation with International Monetary Fund, the World Bank, European Bank for Reconstruction and Development, as well as central banks of CIS countries and commercial banks during 2000 expanded further, close relationships were established between respective structures and departments.

With the purpose of implementation of economic and financial reforms in Azerbaijan Republic, several credits were received from international financial organizations during the reporting period. Those credits were directed to the development and improvement of economic management system, and laid grounds for improvement of technical education and experience. Corresponding agreements were signed with heads of international financial organizations and central banks of foreign countries in the field of providing technical assistance to National Bank. General exchange of opinions took place in relation to principal directions in bilateral cooperation with central banks of Czech Republic, Kazakhstan, Turkey and other countries.

National Bank has also regularly participated in the work of Basel Committee's interregional Banking Control Group for Caucasus and Central Asia and signed cooperation agreements regulating mutual relations with Turkish and Pakistani central banks. At the same time, close relationships were established with Swiss, British, French, and German central banks. The banks mentioned above sent their experts to the National Bank, and provided short-term technical assistance by means of offering education courses related to such cooperation. In general, during the last two years, officials of the National Bank have participated in many international workshops with various topics that were held in England, Germany, Austria, Russia, France, Slovenia, Turkey, Japan, and other countries and improved their skills in solving financial sector development problems, learning from the expertise of the leading central banks. In the framework of Technical Assistance Programs of international financial institutions, more than 30 of the National Bank's employees participated in professional development courses and workshops.

One of the most important objectives of the National Bank related to international relations is a constant work aimed at attracting technical assistance. The measures taken to achieve this objective during 1997-2000 made it possible to get technical assistance from International Monetary Fund, also in the form of grant amounting to USD 330 thousand and help in banking control on multilateral basis, invite permanent advisors on matters related to payment systems and short-term advisors on accounting matters.

Azerbaijan Republic was accepted as a member of the World Bank and the International Monetary Fund in 1992.

International Monetary Fund, the World Bank, and European Bank for Reconstruction and Development have already granted Azerbaijan Republic USD 1 bln. in credits. At the same time, credits for the total amount of 1 bln USD were also received from Islamic Development Bank, Kuwait Fund, German KfW bank, International Fund for Agricultural Development, Japanese Bank for International Cooperation, Turkish Eximbank, British Bank group and other financial institutions. The biggest part of the loans granted is of long-term and concessional

şafı üzrə Beynəlxalq Fond, Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Türkiyə Eksimbankı, Britaniya Banklar qrupu və digər maliyyə qurumlarından 1 mlrd. ABŞ dolları həcmində məqsədli kredit alınmışdır. Ayrılan kreditlərin əksər hissəsi uzunmüddətli və güzəştli xarakter daşımaqla infrastrukturun, aqrar və sənaye sahələrində ayrı-ayrı layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Beynəlxalq Maliyyə Təşkilatlarının əsas fəaliyyət istiqamətlərini aşağıdakı kimi təsnif etmək olar:

**Dünya Bankı:** Azərbaycan həm Beynəlxalq Yenidənqurma və İnkişaf Bankından, həm də Beynəlxalq İnkişaf Assosiasiyasından kreditlər almışdır. Beynəlxalq İnkişaf Assosiasiyasından 14 Layihənin həyata keçirilməsi üçün 369 milyon. ABŞ dolları alınmışdır.

2000-2002-ci illər ərzində ölkəyə strateji yardım proqramı çərçivəsində 284 milyon ABŞ dolları verilməsi nəzərdə tutulmuş, bunun da 240 milyonu Beynəlxalq İnkişaf Assosiasiyasının payına düşür.

Bütün bu kreditlər ölkə iqtisadiyyatının dirçəldilməsi, yoxsulluğun aradan qaldırılması, iş yerlərinin yaradılması, infrastrukturların inkişaf etdirilməsi proqramları çərçivəsində nəzərdə tutulmuşdur. Spesifik kreditlər özəl və dövlət sektorlarına və sosial inkişafa kömək məqsədi daşıyır.

**Beynəlxalq Valyuta Fondu.** Ötən müddət ərzində Beynəlxalq Valyuta Fondu ilə də sıx əməkdaşlıq davam etdirilmişdir. BVF respublikamızda makroiqtisadi sabitliyin tənzimlənməsində və struktur islahatlarının aparılmasında qabaqcıl rol oynamışdır. Bu beynəlxalq maliyyə qurum 2000-ci ilin martında sona çatan üçillik Proqramı çərçivəsində Azərbaycana sonuncu 15 milyon ABŞ dolları məbləğində tranşını təqdim etmişdir. Ümumiyyətlə, 1992-ci ildən bəri BVF xətti ilə respublikamıza 462,5 milyon ABŞ dolları məbləğində vəsait daxil olmuşdur. Hazırda BVF ilə 2001-2003-cü illər üçün yeni proqram üzrə əməkdaşlıq edilməsi barədə danışıqlar aparılır.

**Avropa Yenidənqurma və İnkişaf Bankı.** Avropa Yenidənqurma və İnkişaf bankının fəaliyyəti əsasən özəlləşdirmə proqramının həyata keçirilməsinə yönəlmişdir və bu baxımdan ölkəmizə daxil olan kreditlər özəl sektorun inkişafına sərf edilmişdir. Bununla yanaşı, hesabat ilində AYİB ölkənin maliyyə sektorunun, vacib infrastrukturlar sayılan təbii enerji ehtiyatlarının, telekommunikasiya, nəqliyyat və elektrik enerjisi sahələrinin inkişafına yönələn layihələrin həyata keçirilməsini maliyyələşdirmişdir. 2000-ci ildə ümumi məbləği 263 milyon ABŞ dolları olan kredit sazişləri imzalanmışdır ki, bunun da təxminən 60 faizi özəl sektorun inkişafı üçün nəzərdə tutulmuşdur.

2000-ci ilin sonuna olan mə'lumata görə, AYİB Azərbaycanda 17 Layihənin həyata keçirilməsinə dair sərmayə sazişi imzalamışdır. Azərbaycanın neft və qaz (53 faiz), elektrik enerjisi (22 faiz), nəqliyyat (15 faiz), su (7 faiz) və digər sektorlarına sərmayə qoyuluşunu həyata keçirən Bankın payına Azərbaycanda birbaşa xarici sərmayə qoyuluşunun ümumi həcminin 9 faizi düşür.

**İslam İnkişaf Bankı.** Əsasən drenaj və yol layihələrini maliyyələşdirən İslam İnkişaf Bankının ölkəyə verdiyi ümumi kredit vəsaitinin həcmi 55,3 milyon ABŞ dolları təşkil etmişdir.

**Yaponiya.** Azərbaycana maliyyə və texniki yardım göstərən donor ölkələrdən biri də Yaponiyadır. Bu ölkənin maliyyə yardımının ümumi həcmi 420 milyon ABŞ dollarından çoxdur. Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi

nature and was used to finance specific projects in infrastructure, agricultural and industrial sectors.

Main operational strategy of these institutions may be classified as follows:

**The World Bank.** Azerbaijan received credits from International Bank for Reconstruction and Development and International Development Association. International Development Association provided 369 million US dollars for implementation of 14 projects.

During 2000-2002, within the framework of strategic assistance to the country, loans in the amount of 284 million US dollars are expected to be provided, 240 million worth of them – on part of International Development Association.

All of those credits are planned to be used for programs aimed at revitalization of the country's economy, elimination of poverty, provision of new employment opportunities, and development of infrastructure. Certain credits bear the purpose of assisting private and state sectors and social development.

**International Monetary Fund.** Close cooperation with the International Monetary Fund continued during the reporting period. IMF played a leading role in regulation of macroeconomic stability and implementation of structural reforms in the country. In the framework of a three-year Program ending in March 2000, this international financial organization has granted Azerbaijan the final tranche of 15 million US dollars. In total, starting from 1992 until now, 462.5 million US dollars of funds have been provided to the country by IMF. Negotiations are currently carried out with IMF for new cooperation program for 2001-2003.

**European Bank for Reconstruction and Development.** Activities of European Bank for Reconstruction and Development were aimed mainly at implementation of privatization program and, from this point of view, the loaned funds flowing into the country have been used to finance private sector development. In relation to this, during the reporting year, EBRD financed implementation of projects related to development of financial sector of the country and important infrastructure of natural energy reserves, telecommunication, transportation and electric energy sectors. During the year 2000, credit agreements for the total of 263 million US dollars were signed, 60 percent of which were planned for development of private sector.

According to the data at the end of 2000, agreements for investments related to implementation of 17 projects were signed with EBRD. Out of total direct foreign investments in Azerbaijan, 9 percent relates to this bank's investment in oil and gas (53%), electric energy (22%), transportation (15%), water (7%), and other sectors.

**Islamic Development Bank.** The total amount of credits given by the Islamic Development Bank, mainly financing irrigation and road projects, made up 55.3 million US dollars.

**JAPAN.** One of the donor countries providing financial and technical assistance to Azerbaijan is Japan. Total amount of financial aid provided by this country made up more than 420 million US dollars. Financial assistance and grants provided through Japan Agency for International Cooperation were mainly used to finance agriculture, food security, education, health-care, and environmental development.

During previous periods National Bank maintained close mutually beneficial relations with financial organizations of both CIS countries and developed countries of the world, established correspondent relationships with more than 20

vasitəsilə həyata keçirilən maliyyə yardımları və qrantlar əsasən kənd təsərrüfatının, ərzaq təhlükəsizliyinin, təhsilin, səhiyyənin və ətraf mühitin inkişafına yönəldilmişdir.

Ötən dövr ərzində Milli Bank istər MDB ölkələri, istərsə də dünyanın inkişaf etmiş dövlətlərinin maliyyə strukturları ilə qarşılıqlı-faydalı əlaqələr saxlamış, dünyanın 20-dən artıq tanınmış bankları ilə müxbir münasibətləri yaratmış və bu sahədə əlaqələr davam etdirilməkdədir.

MDB məkanında olan dövlətlər arasında hesablaşmalar üzrə münasibətlər yeni xarakter almış və bu, hesablaşmalar haqqında dövlətlərin mərkəzi bankları tərəfindən imzalanmış ikitərəfli sazişlərə uyğun şəkildə aparılmışdır.

Hesabat ilində Milli Bank ölkəmizin maraqlarını Qara Dəniz Ticarət və İnkişaf Bankında da fəal təmsil etmişdir.

Hesabat dövründə respublikamızda neft və qazın kəşfiyyatı və işlənilməsi sahəsində bağlanmış beynəlxalq sazişlərin həyata keçirilməsindən əldə edilmiş gəlirlərin yığılmasını və səmərəli idarə olunmasını tə'min etmək məqsədilə respublika Prezidentinin Fərmanı ilə **Dövlət Neft Fondu** yaradılmışdır. Həmin fondun səmərəli fəaliyyətini təmin etmək məqsədilə bu sahədə dünya təcrübəsinin öyrənilməsinə, nüfuzlu beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq edilməsinə xüsusi önəm verilir. Şübhəsiz ki, neft fondunun yaradılması gələcəkdə «Holland sindromu»na yol verilməməsində və iqtisadiyyatın tarazlaşdırılmış inkişafında həlledici amil olacaqdır.

well-known banks of the world and is now continuing cooperation in this field.

Cooperation related to settlements between CIS countries has changed its nature and was carried out based on bilateral agreements regarding mutual settlements signed between central banks of those countries.

During the reporting period, National Bank has also actively represented the interests of our country in Black Sea Trade and Development Bank.

With the purpose to ensure accumulation and efficient management of profits from implementation of international agreements signed by Azerbaijan in the field of oil and gas exploration and utilization during the reporting period, **State Oil Fund** was established by the decree of the President of the country. With the purpose to ensure efficient operation of this fund, a lot of attention is paid to learning from international expertise in this field and cooperation with the world's authoritative financial and credit institutions. Undoubtedly, creation of the oil fund will serve as a determinant factor for prevention of a "Dutch syndrome" and balanced economic development.

# 4. BANK SİSTEMİNİN VƏZİYYƏTİ VƏ BANK NƏZARƏTİ

### 4.1. Bank sisteminin vəziyyətinin ümumi xarakteristikası

Milli Bank 2000-ci ildə sabit, beynəlxalq standartlara uyğun bank sisteminin formalaşmasının tə'min edilməsi, bank sisteminin iqtisadiyyatın dirçəldilməsində rolunun fəallaşdırılması, bank sisteminin beynəlxalq səviyyəyə uyğun hüquqi bazasının yaradılması və digər icra strukturlarının inkişafı istiqamətində əməli işlər görmüşdür. Buna bank kapitalının təmərküzləşdirilməsi, üç iri dövlət bankının birləşdirilməsi nəticəsində bir sağlam dövlət bankının yaradılması, bank sektorunda xarici investorların iştirak payının artırılması, əksər özəl bankların kadr və texnoloji potensialının artması və s. kimi müsbət meyllər dəlalət etmişdir.

Ötən illər ərzində bir tərəfdən bankların iriləşməsi prosesi getmiş, digər tərəfdən isə bir sıra zəif kapitallaşan banklar bağlanmışdır. Respublikada 1 yanvar 2001-ci il tarixinə 59 bank fəaliyyət göstərir ki, onlardan 3-ü dövlət payının iştirakı ilə, 16-ı isə xarici kapitalın iştirakı ilə fəaliyyət göstərən banklardır. Keçən ilin əvvəli ilə müqayisədə 1 yanvar 2001-ci il tarixinə fəaliyyətdə olan bankların sayı 11 ədəd azalmışdır. Belə ki, hesabat dövrünə 13 bankın lisenziyası geri çağırılmış, 2 yeni banka bank əməliyyatı aparmaq üçün lisenziya verilmişdir. Açılan banklardan biri dövlət banklarının (Əmanət, Aqrar Sənaye və Sənaye İnvestisiya Səhmdar Kommersiya bankları) sağlam aktivlərinin və öhdəliklərinin birləşməsi əsasında yaradılmış dövlət bankı (Birləşmiş Universal Səhmdar Kommersiya Bankı), digəri isə 100 faiz xarici kapitalın iştirakı ilə yaradılan bankdır (Koçbank).

11 özəl bankın lisenziyasının geri çağırılmasına səbəb isə risk və likvidliyin adekvat idarə edilməməsi, ehtimal olunan itkilər üzrə zəruri ehtiyat fondlarının yaradılmaması, kapitalın yetərliyi və likvidlik normativlərinin daim pozulması, əmanətçilərin, müştərilərin və digər kreditorların mənafelərinin böyük riskə mə'ruz qoyulması olmuşdur.

1999-cu illə müqayisədə 01.01.2001-ci il tarixinə bankların filiallarının sayı 250-dən 195-ə enmişdir. Filialların sayının azalması həm dövlət bankları, həm də özəl banklar üzrə baş vermişdir. Filiallardan 129-u Bakı şəhərindən kənar rayonlarda yerləşir.

2000-ci ildə bankların keçən ilin müvafiq dövrü ilə müqayisədə məcmu nizamnamə kapitalının 126.4 mlrd. manat və ya 18% azalması 11 özəl bankın və Səhmdar Kommersiya Sənaye İnvestisiya və Əmanət Banklarının bağlanması ilə əlaqədar olmuşdur.

1 yanvar 2001-ci il tarixinə **bankların ümumi xalis aktivləri** 4829.9 mlrd. manat təşkil etmişdir. Bu da keçən ilin əvvəli ilə müqayisədə 1631.4 mlrd. manat və ya 51% çox olmuşdur. Aktivlərin 41 faizi kredit əməliyyatlarının payına düşür.

01.01.2001-ci il tarixinə banklar tərəfindən digər banklara verilmiş kredit və depozitlərin ümumi məbləği 455.5 mlrd. manat, digər banklardan alınmış kreditlər isə 660.6 mlrd. manat təşkil etmişdir.

# 4. THE SITUATION WITH THE BANKING SYSTEM AND BANKING CONTROLS

## 4.1 General characteristics of the situation with the banking system

During the year 2000, the National Bank carried out practical work related to establishment of a banking system complying with the international standards, improvement of its role in revitalization of economy, creation of the legislative framework for the banking system, conforming to international standards and other development of executive structures. This is also proved by concentration of bank capital, creation of one sound bank as a result of merging three large state banks, increase in share of the foreign investors in the banking sector, increase of the personnel and technological potential of most of the private banks and other positive trends.

On one hand, banks have continued to grow during the previous years, on the other side, several weakly capitalized banks were closed down. As of 1 January 2001, 59 banks were operating in the country, 3 of which were banks with state share capital and 16 – with foreign share capital. Compared to the beginning of the previous year, the number of banks operating as of 1 January 2001 decreased by 11. The licenses for 13 banks were called back during the reporting period and 2 new banks were given banking licenses. One of the newly opened banks was the state bank (United Universal Joint Stock Bank), created after merging healthy assets and liabilities of several state banks (Savings, Agroindustrial, and Industrial Investment Commercial Joint Stock banks). The other newly opened bank was the bank financed with 100% foreign capital (Kocbank).

The reason for calling off licenses for 11 private banks were inadequate regulation of risks and liquidity, failure to create reserve funds against expected losses, permanent violation of capital adequacy and liquidity ratios, exposing interests of depositors, customers, and other creditors to high risks.

Compared to 1999, the number of banks' branches as of 01.01.2001 decreased from 250 to 195. The decrease in the number of bank branches took place both among state banks and private banks. 129 of the branches are located in provinces outside Baku.

The decrease of the total share capital by 126.4 bln. manats, or 18%, during the year 2000, as compared to the respective previous period, was related to the fact that 11 private banks, as well as Industrial Investment and Savings banks were closed down.

At 1 January 2001, **total net assets of banks** amounted to 4,829.0 bln. manats. This is 1,631.4 bln. manats, or 51%, more than at the beginning of the previous year. 41 percent of the assets relates to loan operations.

Total amount of bank loans given to – or deposits placed with – other banks as of 01.01.2001 made up 455.5 bln. manats and loans received from other banks – 660.6 manats.

The share of investments in securities in the total banking assets as of 01.01.2001 made up

Bankların 01.01.2001-ci il tarixinə aktivlərində qiymətli kağızlara edilən qoyuluşların xüsusi çəkisi 2.3 faiz və ya 111.7 mlrd. manat təşkil edir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 37.2 mlrd. manat və ya 49.9 faiz çox olmuşdur.

Hesabat dövrünə likvid və tez realizə olunan aktivlər (irəlidə likvid aktivlər) ilin əvvəli ilə müqayisədə 1180.0 mlrd. manat artmışdır. Bu artım əsasən müxbir hesabların və banklarda olan depozitlərin keçən ilin əvvəli ilə müqayisədə hesabat dövrünə 1130.0 mlrd. manat artması hesabına baş vermişdir. Nəticədə müxbir hesablar və banklarda olan depozitlərin likvid aktivlərdə xüsusi çəkisi 88% olmuşdur.

2000-ci ildə **bankların passivləri** məcmu öhdəliklərin 73,6% artması hesabına çoxalmışdır.

Depozit bazasında hüquqi şəxslərin depozitləri aparıcı rola malikdir. 1 yanvar 2000-ci il tarixi ilə müqayisədə iqtisadiyyatın bütün sahələri üzrə hesablardakı qalıqların artımı müşahidə olunmuşdur.

2000-ci ildə əhalinin əmanətlərinin artımı müddətli əmanətlərin artması hesabına baş vermişdir ki, bu da əsasən əmanət bazarında yeni bank xidmətlərinin (xüsusilə də adsız sertifikatlar) tətbiqi ilə bağlı olmuşdur. Əhalinin plastik kartlarla əmanətləri hesabat dövrünə 21.1 mlrd. manat və ya cəmi əmanətlərin 5.3 faizini təşkil etmişdir. Bu, bankların müştərilərə göstərdikləri xidmətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini göstərir.

2000-ci ildə 20 qeyri-bank kredit təşkilatının lisenziyası geri çağırılmış, 13-nə isə məhdud bank əməliyyatlarını həyata keçirmək üçün lisenziya verilmişdir. Nəticədə 1 yanvar 2001-ci il tarixinə qeyri-bank kredit təşkilatlarının sayı 99 olmuşdur.

1 yanvar 2001-ci il tarixinə qeyri-bank kredit təşkilatlarının nizamnamə fondu 26.6 mlrd. manat təşkil etmişdir. Bu da keçən ilin eyni dövrü ilə müqayisədə 23.4 mlrd. manat çoxdur. Qeyri-bank kredit təşkilatlarının nizamnamə fondunun 21.3 faizi 2000-ci ilin noyabr ayından fəaliyyət göstərən Aqrar Sərmayə Fondunun payına düşür.

1 yanvar 2001-ci il tarixinə qeyri-bank kredit təşkilatlarının cəmi kredit qoyuluşları 17.6 mlrd. manat, cəlb etdikləri vəsaitlərin həcmi isə 7.9 mlrd. manat olmuşdur. Bu tarixə qeyri-bank kredit təşkilatlarının cəlb etdikləri vəsaitlərin 73.4 faizini banklardan və digər maliyyə təşkilatlarından alınan kreditlər təşkil edir.

### 4.2. Dövlət banklarının yenidən qurulması

Hesabat ilində dövlət banklarının yenidən qurulması, onların sağlamlaşdırılaraq özəlləşdirilməyə hazırlanması istiqamətində mühüm işlər görülmüşdür.

Dövlət banklarının yenidən qurulması çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.02.2000-ci il tarixli 40 s saylı sərəncamına əsasən səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan Səhmdar Kommersiya Sənaye İnvestisiya, Aqrar-Sənaye və Əmanət banklarının sağlam aktiv və öhdəliklərinin birləşdirilməsi hesabına səhmlərinin 100 faizi dövlətə məxsus yeni Birləşmiş Universal Səhmdar Bankı (BUSB) tə’sis edilmişdir.

BUSB-un tə’sis edilməsi ilə əlaqədar Səhmdar Kommersiya Sənaye-İnvestisiya və Əmanət Banklarının bank əməliyyatlarının aparılması üçün lisenziyaları Milli Bankın İdarə Hey’ətinin qərarı ilə geri çağırılmışdır.

BUSB-un Nizamnamə fondu Maliyyə Nazirliyi tərəfindən tam ödənilərək 22 mlrd. manat təşkil etmiş, onun əməliyyat prinsipləri və idarə

2.3%, or 111.7 bln. manats. Compared to the respective period of the previous year, this is 37.2 bln. manats, or 49.9% higher.

Assets that can be quickly converted into cash (later liquid assets) in the reporting period increased by 1,180.0 bln. manats, as compared to the beginning of the year. Mainly, such an increase took place due to an increase in customer accounts and bank deposits by 1,130.0 mln. manats, as compared to the last reporting period. As a result customer accounts and deposits in banks amounted to 88% of the liquid assets.

In 2000, **banking liabilities** increased due to an increase of total obligations by 73.6%.

Deposits of legal entities played a leading role in total deposits. Compared to 1 January 2000, an increase of account balances related to all spheres of economy was observed.

Increase in figures related to savings of population in the year 2000 took place due to an increase in term deposits, and this was mainly related to introduction of new banking services related to deposits (especially bearer certificates of deposits). Plastic cards savings of the population during the reporting period made up 21.1 bln. manats, or 5.3% of the total. This shows a progress to a new stage of high quality services provided to the banks' customers.

Licenses for 20 non-banking credit institution were canceled during 2000. 13 such organizations were granted new licenses for limited banking activities. As a result, as of 1 January 2001, the number of non-banking credit institutions made up 99.

As of 1 January 2001, share capital of non-banking credit institutions amounted to 26.6 bln. manats. Compared to the respective period of the last year, this represents an increase of 23.4 bln. manats. 21.3 percent of the share capital of non-banking credit institutions relates to the Agrarian Investment Fund, which started operating from November 2000.

Total placed loans of the non-banking credit institutions as of 1 January 2001 made up 17.6 bln. manats, the volume of funds drawn from others - 7.9 bln. manats. As of this date, 73.4% of the funds drawn by non-banking credit institutions is comprised of loans from banking and financial institutions.

### 4.2 Restructuring of the State banks

During the reporting year, significant work was carried out in relation to restructuring of the state banks, improvement of their stability for further preparation for privatization.

In the framework of restructuring of state banks, based on the decree # 40s of Cabinet of Ministers of Azerbaijan Republic, dated 21.02.2000, new United Universal Joint Stock Bank (UUJSB) was created after merging healthy assets and liabilities of Industrial Investment Joint Stock Commercial Bank, Agroindustrial Bank, and Savings Bank, controlling share of stock in all of which belonged to the state.

In relation to establishment of UUJSB, the Board of Directors of the National Bank decided to cancel licenses for banking activities for Industrial Investment and Savings banks. Share capital of UUJSB, fully paid by the Ministry of Finance, made up 22 bln. manats. Operating principles and management aspects for this bank were developed and banking license was granted. Its principles of operation for the near future were developed to limit the risks, increase its competitiveness, and transform it into a well-managed financial and administrative structure during the

edilməsinin aspektləri müəyyən edilmiş və bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyada öz əksini tapmışdır. BUSB-un təşəkkül tapdığı mərhələdə risklərinin məhdudlaşdırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi, onun sağlam, yaxşı idarə olunan maliyyə-inzibati struktura çevirilməsi üçün yaxın gələcəyə fəaliyyət prinsipləri müəyyən olunmuş və bu barədə bankın ali idarəetmə orqanları ilə Milli Bank arasında razılaşma əldə edilmişdir. BUSB üzərində xarici bank nəzarəti (müvafiq hesabatlıq sisteminin yaradılması, operativ informasiya mübadiləsi sistemi və s.) prosesləri tam tənzimlənmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin yuxarıda göstərilən sərəncamına əsasən Səhmdar Kommersiya Sənaye İnvestisiya, Aqrar-Sənaye və Əmanət banklarının problemli borcları və öhdəlikləri idarə olunmaq üçün Aqrar-Sənaye Bankına verilmişdir.

Aqrar-Sənaye Bankının statusu, fəaliyyət prinsipləri və maliyyələşmə mexanizmlərinə dair şərtlər ilkin qaydada müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası hökuməti tərəfindən bu istiqamətdə qəbul ediləcək qərara müvafiq olaraq, 2001-ci ildə Milli Bankın tədbirləri davam etdiriləcəkdir.

Dövlət banklarının sağlamlaşdırılaraq özəlləşdirilməyə hazırlanması üzrə tədbirlər cari ildə beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlıqda davam etdirilmiş, Beynəlxalq Bankın özəlləşdirilməsinə hazırlıq prosesləri tamamlanmış, investisiya təklifləri formalaşdırılmışdır.

### 4.3. Bank nəzarəti

2000-ci ildə bank nəzarəti sahəsində həyata keçirilmiş ən vacib islahat əvvəllər Milli Bankın müxtəlif alt struktur bölmələri arasında paylanmış bank nəzarəti funksiyalarının vahid təşkilati bölmədə cəmləşdirilməsindən ibarət olmuşdur. Bu tədbir nəzarət proseslərinin tam əlaqələndirilməsinə və birləşdirilməsinə zəmin yaratmışdır. Bank sektoruna nəzarətin mövcud qanunvericilik bazasının, tə'limat və normativ aktların təkmilləşdirilməsi, beynalxalq standartlara uyğun normativ sənədlərin hazırlanması, bank nəzarətini həyata keçirən mütəxəssislərin peşə hazırlığının artırılması sahəsində müəyyən işlər görülmüşdür. İl ərzində bank nəzarəti dövlət banklarının yenidən qurulması, özəl bankların restrukturizasiyası, habelə qeyri-bank kredit təşkilatlarının (QBKT) fəaliyyətinə nəzarət istiqamətində həyata keçirilmişdir.

***Xarici bank nəzarəti.*** Bankların fəaliyyətinə xarici nəzarət banklar tərəfindən hər ay təqdim olunan hesabatlar əsasında aparılır. Banklar tərəfindən təqdim edilmiş hesabatların təhlili zamanı, əsasən qanunvericilikdə müəyyən olunmuş və Milli Bankın normativ aktları ilə tənzimlənən məcburi iqtisadi normativlərin yerinə yetirilməsinə, xüsusilə də kapitalın adekvatlığı, likvidlik və risklərin cəmləşməsi ilə bağlı tənzimləmə normalarına xüsusi diqqət yetirilir. Aylıq hesabatların təhlili nəticəsində bankların maliyyə vəziyyəti və idarəetmə sistemləri qiymətləndirilir və bu sahələrin sağlamlaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi barədə banklara göstərişlər verilir. 2000-ci il ərzində 21 banka xəbərdarlıq məktubu göndərilmişdir.

İl ərzində Milli Bankın tələblərinə əməl edilməməsi və iqtisadi normativlərin pozulması ilə əlaqədar banklara qarşı sanksiyalar tətbiq olunmuş və məcburi ehtiyat fondunun norması artırılmış, bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyalar məhdudlaşdırılmışdır.

Xarici nəzarətin nəticələrinə görə maliyyə

organizational stage, and an agreement was signed in this regard between the management of the bank and the National Bank. Principles of external control over UUJSB (creation of an appropriate reporting system, operative system for exchange of information, etc.) were fully developed. According to the above mentioned decree of the Cabinet of Ministers of Azerbaijan Republic, problem loans and liabilities of Industrial Investment Joint Stock Commercial bank, Agroindustrial bank, and Savings bank were transferred to Agro-Industrial Bank for management.

Initial conditions related to the status, principles of operations and financing mechanisms of Agrarian Investment Bank were developed. According to the decree of the government of Azerbaijan Republic to be adopted in this respect, National Bank will continue those measures in 2001.

The measures aimed at revitalization of banks and their preparation for privatization have continued this year in close cooperation with international financial institutions. Preparation process for privatization of International Bank has come to an end and investment proposals have been formalized.

### 4.3 Banking supervision

The most important reform in the field of banking reforms in the year 2000 was the consolidation of all banking supervision functions formerly distributed between various structural sub-divisions of the National Bank under one organizational division. This measure provided grounds for full unification and concentration of supervision processes. Certain measures were taken in relation to improvement of present legislative framework for supervision in the banking sector, instructions and normative documents, preparation of the normative documents conforming to the international standards, improvement of professional level of experts participating in banking supervision. During the reporting year, banking supervision was related to restructuring of the state banks, restructuring private banks, as well as supervising operations of non-banking credit institutions (NBCI).

***Off-site Banking Supervision.*** Off-site supervision over banking activities is carried out based on monthly reports submitted by the banks. At the time of analyzing reports submitted by the banks, special attention is paid mostly to compliance with required economic ratios set by the legislation and regulated by National Bank's normative documents, especially ratios regulating capital adequacy, liquidity and risk concentration. Analysis of monthly reports makes it possible to assess financial situation and management systems of banks and issue instructions regarding implementation of various measures aimed at recovery and improvement of those areas. During 2000, 21 banks were issued written warnings.

During the year, various sanctions were introduced against the banks due to non-compliance with the National Bank's requirements and violation of regulative ratios, their reserve requirements were increased, licenses given to them for banking operations were restricted.

Based on the results of off-site supervision procedures, the Board of Directors of the National Bank decided to cancel licenses for banking operations for 5 banks, because their financial situation was considered unsatisfactory.

vəziyyətləri qeyri-qənaətbəxş hesab olunmuş, 5 bankın bank əməliyyatlarının aparılması üçün lisenziyaları Milli Bankın İdarə Hey'ətinin qərarı ilə geri çağırılmışdır.

***Daxili bank nəzarəti.*** 2000-ci il ərzində özəl banklar üzrə daxili nəzarət iki istiqamətdə həyata keçirilmişdir:

- *Bankların fəaliyyətinin sənədli təftişi;*
- *Diaqnostik yoxlamaların aparılması.*

2000-ci il ərzində 25 bankda sənədli təftiş, 2 bankda isə tematik yoxlamalar aparılmışdır.

Aparılmış təftiş və yoxlamalar zamanı bankların aktivlərinin tərkibi və keyfiyyəti, xüsusilə də kredit inzibatçılığı araşdırılmış və risklərin adekvat idarə olunmaması, likvidliyin qənaətbəxş tənzimlənməməsi, daxili nəzarət və idarəetmə prosedurlarının təşkilati-hüquqi yetərsizliyi, habelə kapitalla və onun adekvatlığı ilə bağlı bu və ya digər normativlərin pozulması və iqtisadi normativlərə riayət olunmaması halları aşkar edilmişdir.

Bunun nəticəsi olaraq banklara müvafiq sanksiyalar tətbiq edilmiş, ali idarəetmə orqanları qarşısında icbari vəzifələr qoyulmuşdur.

Yol verilmiş nöqsanlara və çatışmamazlıqlara görə bir sıra banklara ciddi xəbərdarlıqlar edilmiş, 1 bankın bank əməliyyatları aparılması üçün lisenziyası məhdudlaşdırılmış və bankın idarəetmə orqanları tərkibində icbari qaydada dəyişikliklər edilmişdir.

Bankların maliyyə vəziyyətlərinin və idarəetmə sistemlərinə dair xarici nəzarətin nəticələrinin dəqiqləşdirilməsi məqsədi ilə 50 bankda diaqnostik yoxlamalar aparılmışdır. Yoxlamalar zamanı kredit təşkilatlarında kapitalın formalaşdırılması və onun adekvatlığı, aktivlərin tərkibi, keyfiyyəti, bankın gəlirliyi, likvidliyi, idarə edilməsi və digər məsələlər araşdırılmışdır. Aparılmış diaqnostik yoxlamalar nəticəsində 6 bankın bank əməliyyatlarının aparılması üçün lisenziyaları Milli Bankın İdarə Hey'tinin qərarı ilə geri çağırılmışdır. 6 banka maliyyə vəziyyətinin sağlamlaşdırılması, idarəetmə prosedurlarının təkmilləşdirilməsi və optimallaşdırılması istiqamətində icbari tədbirlərin həyata keçirilməsi tapşırılmaqla vaxt verilmiş və bu banklara «nöqtəvi nəzarət» tətbiq edilmiş, 14 banka isə diaqnostik yoxlamaların nəticələri ilə əlaqədar tövsiyyələr verilmişdir.

Özəl bank sisteminin restrukturizasiyası tədbirlərinin 2001-ci ildə də davam etdirilməsi nəzərdə tutulur.

***Qeyri-Bank kredit təşkilatların fəaliyyətinə nəzarət.*** Qeyri-Bank kredit təşkilatları (QBKT) maliyyə sektorunun institusional elementi kimi təşəkkül mərhələsində olduğundan 2000-ci il ərzində bu seqmentdə nəzarət proseslərinin standartlaşdırılması tədbirləri davam etdirilmişdir. 22.07.2000-ci il tarixdə «Kredit ittifaqları haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə QBKT fəaliyyətinin əsasları və tənzimlənməsi məsələlərinin qanunvericilik bazası təkmilləşdirilmişdir. QBKT fəaliyyətinə nəzarət əsasən Milli Banka təqdim edilən standart rüblük hesabatlar əsasında həyata keçirilmişdir. 2000-ci il ərzində maliyyə sektorunun bu seqmentində hesabat sisteminin təkmilləşdirilməsi üzrə də tədbirlər həyata keçirilmişdir.

İl ərzində 14 QBKT-də yoxlamalar aparılmışdır. Yoxlamalar nəticəsində 1 QBKT-nin bank əməliyyatlarının aparılması üçün lisenziyası Milli Bankın İdarə Hey'ətinin qərarı ilə geri çağırılmışdır.

2000-ci il ərzində QBKT tərəfindən Milli Banka təqdim edilmiş hesabatlar təhlil edilmişdir. Aparılmış təhlil nəticəsində aşkar edilmiş ciddi nöqsanlara və çatışmamazlıqlara görə 19

***On-site Banking Supervision.*** During 2000, on-site supervision in commercial banks was carried out in two ways:

- *Documentary inspections of the banks' activities*
- *Conducting diagnostic audits*

During the year 2000, documentary inspection was carried out in 25 banks, and thematic inspection – in other 2 banks.

During the course of inspections and audits carried out, structure and quality of the banks' assets, and, specifically, loan administration procedures were examined. Those examinations revealed inadequate risk management, insufficient regulation of liquidity, organizational and legal deficiencies in on-site supervision and management procedures, as well as violation of various ratios related to capital and its adequacy and non-compliance with economic standards.

As a result of this, various sanctions were used against the banks and compulsory duties were imposed for the management.

Due to the weaknesses and deficiencies given way to, strict warnings were issued to several banks, in 1 bank the license for banking operations was restricted and compulsory changes were made in the structure of the bank's management bodies.

With the purpose to investigate results of off-site supervision procedures related to the banks' financial positions and administrative systems, 50 banks were subjected to diagnostic audits. During these audits, capital formation and its adequacy in credit institutions, structure and quality of assets, profitability and liquidity of the bank, its administration and other issues were checked. As a result of diagnostic audits carried out, the licenses for banking operations were cancelled for 6 banks by the decree of the Board of Directors of the National Bank. Six other banks were given time to implement compulsory measures aimed at recovery of their financial position, improvement and optimization of administrative procedures. Additionally "point control" measures were introduced in those banks. As a result of diagnostic audits, 14 banks were given recommendations.

Measures aimed at restructuring private banking system are expected to continue in 2001.

***Supervision of Non-banking credit institutions***. Measures for standardization of supervision processes in the sector of non-banking credit institutions (NBCI), which are currently at organizational stage as an institutional element of the financial sector, continued in 2000. Adoption of the law of Azerbaijan Republic "On Credit Unions" on 22.07.2000, facilitated improvement of legislative framework for the issues related to the basics of NBIC operations and their regulation. Supervision over NBIC operations was carried out mainly based on standard quarterly reports submitted to the National Bank. Measures aimed at improvement of reporting system of this segment of the financial sector have also been carried out in 2000.

During the year, audits were carried out in 14 NBICs. As a result of audits, the Board of Directors of National Bank decided to cancel a license for carrying out banking operations for 1 NBIC.

Reports submitted by NBICs during 2000 were assessed by the National Bank. As a result of assessments carried out, licenses for banking operations from 19 NBICs were canceled by the decision of the Board of Directors of the National Bank, due to serious shortcomings and deficiencies discovered. Administrative recommendations and instructions were given to 15 NBICs.

QBKT-nin bank əməliyyatlarının aparılması üçün lisenziyaları Milli Bankın İdarə hey'ətinin qərarı ilə geri çağırılmışdır. 15 QBKT-yə isə icbari tövsiyyələr və göstərişlər verilmişdir.

***Valyuta nəzarəti.*** 2000-ci il ərzində bankların balansında əsas risk komponentlərindən olan açıq valyuta mövqeyi üzərində nəzarət gücləndirilmişdir. Belə ki, valyuta bazarının ən aktiv operatorları olan 15 bankın açıq valyuta mövqeyinə dair hesabatlarının gündəlik rejimə keçməsi tə'min olunmuş, digər bankların hesabatlarının tezliyi artırılmış və həftəlik müddətə keçirilmişdir. Açıq valyuta mövqeyi limiti normativinə riayət etməyən banklara qarşı sanksiyalar tətbiq edilmişdir. Belə ki, 1 bankın valyuta mübadilə əməliyyatlarının aparılması üzrə lisenziya hüququ ləğv edilmiş, 10 bank isə cəmi 122 mln. manat məbləğində cərimə edilmişdir. 1 bankın valyuta mövqeyi pozuntusu struktur xarakter daşıdığından bu bankla valyuta mövqeyinin tənzimlənməsi qrafiki müəyyənləşdirilmiş və qrafikin icrasına cari monitorinq keçirilmişdir.

2000-ci il ərzində 259 valyuta mübadilə məntəqəsi açılmış, 331 valyuta mübadilə məntəqəsinə isə verilmiş lisenziyalar ləğv edilmişdir.

***Foreign exchange supervision.*** Supervision over open foreign exchange position, being the main risk component in the banks' balances, strengthened during the year 2000. For instance, for 15 banks that are the most active participants at the foreign exchange markets, daily reporting on open foreign exchange position was introduced, frequency of reporting for the other banks also increased and was set at weekly intervals. Sanctions were used against the banks failing to maintain the ratio of the open foreign exchange position limit. For instance, the license to carry out foreign exchange operations was cancelled for one bank and 10 banks were fined for the total of 122 mln manats. Due to the fact that foreign exchange position violation in one bank related to structural problems, foreign exchange position regulation schedule was developed for this bank, and current monitoring of implementation of this schedule is carried out.

During 2000, 259 new foreign exchange offices were opened, permissions for 331 foreign exchange offices were called back.

# 5. ÖDƏNİŞ SİSTEMİNİN VƏZİYYƏTİ VƏ EMİSSİYA-KASSA İŞİNİN TƏŞKİLİ

## 5.1. Ödəniş sisteminin vəziyyəti və təşkili

Müasir texnologiyaya əsaslanan, beynəlxalq standartları özündə əks etdirən və effektiv işləyən ödəniş sistemi olmadan bank sisteminin möhkəmliyinə və təhlükəsizliyinə tə`minat vermək və bazar prinsiplərinə əsaslanan pul-kredit siyasətini həyata keçirmək mümkün olmadığı üçün Milli Ödəniş sisteminin yaradılması AMB-nin fəaliyyətində prioritet önəm daşımışdır. Bu sahədə fəaliyyət 2000-ci il ölkəmizin tarixində mühüm hadisə kimi qiymətləndirilən və "AZIPS" adlanan Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar sisteminin istismara verilməsi ilə nəticələnmişdir.

Xatırladaq ki, Milli Ödəniş Sisteminin yaradılmasının konseptual əsasları və strategiyası bu sahədə mövcud olan xarici təcrübənin diqqətlə öyrənilməsi əsasında hazırlanmış və özündə aşağıdakı əsas müddəaları əks etdirmişdir:

• Ölkədə Real Vaxt Rejimində İri və Tə'cili ödənişlər üzrə banklararası məcmu hesablaşmalar sisteminin yaradılması;

• Telekommunikasiya vasitəsi kimi təhlükəsiz, sür`ətli və beynəlxalq standartlara uyğun "SWIFT" Ümumdünya Banklararası Maliyyə telekommunikasiya sistemindən istifadə edilməsi;

• Banklararası hesablaşmaların aparılması üçün kommersiya banklarının Milli Bankda, onun Ərazi İdarələrində vahid müxbir hesabla təmsil olunması və banklara müstəqil surətdə bankdaxili köçürmələr aparmaq hüququnun verilməsi;

• Regional banklararası hesablaşmalar üzrə iqtisadi cəhətdən məqsədyönlü olan klirinq mexanizmlərinin yaradılması;

• Bank sistemi vasitəsilə xırda ödənişlərin həyata keçirilməsi şəraitinin yaradılması və Milli Bankda onların klirinqinin banklararası məcmu hesablaşmalar sistemi ilə qarşılıqlı surətdə fəaliyyət göstərən müvafiq infrastrukturun təşkili.

Qəbul edilmiş strategiyaya uyğun olaraq, 1999-cu ildə Milli Bank tərəfindən ölkədə fəaliyyət göstərən bütün bankların vahid müxbir hesabına keçirilməsi prosesinə başlanılmış və bu proses 2000-ci ilin may ayında başa çatdırılmışdır. Bu məqsədlə regional banklararası hesablaşmalar üzrə klirinq mexanizmləri yaradılmış və bankların vəsaitləri bütün sivil ölkələrdə olduğu kimi Milli Bankda təmsil olunan vahid müxbir hesabda cəmləşdirilmişdir.

Bu zaman Milli Bank tərəfindən başqa bir istiqamətdə aparılan islahatların bu sahədə görülən işlərlə uzlaşdırılması zərurəti yaranmışdır. Yeni yaradılan Birləşmiş Universal Səhmdar Bankının ərazicə bütün respublikanı əhatə edən filiallarının 2000-ci il ərzində ödəniş sistemləri sahəsində aparılan islahatlara uyğunlaşdırılması məsələləri həll edilmişdir.

2000-ci ilin ikinci yarısından e`tibarən, Real Vaxt Rejimində Hesablaşmalar sisteminin yara-

# 5. THE SITUATION WITH THE PAYMENT SYSTEM AND CONSTITUENTS OF EMISSION-CASH OPERATIONS

### 5.1 The situation with and constituents of the payment system

To ensure strength and security of the banking system and facilitate implementation of monetary and credit policy based on market principles through effective payment system, based on the modern technology and reflecting international standards, NBAR's top priority was to create the National Payment System. The work carried out in this field resulted in development of «AZIPS» Real-Time Interbank National Settlement System in the year 2000, which was marked as an important event in the country's history.

We remind you that conceptual framework and strategy for creation of the National Payment System were developed on the basis of thorough study of international expertise in this field and reflected the following objectives:

- Creation of general inter-bank real-time settlement system for large and urgent payments;
- Usage of «SWIFT» worldwide interbank telecommunication system, as a means of secure and urgent financial telecommunication system conforming to international standards;
- Representing commercial banks by single correspondent account with the National Bank or its Regional Offices to carry out interbank settlements and prove the right for the banks to carry out independent interbank transfers;
- Creation of clearing mechanisms for regional interbank settlements dependent on economic aspects
- Creation of necessary conditions for carrying out small payments by means of the banking system and development of a respective infrastructure for their clearing in the National Bank, which would be carried out together with general interbank settlements system.

In 1999, in conformity with the strategy adopted, the National Bank started the process of transferring accounts of all the banks functioning in the country to a unified correspondent account and this process was completed in May 2000. For this purpose, clearing mechanisms for regional interbank settlements were established and all banking funds (as in all developed countries) were combined in a unified correspondent account with the National Bank.

At this time, there is a rising necessity to integrate reforms carried out by the National Bank in other fields with those activities. The problems related to conformity of branches of the newly created United Universal Joint Stock Bank, covering almost the whole country, to reforms carried out in the field of payment systems were also solved during the year 2000.

Starting from the second half of 2000, the up-to-date technical equipment, conforming to the world standards, was purchased and installed as a part of the measures to create a real-time settlement system. After this, the trial usage period for this equipment has started. For efficient organization of trial usage, the banks were divided into groups and for each group the experts of the

dılması üçün dünya standartlarına uyğun, ən müasir texniki avadanlıqların alınıb quraşdırılması tə`min edilmişdir. Bundan sonra sistemin sınaq istismarı dövrü başlanmışdır. Sınaq istismarının səmərəli təşkil olunması üçün banklar qruplara bölünmüş və hər bir qrup üçün Milli Bankın mütəxəssisləri tərəfindən test ssenariləri hazırlanmışdır. Sistem hazırlanmış test ssenariləri üzrə bankların fəal iştirakı ilə sınaqdan keçirilmişdir. Bu dövrdə bankların mütəxəssisləri ilə Milli Bankda seminarlar keçirilmiş və onlara sistemlə işləmə qaydaları geniş şərh olunmuşdur.

2000-ci ilin dekabr ayında artıq sistemin quraşdırılması üzrə icraçı "Locika" şirkəti ilə sazişdə nəzərdə tutulmuş işlər başa çatdırılmış və sistem qəbul edilmişdir. Bundan sonra Milli Bankın mütəxəssisləri tərəfindən banklarla birlikdə sistemin real rejimdə sınaqdan çıxarılması üzrə işlər aparılmışdır.

Milli Hesablaşmalar sisteminin Dünya standartlarına uyğun tam təhlükəsiz və tə`minatlı işləməsi üçün Ehtiyat Mərkəz yaradılmışdır. Mərkəz ən müasir texniki avadanlıqlarla tə`min edilmiş və kompleks şəkildə istismar sınaqlarından keçirilmişdir.

AMB tərəfindən sistemin quraşdırılması ilə paralel olaraq onun fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın yaradılması üzrə işlər həyata keçirilmişdir. Sistemin tətbiqi ilə bağlı "Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatları arasında hesablaşmaların təşkili Qaydaları" Milli Bankın İdarə Hey`əti tərəfindən təsdiq edilmiş və müvafiq qaydada dövlət qeydiyyatından keçirilmişdir.

Bunlardan əlavə "AZIPS" sistemində bankların müştərilərə xidmətinin yaxşılaşdırılması üçün "Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatları barədə mə`lumat kitabçası" hazırlanmış və kredit təşkilatlarına çatdırılmışdır.

Ölkəmizdə fəaliyyət göstərən 59 bankdan 25-i artıq "AZIPS" sisteminə qoşulmuşdur. "SWIFT" şəbəkəsinə qoşulmamış qalan 34 bank hesablaşmaların operativ və təhlükəsiz tə`min edilməsi üçün Milli Bankın Hesablaşmalar departamentində yaradılmış Servis bürosu vasitəsi ilə "AZIPS"-də iştirak edirlər. Aydındır ki, zaman keçdikcə sistemin iştirakçısı olan bankların sayı da artacaqdır.

Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sisteminin yaradılması ilə əlaqədar sistemin iştirakçısı olan banklar tərəfindən elektron ödəniş tapşırığına əsasən aparılan hər bir debet əməliyyatı üçün Milli Banka ödəniləcək xidmət haqqının yeni tarifləri tətbiq edilmişdir. Tariflər qəbul edilərkən nəzərə alınmışdır ki, sistem avtomatik olaraq hər bir ödənişin icra olunma tarixinin və vaxtının uçotunu aparır. Yeni qəbul edilən tariflər kommersiya banklarına ödənişin optimal icra vaxtını seçmək və bunun nəticəsində əvvəlki tariflərə nisbətən iki dəfəyə qədər az xidmət haqqı ödəmək imkanı verir.

"AZIPS" Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar sisteminin yaradılması və istismara verilməsinin tə`min edilməsi Milli Bankın 1998-ci ildə qəbul etdiyi Milli Ödəniş Sisteminin yaradılması strategiyasının həyata keçirilməsinin birinci mərhələsinin müvəffəqiyyətlə başa çatdırılması deməkdir. İkinci mərhələ xırda ödənişlər üzrə Klirinq Hesablaşmalar sisteminin yaradılmasından ibarətdir. Milli Bank ölkədə Milli Ödəniş sisteminin modernləşdirilməsi və Xırda ödənişlər sisteminin yaradılması üçün strateji plan hazırlayır. Bu strateji plan yaxın vaxtlarda Milli Ödəniş şurasında müzakirə olunacaq və İdarə He`yətində qəbul ediləcəkdir. Beynəlxalq maliyyə təşkilatlarının texniki köməyindən istifadə edilərək yaxın 2001-2002-ci illər ərzində ödənişlərin təhlükə-

National Bank prepared a certain test scenario. The system was subject to tests, according to the test scenarios, with active participation of the banks. During this period, workshops were held at the National Bank with the professionals from other banks, and the rules of using the system were explained to them in detail.

In December 2000, the work planned by "Logica" contractor firm for the establishment of the system has come to an end, and the system was approved. After this, experts of the National Bank worked jointly with experts from other banks to exit the real-time trial mode for the system.

To ensure secure and reliable operation of the National Settlement System in conformity with international standards, an Emergency Center was created. The Center was equipped with the up-to-date technical equipment and was subject to complex tests.

In parallel with the establishment of this system on the NBAR part, the work related to creation of normative and legislative framework for regulation of its activities was also carried out. "The Rules for settlements organization between credit institutions acting in Azerbaijan Republic", related to the use of the system have been approved by the Board of Directors of the National Bank and subsequently registered by the government.

In addition, with the purpose to improve banks' customer services as to the "AZIPS" system, special "Information booklet on credit institutions acting in the Azerbaijan Republic" has been prepared and distributed to credit institutions,.

25 out of 59 banks acting in the country already have connection to the "AZIPS" system. 34 banks, which are not yet connected to the "SWIFT" system, participate in "AZIPS" through the Service Bureau, within the Settlements Department of the National Bank to ensure operative and secure settlements. Obviously, the number of banks participating in this system will increase with time.

In relation to creation of Real Time Gross Settlement System, for all debit operations carried out by electronic payment order from commercial banks-participants of the system, new fees of National Bank were established. At the time of approving the fees, the fact that the system automatically registers each payment's value date and time was considered. New approved fees give a chance for commercial banks to select optimal payment execution time and, as a result, to pay up to twice as low a service fee, as compared to the previous fees.

Development and launch of the Real Time Interbank National Settlement System marks successful completion of the first stage of strategy implementation to create the National Payment System, adopted in 1998 by the National Bank. The second stage consists of creating the system for clearing transactions for small payments. National Bank is preparing a strategic plan for modernization of the National Payment System in the country and creation of the Small payments system. This strategic plan will be discussed on the National Payment Council in the nearest future and adopted by the Board of Directors. With technical assistance of international financial organizations, creation of small payments system that ensures security of payments and conforms to international standards and its connection to the "AZIPS" National Settlement System will remain one of the most important strategic goals for the National Bank during the years 2001-2002.

In general, National Bank of Azerbaijan Republic has passed through a fast development in the field of

sizliyinə tə`minat verən, dünya standartlarına uyğun xırda ödənişlər sisteminin yaradılması və onun "AZIPS" Milli Hesablaşmalar sistemi ilə əlaqələndirilməsi Milli Bankın qarşısında duran ən böyük strateji məqsədlərdən biridir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Milli Bankı son 5-6 ildə İnformasiya Texnologiyaları sahəsində böyük inkişaf yolu keçmiş, Milli Bankın funksional fəaliyyət sahələrinin avtomatlaşdırılması üzrə məqsədyönlü işlər görülmüşdür.Təbii ki, ən böyük nailiyyət "AZIPS" Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar sisteminin yaradılmasıdar. Eyni zamanda bununla paralel olaraq AMB-nin İnzibati binasında ən yüksək texnologiya və müasir telekommunikasiya avadanlıqlarının bazasında lokal kompüter şəbəkəsinin yaradılması başa çatdırılmışdır. Bu zaman informasiyaların paylanmış e’malı və təhlükəsizliyin tə’min olunması baxımından şəbəkə texnologiyalarının bir çox nailiyyətlərindən respublikada ilk dəfə istifadə olunmuşdur. Lokal kompüter şəbəkəsindən istifadə edərək daxili elektron yazışmalar sistemi yaradılmışdır və artıq müvəffəqiyyətlə istifadə olunur. Milli Bankın hər bir əməkdaşının lokal kompüter şəbəkəsi ilə əlaqələndirilmiş fərdi kompüterlə tə’min olunması planlaşdırılır. Lokal kompüter şəbəkəsinin İnternet qlobal şəbəkəsinə qoşulması üçün informasiya texnologiyaları sahəsində ən son nailiyyətlərdən olan assimetrik informasiya axını prinsipindən istifadə edilmişdir. Milli Bankın lokal kompüter şəbəkəsində işləyən hər bir əməkdaşına Elektron poçt xidmətindən istifadə etmək imkanı verilmişdir.

Qeyd etmək lazımdır ki, informasiya texnologiyaları sahəsində tətbiq olunan yeniliklər informasiya təhlükəsizliyinin tə`min olunması sahəsində xüsusi tə`yinatlı işlərin görülməsini labüd etmişdir. Belə ki, Milli Bankın infomasiya sisteminin kənar və daxili sanksiyasız müdaxilələrdən qorunması üçün ən müasir texniki-proqram komplekslərindən istifadə olunur və bu sahədə görülən işlərin daha da inkişaf etdirilməsi nəzərdə tutulur.

## 5.2. Emissiya-kassa işinin təşkili

Emissiya-kassa işinin təkmilləşdirilməsi və ölkədə pul dövriyyəsinin yaxşılaşdırılması Milli Bankın fəaliyyətində daim diqqət mərkəzində duran əsas məsələlərdən biri olmuşdur. 2000-ci il ərzində respublikada emissiya-kassa işinin təşkili aparılan pul-kredit siyasətinin əsas istiqamətlərinin məqsədlərinin tə’min edilməsinə yönəldilmişdir. Görülən tədbirlər öz müsbət nəticələrini vermiş və məxaricdə emissiyanın xüsusi çəkisi azalmışdır. 01.01.95-ci ilə respublika üzrə məxaricdə emissiyanın xüsusi çəkisi 53,2 faiz olduğu halda, 01.01.2001-ci ildə bu göstərici 19,7 dəfə azalaraq 2,7 faiz olmuşdur.

01.01.2001-ci il tarixinə kassa mədaxili 8303 mlrd. manat, kassa məxarici isə 8513 mlrd. manat təşkil etmişdir. İqtisadiyyatın və əhalinin nağd pula olan tələbatını ödəmək üçün 2000-ci ildə Milli Bank emissiya şəklində dövriyyəyə əlavə olaraq 194 mlrd. manat nağd pul buraxmışdır.

01.01.2001-ci il tarixə Milli Bankın ehtiyat fondlarında 119 mlrd. manata qədər dövriyyəyə yararsız nağd pul toplanmışdır və tezliklə həmin məbləğin kəskin artacağı gözlənilir. Yaxın gələcəkdə isə həmin yararsız əskinaslar tamamilə dövriyyədən çıxarılacaq və «Azərbaycan Respublikası Milli Bankı haqqında» Qanunun tələblərinə uyğun olaraq məhv ediləcəkdir.

Tədavüldə olan pulların fiziki vəziyyətinin yaxşılaşdırılması istiqamətində də ardıcıl iş apa-

Information Technology during the last 5-6 years, carried out specific work related to automation of functional operations in the National Bank. Naturally, the biggest achievement was the creation of Real Time Interbank National Settlement System, "AZIPS". In parallel with this, local area network, utilizing the best technology and modernistic telecommunication equipment, was installed in the head office of the NBAR. At this time, several achievements of network technologies related to distributed information processing and security, being the first time in the country, were used. Internal electronic messaging system was established on the basis of this local area network and is already being used successfully. Each staff member of the National Bank is expected to be provided with personal computer connected to local network. To facilitate connection of local computer network to the Internet, the recent achievements in the field of Information Technology, such as asymmetric information flow principles, were used. Each staff member of the National Bank working in the local computer network has been provided an opportunity to use electronic mail.

It is necessary to note that the innovations introduced in the field of information technology would inevitably lead to implementation of special-purpose measures in the field of information security. For instance, the modern software and hardware complexes have been used to protect the National Bank's information from external and internal unauthorized access, and the work in this field is expected to continue.

## 5.2 Organization of cash emission and cash transactions

Improvement of cash emission and cash transactions and improvement of money turnover in the country has always been one of the main issues in the activity of the National Bank that has been constantly in the center of attention. Organization of emission and cash transactions during 2000 was aimed at conforming to main objectives of monetary and credit policy. The outcome of the measures taken was positive, and the share of emission in total outflows has decreased. While as of 01.01.95, the share of emission in outflows in the country amounted to 53.2%, on 01.01.2001 this indicator decreased 19.7 times and made up 2.7%.

As of 01.01.2001, petty cash inflows made up 8,303, and petty cash outflows – 8,513 bln. manats. To meet the requirements of demand for cash in the economy and public, in 2000 the National Bank has additionally issued in circulation 194 bln. manats cash.

As of 01.01.2001, around 119 bln. manats of worn-out bank notes accumulated in the reserve funds of the National Bank and this amount is soon expected to increase greatly. In the nearest future, worn-out bank notes will be completely withdrawn from circuation and destroyed, in accordance with the law «On National Bank of Azerbaijan Republic».

Consecuitive work is also carried out to improve physical condition of money in circulation. For instance, more than a half of cash in circulation was substituted with the new banknotes, much of the cash that lost its physical appearance was withdrawn from circulation. To establish necessary amount of cash reserves in the country, regulate money circulation, and satisfy demands of agriculture and general public in cash, the possibility of printing new banknotes in 2001, to substitute the ones in circulation, will also be considered by the National Bank.

As it is known, in 1994 the Regulation con-

rılır. Belə ki, dövriyyədə olan pulların yarısından çoxu yeniləri ilə əvəz olunmuş, fiziki görkəmini itirmiş xeyli pul dövriyyədən çıxarılmışdır. Respublikada zəruri məbləğdə nağd pul ehtiyatının yaradılması, pul dövriyyəsinin nizama salınması, xalq təsərrüfatının və əhalinin nağd pula olan tələbatının vaxtında ödənilməsini tə'min etmək məqsədilə 2001-ci ildə də Milli Bank tərəfindən dövriyyədə olan əskinaslardan yenidən çap edilməsi məsələsinə baxılacaqdır.

Mə'lum olduğu kimi 1994-cü ildə respublikamızın müxtəlif regionlarında Milli Bankın qurumlarında emissiya əməliyyatlarının aparılması qaydalarının təşkili haqqında əsasnamə təsdiq edilmişdir. Keçən dövr ərzində bu sahədə baş verən dəyişiklikləri nəzərə alaraq emissiya əməliyyatlarının təşkili və aparılmasının hüquqi bazası möhkəmlənmiş, «Milli Bankın qurumlarında emissiya əməliyyatlarının aparılması qaydaları» yenidən işlənib hazırlanmış və Milli Bankın İdarə Hey'ətində təsdiq edilmişdir.

Milli Bank nağd pul dövriyyəsini yaxşılaşdırmaq məqsədilə ölkədə nağdsız hesablaşmaların genişləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər görür. Şübhəsiz ki, beynəlxalq standartlarla işləyən effektiv ödəniş sisteminin yaradılması, mühasibat uçotunun dünya standartlarına tam uyğunlaşdırılması, habelə bankların sağlamlaşdırılması istiqamətində atılan radikal addımlar gələcəkdə nağd puldan istifadənin məhdudlaşmasına, yə'ni banklar tərəfindən nağd puldan daha az istifadə edilməklə müştərilərə daha yüksək səviyyədə xidmətlərin göstərilməsinə gətirib çıxaracaqdır. Banklardan kənarda böyük məbləğdə nağd pul kütləsinin mövcudluğu probleminin əsaslı həlli isə ölkədə struktur dəyişikliklərinin və institutsional islahatların sür'ətləndirilməsindən, habelə maliyyə intizamının möhkəmləndirilməsindən asılı olacaqdır.

cerning organization of rules for carrying out emission operations was approved by the National Bank subdivisions in various regions of the country. During the reporting period, legislative framework for organization and implementation of emission was strengthened with changes in this field taken in consideration, and the "Rules for carrying out emission operations for the National Bank subdivisions" were revised and approved by the Board of Directors of the National Bank.

With the purpose to improve petty cash circulation in the country, National Bank is implementing specific measures aimed at expansion of non-cash settlements. Undoubtedly, radical steps taken in relation to creating effective payment system, in conformity with international standards, bringing accounting into full compliance with international standards, as well as revitalization of the banks will, in the future, lead to limited usage of petty cash, i.e. banks will provide higher quality services to their customers, using less petty cash. The main solution for the present problem of large money volumes outside the banks will depend on structural changes in the country and acceleration of institutional reforms, as well as strengthening of financial discipline.

# 6. MÜSTƏQİL BEYNƏLXALQ AUDİT ŞİRKƏTİNİN 2000-Cİ İLİN YEKUNU ÜZRƏ MİLLİ BANKIN İLLİK BALANSI BARƏDƏ RƏYİ

Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin Sədri və üzvlərinə

1. Biz Azərbaycan Respublikası Milli Bankının («Bank») 31 dekabr 2000-ci il tarixinə əlavə edilən balansının və həmin tarixdə bitən il üzrə müvafiq mənfəət və zərər hesabatı və nağd vəsaitlərin hərəkəti və kapitalda dəyişikliklər haqqında hesabatlarının auditini apardıq. Bankın maliyyə hesabatları 3 saylı Qeyddə göstərilən mühasibat qaydaları əsasında hazırlanmışdır. Həmin maliyyə hesabatlarına görə Bankın rəhbərliyi məsuliyyət daşıyır. Bizim məsuliyyətimiz apardığımız audit əsasında maliyyə hesabatları barəsində rəy bildirməkdən ibarətdir. Bankın 31 dekabr 1999-cu il üzrə maliyyə hesabatları başqa auditor tərəfindən yoxlanılmış və həmin hesabatlar barəsində 15 iyul 2000-ci il tarixli şərtsiz rəy bildirilmişdir.

2. Biz auditimizi Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz işimizi elə şəkildə planlaşdırmalı və yerinə yetirməliyik ki, maliyyə hesabatlarında ciddi nöqsanların olmamasına tam əmin ola bilək. Auditə test üsulu ilə maliyyə hesabatlarındakı məbləğləri və açıqlamaları təsdiqləyən dəlillərin yoxlanılması daxildir. Bundan əlavə, auditə mövcud mühasibat prinsiplərinin və rəhbərliyin mühüm təxminlərinin, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir. Biz hesab edirik ki, apardığımız audit rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

3. Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları bütün mühüm aspektlər baxımından Bankın 31 dekabr 2000-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini və nağd vəsaitlərin hərəkətini Beynəlxalq Mühasibat Standartlarına uyğun düzgün əks etdirir.

PricewaterhouseCoopers

8 may 2001-ci il

# 6. INDEPENDENT INTERNATIONAL AUDITOR`S REPORT ON THE NATIONAL BANK'S ANNUAL BALANCE FOR THE YEAR 2000

To the Governor and Members of the Board of the National Bank of the Azerbaijan Republic

1. We have audited the accompanying balance sheet of the National Bank of the Azerbaijan Republic ("the Bank") as at 31 December 2000, and the related statements of income, cash flows and changes in funds employed for the year then ended. These financial statements, which are the responsibility of the Bank's management, have been prepared on the basis of the accounting policies set out in Note 3. Our responsibility is to express an opinion on these financial statements based on our audit. The financial statements of the Bank as at 31 December 1999 were audited by other auditor, whose report dated 15 July 2000 expressed an unqualified opinion on those statements.

2. We conducted our audit in accordance with International Standards on Auditing. Those standards require that we plan and perform our audit to obtain reasonable assurance about whether the financial statements are free of material misstatement. An audit includes examining, on a test basis, evidence supporting the amounts and disclosures in the financial statements. An audit also includes assessing the accounting principles used and significant estimates made by management, as well as evaluating the overall financial statement presentation. We believe that our audit provides a reasonable basis for our opinion.

3. In our opinion, the accompanying financial statements present fairly, in all material respects, the financial position of the Bank as at 31 December 2000 and the results of its operations and its cash flows for the year then ended in accordance with International Accounting Standards.

PricewaterhouseCoopers

8 May 2001

# 7. MÜHASİBAT BALANSI VƏ MİLLİ BANKIN MALİYYƏ FƏALİYYƏTİNİN YEKUNLARI

**31 Dekabr Tarixinə Balanslar** *(Məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir)*

| | Qeyd | 2000 | 1999 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Nağd pul | 4 | 15,887 | 21,126 |
| Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər | 5 | 3,054,765 | 2,913,038 |
| Dövlətin qiymətli kağızları | 6 | 152,000 | 148,123 |
| Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər | 7 | 587,880 | 638,024 |
| Hökumətə verilmiş kreditlər | 8 | 345,264 | 345,264 |
| BVF-də yerləşdirilmiş vəsaitlər | 9 | 969,570 | 887,959 |
| Hesablanmış alınacaq faizlər və digər aktivlər | 10 | 15,887 | 5,838 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 11 | 129,620 | 127,360 |
| **Aktivlərin cəmi** | | **5,276,841** | **5,086,732** |
| **Passivlər** | | | |
| Dövriyyədə olan nağd pul | 12 | 1,424,181 | 1,195,579 |
| Kommersiya banklarının hesabları | 13 | 345,524 | 161,477 |
| Hökumətin hesabları | 14 | 568,334 | 772,480 |
| Digər müştəri hesabları | 15 | 21,229 | 75,563 |
| BVF qarşısında öhdəliklər | 16 | 2,476,566 | 2,639,953 |
| Digər beynəlxalq maliyyə institutları qarşısında öhdəliklər | 17 | 9,053 | - |
| Hesablanmış ödəniləcək faizlər və digər passivlər | 18 | 10,006 | 10,286 |
| **Passivlərin cəmi** | | **4,854,893** | **4,855,338** |
| **Nizamnamə kapitalı və ehtiyatlar** | | | |
| Nizamnamə kapitalı | 19 | 26,685 | 24,385 |
| Ehtiyatlar | 20 | 395,263 | 207,009 |
| **Nizamnamə kapitalı və ehtiyatların cəmi** | **14** | **421,948** | **231,394** |
| **Passivlər, nizamnamə kapitalı və ehtiyatların cəmi** | **15** | **5,276,841** | **5,086,732** |

# 7. ACCOUNTING BALANCE AND SUMMARY THE NATIONAL BANK'S FINANCIAL ACTIVITY

**Balance sheets at 31 December**

*(Amounts are expressed in millions of Azerbaijanian Manat)*

| | Primeçanie | 2000 | 1999 |
|---|---|---|---|
| **Assets** | | | |
| Cash on hand | 4 | 15,887 | 21,126 |
| Placements with non-resident banks | 5 | 3,054,765 | 2,913,038 |
| Government securities | 6 | 152,000 | 148,123 |
| Loans to and placements with resident banks | 7 | 587,880 | 638,024 |
| Loans to Government | 8 | 345,264 | 345,264 |
| Claims on IMF | 9 | 969,570 | 887,959 |
| Accrued interest receivable and other assets | 10 | 15,887 | 5,838 |
| Premises, equipment, and intangible assets | 11 | 129,620 | 127,360 |
| **Total assets** | | **5,276,841** | **5,086,732** |
| **Liabilities** | | | |
| Money in circulation | 12 | 1,424,181 | 1,195,579 |
| Accounts of commercial banks | 13 | 345,524 | 161,477 |
| Government accounts | 14 | 568,334 | 772,480 |
| Other deposit accounts | 15 | 21,229 | 75,563 |
| Liabilities to IMF | 16 | 2,476,566 | 2,639,953 |
| Funds borrowed from other international financial institutions | 17 | 9,053 | - |
| Accrued interest payable and other liabilities | 18 | 10,006 | 10,286 |
| **Total liabilities** | | **4,854,893** | **4,855,338** |
| **Charter fund and reserves** | | | |
| Charter fund | 19 | 26,685 | 24,385 |
| Reserve funds | 20 | 395,263 | 207,009 |
| **Total funds employed** | **14** | **421,948** | **231,394** |
| **Total liabilities and funds employed** | **15** | **5,276,841** | **5,086,732** |

## 31 Dekabr tarixində bitən il üzrə mənfəət və zərər hesabatları

*(Məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir)*

| | Qeyd | 2000 | 1999 |
|---|---|---|---|
| | | | |
| Faiz gəlirləri | 20 | 215,814 | 154,203 |
| Faiz xərcləri | 21 | (62,830) | (42,382) |
| **Xalis faiz gəlirləri** | | **152,984** | **111,821** |
| Xarici valyuta əməliyyatları üzrə gəlirlər - xalis | 22 | 118,793 | 88,619 |
| Haqq və komissiya gəlirləri - xalis | 23 | 12,394 | 10,806 |
| Digər gəlirlər | | 748 | 1,902 |
| **Əməliyyat gəlirləri** | | **284,919** | **213,148** |
| İşçilərə sərf olunan xərclər | | (11,266) | (9,532) |
| Ümumi, inzibati və digər əməliyyat xərcləri | 24 | (17,619) | (43,483) |
| **Ehtimal olunan zərər üçün ehtiyatlar yaradılmasına ayırmalardan əvvəlki mənfəət** | | **256,034** | **160,133** |
| Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatların artması | 7 | (27,217) | (28,860) |
| **İl üzrə bölüşdürülməmiş mənfəət** | | **228,817** | **131,273** |

## Statements of income for the years ended 31 December

*(Amounts are expressed in millions of Azerbaijanian Manat)*

| | Note | 2000 | 1999 |
|---|---|---|---|
| Interest income | 20 | 215,814 | 154,203 |
| Interest expense | 21 | (62,830) | (42,382) |
| **Net interest income** | | **152,984** | **111,821** |
| Net foreign exchange gains | 22 | 118,793 | 88,619 |
| Fee and commission income – net | 23 | 12,394 | 10,806 |
| Other income | | 748 | 1,902 |
| **Operating income** | | **284,919** | **213,148** |
| Staff costs | | (11,266) | (9,532) |
| General, administrative and other operating expenses | 24 | (17,619) | (43,483) |
| **Profit before provision** | | **256,034** | **160,133** |
| Increase in provision for impairment on loans to and placements with resident banks | 7 | (27,217) | (28,860) |
| **Profit for the year before distribution** | | **228,817** | **131,273** |

## 31 Dekabr tarixində bitən il üzrə nağd vəsaitlərin hərəkəti haqqında hesabat

*(Məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir)*

| | 2000 | 1999 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindəki nağd vəsaitlərin hərəkəti:** | | |
| İl üzrə mənfəət | 228,817 | 131,273 |
| Düzəlişlər: | | |
| Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar | 27,217 | 28,860 |
| Faiz gəlirləri | (215,814) | (154,203) |
| Faiz xərcləri | 62,830 | 42,382 |
| BVF qarşısında öhdəliklərin yenidən qiymətləndirilməsi üzrə gəlirlər | (90,411) | (41,902) |
| Köhnəlmə xərcləri | 2,491 | 12,727 |
| **Əməliyyat fəaliyyətində artma/azalma:** | **15,130** | **19,137** |
| **Əməliyyat fəaliyyətində artma/azalma:** | | |
| BVF-də yerləşdirilmiş vəsaitlərdə xalis azalma/(artma) | 19,662 | (30,490) |
| Rezident banklara verilmiş kreditlərdə və yerləşdirilmiş vəsaitlərdə xalis artma | (2,205) | (178,549) |
| Dövlətin qiymətli kağızlarında xalis artma | (12,000) | - |
| Digər aktivlərdə xalis (artma)/azalma | (10,219) | 208 |
| Kommersiya banklarının hesablarında xalis artma/(azalma) | 184,047 | (10,473) |
| Hökumət hesablarında xalis (azalma)/artma | (204,146) | 358,694 |
| Digər müştəri hesablarında xalis (azalma)/artma | (54,334) | 137,628 |
| Digər passivlərdə xalis azalma | (647) | (7,938) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis nağd vəsaitlər** | **(64,712)** | **288,217** |
| **İnvestisiya fəaliyyətindəki nağd vəsaitlərin hərəkəti:** | | |
| Əsas vəsaitlərin alınması | (4,751) | (363) |
| İnvestisiya fəaliyyətində istifadə edilən xalis nağd vəsaitlər | (4,751) | (363) |
| Maliyyə fəaliyyətindəki nağd vəsaitlərin hərəkəti: | | |
| Maliyyə Nazirliyinə köçürmələr | (38,263) | (50,795) |
| Dövriyyəyə buraxılmış nağd pul | 228,602 | 221,575 |
| BVF qarşısında öhdəliklərdə xalis (azalma)/artma | (174,249) | 576,749 |
| Digər beynəlxalq maliyyə institutları qarşısında öhdəliklərdə xalis artma | 9,053 | - |
| Alınmış faizlər | 215,984 | 157,944 |
| Ödənilmiş faizlər | (62,463) | (38,605) |
| **Maliyyə fəaliyyətindən əldə edilən xalis nağd vəsaitlər** | **178,664** | **866,868** |
| Nağd pul və nağd pulun ekvivalentlərində xalis artma | 109,201 | 1,154,722 |
| İlin əvvəlinə nağd pul və nağd pulun ekvivalentləri (Qeyd 4) | 3,266,787 | 2,112,065 |
| **İlin sonuna nağd pul və nağd pulun ekvivalentləri (Qeyd 4)** | **3,375,988** | **3,266,787** |

## Statement of cash flows for the years ended 31 December

*(Amounts are expressed in millions of Azerbaijanian Manat)*

| | 2000 | 1999 |
|---|---|---|
| **Cash flows from operating activities:** | | |
| Profit for the year | 228,817 | 131,273 |
| Adjustments for: | | |
| Provision for loans to and placements with resident banks | 27,217 | 28,860 |
| Interest income | (215,814) | (154,203) |
| Interest expense | 62,830 | 42,382 |
| Foreign exchange gain on liabilities to IMF | (90,411) | (41,902) |
| Depreciation | 2,491 | 12,727 |
| **Operating profit before changes in operating assets and liabilities** | **15,130** | **19,137** |
| **Increase/decrease in operating activities** | | |
| Net decrease/(increase) in claims on IMF | 19,662 | (30,490) |
| Net increase in loans to and placements with resident banks | (2,205) | (178,549) |
| Net increase in Government Securities | (12,000) | - |
| Net (increase)/decrease in other assets | (10,219) | 208 |
| Net increase/(decrease) in accounts of commercial banks | 184,047 | (10,473) |
| Net (decrease)/increase in government accounts | (204,146) | 358,694 |
| Net (decrease)/increase in other deposit accounts | (54,334) | 137,628 |
| Net decrease in other liabilities | (647) | (7,938) |
| **Net cash (used in)/provided by operating activities** | **(64,712)** | **288,217** |
| **Cash flows from investing activities:** | | |
| Purchases of premises and equipment | (4,751) | (363) |
| Net cash used in investing activities | (4,751) | (363) |
| Cash flows from financing activities: | | |
| Transfer to Ministry of Finance | (38,263) | (50,795) |
| Issue of money to circulation | 228,602 | 221,575 |
| Net (decrease)/increase in liabilities to IMF | (174,249) | 576,749 |
| Net increase in funds borrowed from other international financial institutions | 9,053 | - |
| Interest received | 215,984 | 157,944 |
| Interest paid | (62,463) | (38,605) |
| **Net cash provided by financing activities** | **178,664** | **866,868** |
| Net increase in cash and cash equivalents | 109,201 | 1,154,722 |
| Cash and cash equivalents at beginning of year (Note 4) | 3,266,787 | 2,112,065 |
| **Cash and cash equivalents at end of year (Note 4)** | **3,375,988** | **3,266,787** |

## 31 Dekabr tarixində bitən il üzrə kapitalda dəyişiklikər haqqında hesabat

*(Məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilir)*

| | Nizamnamə kapitalı | Ehtiyatlar | BVF qarşısında öhdəliklərin yenidən qiymətləndirilməsi üzrə gəlirlər | Nizamnamə kapitalı və ehtiyatların cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 1999-cu il tarixinə qalıq** | **22,785** | **108,811** | **19,320** | **150,916** |
| Nizamnamə kapitalının xalis mənfəət hesabına artırılması | 1,600 | (1,600) | - | - |
| Maliyyə Nazirliyinə köçürmələr | - | (50,795) | - | (50,795) |
| İl üzrə xalis mənfəət | - | 89,371 | 41,902 | 131,273 |
| **31 dekabr 1999-cu il tarixinə qalıq** | **24,385** | **145,787** | **61,222** | **231,394** |
| Nizamnamə kapitalının xalis mənfəət hesabına artırılması | 2,300 | (2,300) | - | - |
| Maliyyə Nazirliyinə köçürmələr | - | (38,263) | - | (38,263) |
| İl üzrə xalis mənfəət | - | 138,406 | 90,411 | 228,817 |
| **31 dekabr 2000-ci il tarixinə qalıq** | **26,685** | **243,630** | **151,633** | **421,948** |

## Maliyyə Hesabatlarına Qeydlər
## (milyon Azərbaycan manatı ilə)

### Qeyd 1: Əsas fəaliyyət

Azərbaycan Respublikasının Milli Bankı ("Bank") 10 iyun 1996-cı il tarixli «Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanuna» («Qanun») əsasən fəaliyyət göstərir. Qanuna əsasən Bankın əsas funksiyaları aşağıdakılardan ibarətdir:

• Pul-kredit və valyuta münasibətləri sahəsində dövlət siyasətinin yeridilməsi;

• Azərbaycan Respublikasında bank sisteminin inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün zəruri tədbirlərin görülməsi;

• Hesablaşmaların aparılması və ödəmə sisiteminin sabit işləməsi üçün şəraitin yaradılması.

Bank öz fəaliyyətini Bakıda yerləşən baş idarə və Azərbaycanın iri şəhərlərində yerləşən 11 ərazi idarələri vasitəsilə həyata keçirir.

Bank Beynəlxalq Valyuta Fondu («BVF») və digər beynəlxalq maliyyə institutları ilə əməliyyatlarda Azərbaycan Hökumətini təmsil edir.

**Statement of changes in funds employed**
**for the years ended 31 December**

*(Amounts are expressed in millions of Azerbaijanian Manat)*

| | Charter fund | Reserve funds | Income from revaluation of liabilities to IMF | Total charter fund and reserves |
|---|---|---|---|---|
| **Balance at 1 January 1999** | **22,785** | **108,811** | **19,320** | **150,916** |
| Capitalization of profit | 1,600 | (1,600) | - | - |
| Transfer to Ministry of Finance | - | (50,795) | - | (50,795) |
| Net profit for the year | - | 89,371 | 41,902 | 131,273 |
| **Balance at 31 December 1999** | **24,385** | **145,787** | **61,222** | **231,394** |
| Capitalization of profitpribıli | 2,300 | (2,300) | - | - |
| Transfer to Ministry of Finance | - | (38,263) | - | (38,263) |
| Net profit for the year | - | 138,406 | 90,411 | 228,817 |
| **Balance at 31 December 2000** | **26,685** | **243,630** | **151,633** | **421,948** |

## Notes to the Financial Statements
## (in millions of Azerbaijanian Manat)

### Note 1: Principal activities

The National Bank of the Azerbaijan Republic (the "Bank") acts in accordance with the "Law on the National Bank of the Azerbaijan Republic", dated 10 June 1996 ("The Law"). This Law sets out the principal functions of the Bank as follows:

- Implementation of the government policy in monetary and currency exchange spheres;
- Realization of measures required for development and strengthening of the banking sector in Azerbaijan; and
- Establishment of conditions for effective settlements and stable operation of the payment system.

The Bank carries out its activities from its Head Office in Baku and through its 11 regional branches established in key cities in Azerbaijan.

The Bank represents the Government of Azerbaijan in its dealings with International Monetary Fund ("IMF") and other international financial institutions.

## Qeyd 2: Hesabatların əsası və təqdimat forması

Bank maliyyə hesabatlarını Azərbaycan mühasibat standartlarına əsasən tərtib edir. Həmin maliyyə hesabatlarını Beynəlxalq Mühasibat Standartları Komitəsinin qəbul etdiyi Beynəlxalq Mühasibat Standartlarına ("BMS") uyğunlaşdırmaq məqsədilə müvafiq düzəlişlər edilmişdir. Əlavə olaraq, maliyyə hesabatlarının tərtib edilməsində 3 saylı Qeyddə açıqlanan mühasibat prinsipləri tətbiq edilmişdir. Maliyyə hesabatları Azərbaycan Respublikasının milli valyutası olan manatla ("manat") təqdim edilir. Son iki ildə Azərbaycanda inflasiya dərəcəsi 3%-dən az olduğu üçün maliyyə hesabatlarına inflasiyanın təsiri əhəmiyyətli olmayıb. Keçən ilin bəzi məbləğlərini cari ilin maliyyə hesabatlarının təqdimatı ilə uyğunlaşdırmaq məqsədilə dəyişdirilmişdir.

Bankın bölüşdürülməmiş mənfəətinin və ehtiyatlarının Azərbaycan mühasibat standartlarından Beynəlxalq mühasibat standartlarına keçid cədvəli aşağıda təqdim olunur:

İstisna hallarda mərkəzi bank fəaliyyəti çərçivəsində Bank maliyyə sisteminə etimadın azalmasının qarşısını almaq məqsədilə fövqəladə vəziyyətlərdə maliyyə qurumlarının kreditoru kimi çıxış edə və Azərbaycanda valyuta və maliyyə sabitliyinin saxlanılmasına dair tədbirlər görə bilər. Bununla əlaqədar, bank əməliyyatlarının ayrı-ayrı sahələri yalnız bank sistemindəki mühitin sabit ol-

| | 2000 | | 1999 | |
|---|---|---|---|---|
| | Bölüşdürülməmiş mənfəət | Nizamnamə kapitalı və ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Nizamnamə kapitalı və ehtiyatlar |
| **Azərbaycan mühasibat standartları** | **232,740** | **391,550** | **166,504** | **295,358** |
| Faiz gəlirlərinin hesablanması - xalis | (569) | 3,686 | (3,272) | 5,737 |
| Faiz xərclərinin hesablanması - xalis | (366) | (9,995) | 3,758 | (9,629) |
| Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar | (27,217) | (111,525) | (28,860) | (106,377) |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə əlavə köhnəlmə xərcləri | 5,563 | (2,380) | (4,958) | (7,943) |
| Ehtiyatlar hesabından xərclənmiş məbləğlərin yenidən təsnifləşdirilməsi | (74,795) | - | (59,961) | - |
| Kapitallaşdırılmış xərclər üzrə düzəlişlər - xalis | 380 | (801) | - | (9,311) |
| Xarici valyutanın yenidənqiymətləndirilməsi üzrə düzəlişlər | 90,407 | 151,630 | 57,387 | 64,917 |
| Digər düzəlişlər | 2,674 | (217) | 675 | (1,358) |
| **Beynəlxalq Mühasibat Standartları** | **228,817** | **421,948** | **131,273** | **231,394** |

duğu vaxt açıqlana bilər. Bu səbəbdən, Bankın İdarə Heyətinin fikrincə, Bank bəzi hallarda BMS-ın tələb etdiyi bütün uçot və açıqlama qaydaları ilə uyğunlaşmaya bilər. Göstərilənlərə müvafiq olaraq, belə tədbirlərin maliyyə hesabatlarına təsirinin həmin ilin maliyyə hesabatlarına daxil ediləcəyinə baxmayaraq, maliyyə hesabatları bütün mühüm tədbirləri baş verdiyi il ərzində aydın şəkildə əks etdirməyə bilər. Bankın fikrincə, Bank fəaliyyətinin incəlikləri yalnız ehtiyatlılığa və ya məxfiliyə ehtiyac olmadığı təqdirdə açıqlana bilər.

## Note 2: Basis of preparation and form of presentation

The Bank maintains its accounting records in accordance with The Law. Appropriate adjustments have been made to these accounting records in order to prepare these financial statements in compliance with International Accounting Standards ("IAS") issued by the International Accounting Standards Committee. Accordingly, the accounting policies set out in Note 3 have been adopted. The financial statements are presented in the national currency of the Azerbaijan Republic, the Manat ("AZM"). The annual inflation rates in Azerbaijan during the two years presented have been under 3% and effects of inflation are therefore immaterial. Certain prior year amounts have been reclassified so as to conform to the current year presentation.

The following is a reconciliation of the Bank's profit before distribution and reserves under Azerbaijanian Accounting Rules with profit before distribution and reserves under International Accounting Standards:

In exceptional circumstances, as part of its central banking functions, the Bank may act as lender of last resort to financial institutions in order to prevent a loss of confidence spreading through the financial system as a whole, and undertake actions in order to maintain monetary and financial stability in

| | 2000 | | 1999 | |
|---|---|---|---|---|
| | Profit before distribution | Equity | Profit before distribution | Equity |
| **Azerbaijanian Accounting Rules** | **232,740** | **391,550** | **166,504** | **295,358** |
| Accrual of interest income – net | (569) | 3,686 | (3,272) | 5,737 |
| Accrual of interest expense – net | (366) | (9,995) | 3,758 | (9,629) |
| Provision for impairment on loans to and placements with resident banks | (27,217) | (111,525) | (28,860) | (106,377) |
| Additional depreciation expense on premises, equipment and intangible assets | 5,563 | (2,380) | (4,958) | (7,943) |
| Reclassification of expenses charged directly to reserves | (74,795) | - | (59,961) | - |
| Expenses recorded on balance sheet – net | 380 | (801) | - | (9,311) |
| Foreign exchange difference adjustments | 90,407 | 151,630 | 57,387 | 64,917 |
| Other adjustments | 2,674 | (217) | 675 | (1,358) |
| **International Accounting Standards** | **228,817** | **421,948** | **131,273** | **231,394** |

Azerbaijan. In some cases this may require that the activities of the Bank are disclosed only when conditions have improved. There are, therefore, instances where, in the opinion of the Board of Directors, it is not appropriate for the Bank to comply with the full disclosure rules under IAS. Accordingly, although the financial effects of such actions will be included in the financial statements in the same year, the financial statements may not explicitly identify all significant actions in the year in which

## Qeyd 3: Mühasibat uçotunun mühüm prinsipləri

### *Mühasibat uçotunun əsası*

Yenidən qiymətləndirilmiş əsas vəsaitlər istisna olmaqla, aktiv və passivlər maya dəyəri ilə uçota alınır.

### *Nağd pul və nağd pulun ekvivalentləri*

Nağd vəsaitlərin hərəkəti hesabatındakı nağd pul və nağd pulun ekvivalentlərinə nağd pul, müxbir hesabları, o cümlədən qeyri-rezident və rezident banklarda yerləşdirilmiş overnayt və tələb olunanadək depozitlər, qısamüddətli və ödəmə müddəti üç aydan az olan hökumət istiqraz vərəqələri aiddir.

### *Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər və rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər*

Banklarda yerləşdirilmiş vəsaitlər və banklara verilmiş kreditlər hesabat ilinin sonundakı əsas məbləğlərdən ehtiyatları çıxmaqla qeydə alınır. Banklarda yerləşdirilmiş vəsaitlərə həmçinin əks Repo («reverse repurchase») müqavilələri əsasında alınmış qiymətli kağızlar da aiddir. Kreditlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar Bank rəhbərliyinin kreditlərin və avansların təhlilinə əsaslanır. Ödənilməsi şübhə doğuran məbləğlər üçün məqsədli ehtiyatlar ayrılır. Adi ehtiyatlar potensial şübhə doğuran, lakin maliyyə hesabatları tarixinə xüsusilə təhlil edilməmiş kreditlər üçün ayrılmışdır. Hesabat ilinə aid olan ehtiyatlar mənfəət və zərər hesabatında əks olunur.

Ehtiyat məbləğləri analitik təhlil və araşdırmaların nəticəsində müəyyən edilir. Ehtiyatın müəyyən edilməsi zamanı nəzərə alınan əsas amillər kredit portfelinin artması, tərkibi və keyfiyyəti, vaxtı keçmiş kreditlərin həcmi, mövcud iqtisadi vəziyyət, alınmış təminatların dəyəri və münasibliyidir.

Zərərli kreditlər və avanslar balansdan silinir və məqsədli ehtiyatlar həmin məbləğə azaldılır. Belə kreditlər bütün zəruri hüquqi prosedurlar tamamlandıqda və zərər məbləği müəyyən edildikdə balansdan silinir. Əvvəllər ehtiyatı ayrılmış məbləğlərin ödənilməsi məqsədli ehtiyatların azalması ilə nəticələnir.

### *Dövlətin qiymətli kağızları*

Dövlətin qiymətli kağızlarına faiz dərəcəsi müəyyən edilmiş qiymətli kağızlar və hökumətin istiqraz vərəqələri aiddir. İstiqraz vərəqələri Bank tərəfindən Maliyyə Nazirliyi adından keçirilən auksionda güzəştli qiymətlərlə alınmışdır. Bank istiqrazların yerləşdirilməsi və tədavülü üzrə Maliyyə Nazirliyinin agenti və istiqrazlar üzrə depozitari, ticarət və hesablama sistemi vəzifələrini 2000-ci ilin avqust ayınədək yerinə yetirirdi. Bu tarixdən sonra həmin vəzifələr Bakı Fond birjası-

they occur. However, the major significant actions will be disclosed at such time as the Bank believes that the need for security or confidentiality has ceased.

**Note 3: Significant accounting policies**

***Basis of accounting***

Assets and liabilities are recorded based on their historical cost, except for premises and equipment which are recorded at revalued amounts.

***Cash and cash equivalents***

For the purposes of the cash flow statement, cash and cash equivalents comprise cash on hand, correspondent accounts including overnight deposits and short-term placements with non-resident and resident banks and short-term treasury bills with maturities of three months or less from the date of acquisition.

***Placements with and loans to non-resident and resident banks***

Placements with and loans to non-resident and resident banks are stated at the principal amounts outstanding, net of provisions for bad and doubtful amounts. Also included in placements with banks are securities purchased under agreements to resell ("reverse repos"). Provisions for bad and doubtful amounts are based on the evaluation by management of the collectibility of loans and advances. Specific provisions are made against amounts whose recovery has been identified as doubtful. A general provision is made against potential bad and doubtful amounts which are present in the Bank's portfolio but which have not been specifically identified at the date of the financial statements. The aggregate provisions made during the year are charged against profit for the year in the Statement of Income.

Provision estimates require the exercise of judgment and the use of assumptions. The principal factors considered in determining the size of provisions are the growth, composition and quality of the loan portfolio, the level of overdue loans, current economic conditions and the value and adequacy of collateral.

Loans and advances, which cannot be recovered, are written off and charged against the provision for bad and doubtful debts. Such loans are written off after all necessary legal procedures have been completed and the amount of the loss has been determined. Recoveries of amounts previously provided for are treated as a reduction in the charge for provision for bad and doubtful debts for the year.

na həvalə edilmişdir. İstiqraz vərəqələri güzəşti çıxmaqla maya dəyəri ilə əks edilir. Güzəşt məbləği xəzinə kağızlarının müddətinə uyğun olaraq gəlirlərə aid edilir. Faiz dərəcəsi müəyyən edilmiş qiymətli kağızlar üzrə faizlər hesablama metoduna uyğun olaraq maliyyə hesabatlarında əks olunur.

### *Hökumətə verilmiş kreditlər*

Hökumətə verilmiş kreditlər əsas məbləğlərin hesabat ilinin sonundakı qalıqları ilə qeydə alınır. Bank hesab edir ki, Hökumətə kredit vermə siyasəti və Hökumətin öhdəliklərindən irəli gələrək, kreditlərin əsas məbləğləri tam şəkildə geri qaytarılacaq və bu səbəbdən kreditlərin əsas məbləğlərinin qalıqları üçün heç bir ehtiyat nəzərdə tutulmamışdır.

### *BVF-da yerləşdirilmiş vəsaitlər və BVF qarşısında öhdəliklər*

Bank BVF ilə əlaqələrdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyini təmsil edir. BVF ilə aparılan əməliyyatlar və qalıqlar (həmçinin BVF-in valyutası olan xüsusi borcalma hüquqlarındakı (XBH) əməliyyatlar) Bankın maliyyə hesabatlarında əks olunduğuna baxmayaraq, həmin məbləğlərin ödənilməsinə və hesablaşmalara görə öhdəliyi yalnız Maliyyə Nazirliyi daşıyır.

Bankın aktiv qalıqlarına Kvota qoyuluşları və XBH hesabları daxildir. Öhdəliklərə isə Maliyyə Nazirliyi tərəfindən BVF-dən alınmış kreditlərdən və Azərbaycan Hökuməti adından Maliyyə Nazirliyinin Kvotasının ödənilməsi ilə əlaqədar buraxdığı qiymətli kağızlar daxildir.

Aşağıda açıqlanan vəziyyəti daha düzgün əks etdirmək məqsədilə BVF-in Maliyyə Nazirliyinə verdiyi kreditlər üzrə faiz xərcləri Bankın mənfəət və zərər hesabatında əks olunur. Bank kreditlər üzrə faizləri Maliyyə Nazirliyi əvəzindən ödəyir və ödənilən məbləğlər faiz xərcləri kimi göstərilir. BVF məbləğləri 30 aprel tarixinə BVF-in göstərişlərinə uyğun olaraq XBH-nın manata qarşı rəsmi mübadilə məzənnəsinə əsasən ildə bir dəfə yenidən qiymətləndirilir. XBH ilə ifadə edilmiş kredit qalıqlarından yaranan məzənnə fərqləri mənfəət və zərər hesabatlarında xarici valyuta əməliyyatları üzrə reallaşdırılmamış gəlirlər kimi qeydə alınır. Həmin gəlirlər kapitalda dəyişikliklər hesabatında yenidənqiymətləndirmə ehtiyatı kimi göstərilmişdir. Bankın cari il üzrə mənfəətindən Maliyyə Nazirliyinə ayrılan hissə yuxarıda göstərilən məbləğləri nəzərə almaqla maliyyə hesabatlarında qeydə alınır.

### *Əsas vəsaitlər və qeyri-maddi aktivlər*

Əsas vəsaitlər yığılmış köhnəlməni çıxmaqla maya dəyəri ilə və ya yenidən qiymətləndirilmiş məbləğlərlə əks olunur.

Son dəfə əsas vəsaitlərin yenidən qiymətləndirilməsi 30 sentyabr 1996-cı il tarixində edilmişdir. Yenidən qiymətləndirmədən yaranan fərq Bankın ehtiyatlarına aid edilmişdir. Yenidən qiymətləndirmə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən

### Government securities

Government securities are Ministry of Finance Treasury bills and fixed interest securities. The Treasury bills have been purchased at a discount at auctions conducted by the Bank on behalf of the Ministry of Finance. The Bank acted as agent and depository of the Ministry of Finance in placement and circulation of Treasury bills until August 2000. Those functions were transferred to the Baku Stock Exchange after that date. The discount Treasury bills are stated at cost adjusted for accretion of discount. Accretion of discount is credited to income over the term of the Treasury bills. Interest on fixed interest securities is recognized on an accrual basis.

### Loans to Government

Loans to Government are stated at the principal amounts outstanding. The Bank believes, in view of the nature of the lending and the commitments of the Government, that the principal amounts are fully recoverable and, as such, no provisions are raised against these loans.

### Claims on and liabilities to IMF

The Bank represents the Ministry of Finance of the Republic of Azerbaijan ("MinFin") in all relationships with the IMF. Accordingly, the related account balances and transactions with IMF, (including operations in Special Drawing rights (SDR), the currency of the IMF) are reflected in the financial statements of Bank, although the ultimate liability for settlement and reimbursement of the amounts rests with the Ministry of Finance.

The Bank's asset balances include Quota contributions and holdings of SDR. The liability balances consist of loans received by MinFin from IMF, together with securities issued by MinFin on behalf of the Government of Republic of Azerbaijan to IMF, in settlement of Quota amounts.

In order to more accurately reflect the underlying situation, interest charges and credits in respect of the funds provided by IMF to MinFin are included in the Bank's Statement of Income. Interest on the credits is paid by the Bank on behalf of MinFin and is shown as interest expense. IMF amounts are revalued once a year, on advice of IMF, according to the official exchange rate of SDR to AZM at 30 April. Unrealised revaluation differences arising from revaluation of SDR balances into Manat are included in the Statement of Income as gains and losses from foreign currency translation. These amounts are shown separately in the Statement of Changes in Funds Employed as a revaluation reserve. Amounts to be transferred to MinFin in respect of the profit of the Bank for the current year are, therefore, calculated after giving effect to these items in the Bank's financial statements.

### Premises, equipment, and intangible assets

Premises and equipment are stated at cost or revalued amounts, less accumulated depreciation.

müəyyən edilmiş əmsallar əsasında aktivlərin xalis balans dəyərini bazar dəyərinə uyğunlaşdırmaq üçün aparılıb. Əmsallar əsas vəsaitlərin növünə və alınma gününə görə fərqlənir.

### *Köhnəlmə*

Köhnəlmə «streytlayn» prinsipinə uyğun olaraq əsas vəsaitlərin və qeyri-maddi aktivlərin təxmin edilən faydalı həyatına aşağıdakı nisbətlərlə tətbiq edilmişdir:

| | |
|---|---|
| *Binalar ildə* | *2%;* |
| *Mebel və avadanlıq* | *ildə 12.5-20%;* |
| *Kompüter və rabitə avadanlığı* | *ildə 25%;* |
| *Nəqliyyat vasitələri* | *ildə 10%;* |
| *Qeyri-maddi aktivlər* | *ildə 10%.* |

### *Dövriyyədə olan nağd pul*

Dövriyyədə olan nağd pulun qalığı 1992-ci ildə milli valyutanın tətbiqi tarixindən başlayaraq Bank tərəfindən buraxılmış Azərbaycan manatı kütləsini təşkil edir. Banknotların və sikkələrin hazırlanması və nəqli üzrə xərclər çəkildiyi zaman qeydə alınır. Bankda saxlanılan ehtiyat fondu dövriyyəyə buraxılmış nağd pulun qalığı ilə qarşılıqlı şəkildə əvəzləşdirilmişdir.

### *Qarşılıqlı əvəzləşdirmə*

Aktiv və passivlər qarşılıqlı şəkildə əvəzləşdirilir və xalis məbləğ o halda balans hesabatında əks edilir ki, müəyyən edilmiş məbləğləri qarşılıqlı şəkildə əvəzləşdirmək hüququ qanuni olaraq qüvvəyə minsin və yaxud xalis əsasla hesablaşma aparmaq və ya aktivləri sataraq eyni zamanda öhdəlikləri nizamlamaq niyyəti mövcud olsun.

### *Faiz gəlirləri və xərcləri*

Faiz gəlirləri və xərcləri mənfəət və zərər hesabatında hesablama prinsipi ilə əks olunub. Faiz gəlirləri 30 gündən artıq gecikdirilərsə, onun hesablanması dayandırılır və alınana qədər faiz gəlirindən çıxarılır. Faiz gəlirlərinə investisiya məqsədləri üçün saxlanılan qısamüddətli kupon xəzinə kağızları və Repo müqavilələri üzrə güzəşt də daxildir.

A statutory revaluation of premises and equipment was last made on 30 September 1996, in accordance with the statutory regulation. The resulting revaluation surplus has been included in the reserves. The revaluation was performed on the basis of indices, which are provided by the Cabinet of Ministers of the Azerbaijan Republic and are designed to restate the net book value of the asset to a level which more closely reflects market value at the time. The indices vary according to asset type and acquisition date.

### *Depreciation*

Depreciation is applied on a straight-line basis over the estimated useful lives of the assets using the following rates:

| | |
|---|---|
| *Premises* | *2% per annum;* |
| *Furniture and equipment* | *12.5-20% per annum;* |
| *Computer and communication equipment* | *25% per annum;* |
| *Motor vehicles* | *10% per annum;* |
| *Intangible assets* | *10% per annum.* |

### *Money issued in circulation*

The balance for money issued in circulation comprises Azerbaijani Manat banknotes issued by the Bank since the introduction of the national currency in 1992. Expenses relating to production and transportation of notes and coins are expensed as incurred. Cash in reserves held in the Bank is offset against the balance of the amount of money issued into circulation.

### *Offsetting*

Assets and liabilities are offset and the net amount reported in the balance sheet when there is a legally enforceable right to set off the recognised amounts and there is an intention to either settle on a net basis, or to realise the asset and settle the liability simultaneously.

### *Interest income and expense*

Interest income and expense are recognized in the statement of income on an accrual basis. Interest income is suspended when overdue by more than 30 days and is excluded from interest income until received. Interest income includes the discount on short-term zero coupon treasury bills held for investment purposes and reverse repurchase agreements.

### *Mənfəət vergisi*

Bankın fəaliyyətindən yaranan mənfəət vergiyə cəlb edilmir.

### *Xarici valyutanın yenidən qiymətləndirilməsi*

Xarici valyuta ilə əməliyyatlar müvafiq əməliyyat günü qüvvədə olan AMB-nin rəsmi məzənnəsi ilə qeydə alınır. Xarici valyuta əməliyyatlarının aparılmasından yaranan fərq həmin gün qüvvədə olan Bankın rəsmi məzənnəsindən istifadə etməklə mənfəət və zərər hesabatına daxil edilir.

Xarici valyuta ilə ifadə edilən monetar aktiv və passivlər hesabat günü qüvvədə olan rəsmi xarici valyuta məzənnəsi ilə Azərbaycan manatına çevrilir. Aktivlərin və passivlərin mübadiləsindən yaranan xarici valyuta ilə reallaşdırılmış və reallaşdırılmamış gəlirlər və xərclər mənfəət və zərər hesabatında xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər və xərclər kimi qeydə alınır. 31 dekabr 2000-ci il tarixinə xarici valyuta qalıqlarının mübadiləsi üçün istifadə edilən əsas mübadilə məzənnələri aşağıdakı kimi olmuşdur:

1 XBH = AZM 5,955.96 (1999: 1 XBH = AZM 6,001.29)
1 ABŞ dolları = AZM 4,565 (1999: 1 ABŞ dolları = AZM 4,373).

### *Dövlət Sosial Müdafiə və Məşğulluq Fondları üzrə xərclər*

Bank öz işçiləri adından Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə və Məşğulluq Fondlarına ödənişlər edir. Bankın ödənişləri işçilərin vergilərdən əvvəlki maaşlarının 37%-ni təşkil edir və Mənfəət və Zərər Hesabatında işçilərə sərf olunan xərclər kimi əks olunur.

### *Ehtiyatlar*

Bankın ehtiyatlarına köçürmələr Qanuna uyğun olaraq aparılır.

## Qeyd 4: Nağd pul

*Nağd pula Bankın xəzinələrində saxlanılan nağd pul aiddir.*

Nağd vəsaitlərin hərəkəti haqqında hesabatın təqdimatı məqsədi ilə nağd pul və nağd pulun ekvivalentləri aşağıda açıqlanır:

***Income taxes***

Profits generated by the Bank are not subject to tax.

***Foreign currency translation***

Transactions denominated in foreign currency are recorded at the official exchange rate of Bank prevailing at the transaction date. Exchange differences resulting from the settlement of transactions denominated in foreign currency are included in the statement of income using the official exchange rate of Bank prevailing on the transaction date.

Monetary assets and liabilities denominated in foreign currency are translated into AZM at the official exchange rates at the balance sheet date. Unrealized and realized foreign currency gains and losses arising from the translation of assets and liabilities are reflected in the statement of income as foreign exchange gains or losses. As at 31 December 2000, the principal rates of exchange used for translating foreign currency balances were:

SDR 1 = AZM 5,955.96 (1999: SDR 1 = AZM 6,001.29)
USD 1 = AZM 4,565 (1999: USD 1 = AZM 4,373).

***Pension costs***

The Bank contributes to the Azerbaijan Republic state social insurance and employment funds for its employees. The Bank's contribution which amounts to 37% of employees' gross salaries is expensed as incurred and is shown in staff costs in the Statement of Income.

***Reserve funds***

The Bank transfers amounts to reserve funds in accordance with the Law.

**Note 4: Cash on hand**

*Cash on hand comprises petty cash held in the vaults of the Bank.*

Cash and cash equivalents for the purposes of the statement of cash flows are as follows:

| | 2000 | 1999 |
|---|---|---|
| Nağd pul | 21,855 | 21,126 |
| Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər | 3,054,765 | 2,913,038 |
| Qısamüddətli istiqraz vərəqələri | - | 8,123 |
| Rezident banklarda yerləşdirilmiş vəsaitlər | 299,368 | 324,500 |
| **Nağd pul və nağd pulun ekvivalentlərinin cəmi** | **3,375,988** | **3,266,787** |

## Qeyd 5: Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər

| | 2000 | 1999 |
|---|---|---|
| Qeyri-rezident banklarda yerləşdirilmiş qısamüddətli depozitlər | 978,164 | 903,539 |
| Qeyri-rezident banklarda yerləşdirilmiş müxbir hesablar | 2,076,601 | 2,009,499 |
| **Xarici banklarda yerləşdirilmiş vəsaitlərin cəmi** | **3,054,765** | **2,913,038** |

Bütün xarici banklar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrinin rezidentləridir və Moody's və Standard&Poor's reytinq agentliklərinin müəyyən etdiyi AA reytinqindən az olmayan reytinqlərə malikdirlər. Xarici valyutada olan depozitlərin ödəmə müddətləri 2 həftədən 2 ayadək-dir və illik faiz dərəcəsi 6.04%-dən 6.80%-ə qədərdir.

## Qeyd 6: Dövlətin qiymətli kağızları

| | 2000 | 1999 |
|---|---|---|
| Faiz dərəcəsi müəyyən edilmiş qiymətli kağızlar | 152,000 | 140,000 |
| Dövlət qısamüddətli xəzinə kağızları | - | 8,123 |
| **Dövlətin qiymətli kağızlarının cəmi Dövlətin qiymətli kağızlarının cəmi** | **152,000** | **148,123** |

31 dekabr 2000-ci il tarixinə faiz dərəcəsi müəyyən edilmiş qiymətli kağızlara Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılmış uzunmüddətli kupon qiymətli kağızları aiddir. Həmin kağızlara 7-13% dərəcəsində faiz hesablanır (1999: 7-13%) və onlar ödəmə müddəti tamamlanana qədər saxlanılır.

| | 2000 | 1999 |
|---|---|---|
| Cash on hand | 21,855 | 21,126 |
| Placements with non-resident banks | 3,054,765 | 2,913,038 |
| Government securities – Treasury bills | - | 8,123 |
| Placements with resident banks | 299,368 | 324,500 |
| **Total cash and cash equivalents** | **3,375,988** | **3,266,787** |

## Note 5: Placements with non-resident banks

| | 2000 | 1999 |
|---|---|---|
| Short-term time deposits with non-resident banks | 978,164 | 903,539 |
| Correspondent accounts with non-resident banks | 2,076,601 | 2,009,499 |
| **Total placements with non-resident banks** | **3,054,765** | **2,913,038** |

All foreign banks are resident in OECD countries and carry the ratings not less than the AA rating as defined by Moody's and Standard&Poor's rating agencies. Deposits have a maturity of 2 weeks to 2 months and bear annual interest rates ranging from 6.04 % to 6.80 %.

## Note 6: Government securities

| | 2000 | 1999 |
|---|---|---|
| Fixed interest securities | 152,000 | 140,000 |
| Treasury bills | - | 8,123 |
| **Total government securities** | **152,000** | **148,123** |

Fixed interest securities at 31 December 2000 represent long term coupon securities issued by the Ministry of Finance of the Azerbaijan Republic, bearing interest from 7% to 13% (1999: 7% to 13%) and held until maturity.

## Qeyd 7: Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər

| | 2000 | 1999 |
|---|---|---|
| Milli valyuta ilə verilmiş kreditlər və avanslar<br>- Dövlət banklarına verilmiş kreditlər | 274,000 | 289,000 |
| - Dövlət və özəl banklara açılmış overdraft xəttləri | 28,281 | 30,482 |
| - Dövlət və özəl banklara açılmış overdraft xəttləri | 97,741 | 100,420 |
| -Xarici valyuta ilə verilmiş kreditlər və avanslar | 400,022 | 419,902 |
| - Xarici valyutada yerləşdirilmiş vəsaitlər | 299,383 | 324,499 |
| **Cəmi** | **699,405** | **744,401** |
| Çıxaq: Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar | (111,525) | (106,377) |
| **Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlərin cəmi - xalis** | **587,880** | **638,024** |

Manatla ifadə olunan digər kreditlərin ödəmə müddəti 1-6 aydır və illik faiz dərəcələri 10%-dən 15%-ə qədərdir.

Xarici valyutada qısamüddətli vəsaitlər yerli bankda yerləşdirilmişdir.

Ehtimal olunan zərər üçün ehtiyatların hərəkəti aşağıda göstərilib:

| | 2000 | 1999 |
|---|---|---|
| 1 yanvar tarixinə rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar | 106,377 | 77,517 |
| İl ərzində ehtiyatın artması | 27,217 | 28,860 |
| İl ərzində silinmiş zərərli kreditlər | (22,069) | - |
| **31 dekabr tarixinə rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar** | **111,525** | **106,377** |

## Qeyd 8: Hökumətə verilmiş kreditlər

| | 2000 | 1999 |
|---|---|---|
| Azərbaycan Respublikası büdcəsinin maliyyələşdirilməsi məqsədilə verilmiş kreditlər | | |
| - 1996 | 11,914 | 11,914 |
| - 1995 | 99,237 | 99,237 |
| - 1994 | 234,113 | 234,113 |
| **Hökumətə verilmiş kreditlərin cəmi** | **345,264** | **345,264** |

## Note 7: Loans to and placements with resident banks

| | 2000 | 1999 |
|---|---|---|
| Loans and advances in national currency<br>- Loans to state-owned banks | 274,000 | 289,000 |
| - Overdraft loans to state and private banks | 28,281 | 30,482 |
| - Other loans to private banks | 97,741 | 100,420 |
| Loans and advances in foreign currency | 400,022 | 419,902 |
| - Short-term placements in foreign currency | 299,383 | 324,499 |
| **Total** | 699,405 | 744,401 |
| Less: Provision for doubtful debts | (111,525) | (106,377) |
| **Total loans to and placements with resident banks – net** | **587,880** | **638,024** |

Other loans denominated in Manat have a maturity of 1-6 months and bear interest at annual rates of between 10% and 15%.

Short-term placements in foreign currency represent amounts advanced to a resident bank.

The movement in the provision for bad and doubtful loans is as follows:

| | 2000 | 1999 |
|---|---|---|
| Provision for bad and doubtful loans at 1 January | 106,377 | 77,517 |
| Charge against profit in the year | 27,217 | 28,860 |
| Loans written off during the year as uncollectible | (22,069) | - |
| **Provision for bad and doubtful loans at 31 December** | **111,525** | **106,377** |

## Note 8: Loans to Government

| | 2000 | 1999 |
|---|---|---|
| Loans for financing of the budget of the Azerbaijan Republic | | |
| - 1996 | 11,914 | 11,914 |
| - 1995 | 99,237 | 99,237 |
| - 1994 | 234,113 | 234,113 |
| **Total loans to Goverment** | **345,264** | **345,264** |

1 yanvar 1998-ci il tarixindən Azərbaycan Hökumətinə verilmiş kreditlər üzrə faiz hesablanmır və təsbit ödəmə cədvəli mövcud deyildir.

## Qeyd 9: BVF-də yerləşdirilmiş vəsaitlər

| | 2000 | 1999 |
|---|---|---|
| Kvota | 939,388 | 857,041 |
| XBH-da vəsaitlər | 30,182 | 30,918 |
| **BVF-də yerləşdirilmiş vəsaitlərin cəmi** | **969,570)** | **887,959** |

Beynəlxalq Valyuta Fondunun 160.9 milyon XBH olan Kvotası Azərbaycan Respublikasının üzvlük haqqını ifadə edir və bu məbləğ üzrə faiz hesablanmır. Həmin məbləğin ödənilməsi üçün Azərbaycan Hökuməti tərəfindən buraxılmış və Bank tərəfindən BVF-in xeyrinə saxlanılan qiymətli kağızlar passivlərdə göstərilir (Qeyd 16).

## Qeyd 10: Hesablanmış alınacaq faizlər və digər aktivlər

| | 2000 | 1999 |
|---|---|---|
| Qeyri-maddi aktivlərin alınması üçün əvvəlcədən ödəmə | 9,053 | - |
| Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər üzrə hesablanmış alınacaq faizlər | 3,310 | 11,914 |
| Rezident banklara verilmiş kreditlər üzrə hesablanmış alınacaq faizlər | 1,708 | - |
| BVF-də yerləşdirilmiş XBH hesabı üzrə hesablanmış alınacaq faizlər | 151 | 103 |
| Dövlətin qiymətli kağızları üzrə hesablanmış alınacaq faizlər | - | 2,969 |
| Digər aktivlər | 1,665 | 499 |
| **Hesablanmış alınacaq faizlərin və digər aktivlərin cəmi** | **15,887** | **5,838** |

Loans to Government of Azerbaijan are non-interest bearing since 1 January 1998, with no fixed repayment schedule.

## Note 9: Claims on IMF

| | 2000 | 1999 |
|---|---|---|
| Quota | 939,388 | 857,041 |
| SDR holdings | 30,182 | 30,918 |
| **Total claims on IMF** | **969,570)** | **887,959** |

The IMF Quota, in the amount of SDR 160.9 million, represents the membership subscription of the Republic of Azerbaijan and is non interest-bearing. Securities issued by the Government of Azerbaijan in settlement of this amount and held by the Bank for the benefit of the IMF are shown as liabilities (Note 16).

## Note 10: Accrued interest receivable and other assets

| | 2000 | 1999 |
|---|---|---|
| Prepayment for purchase of intangible assets | 9,053 | - |
| Accrued interest receivable from placements with non-resident banks | 3,310 | 11,914 |
| Accrued interest receivable from loans to and placements with resident banks | 1,708 | - |
| Accrued interest receivable from IMF for SDR holdings | 151 | 103 |
| Accrued interest receivable from government securities | - | 2,969 |
| Other assets | 1,665 | 499 |
| **Total accrued interest receivable and other assets** | **15,887** | **5,838** |

## Qeyd 11: Əsas vəsaitlər və qeyri-maddi aktivlər

| | 2000 | 1999 |
|---|---|---|
| Binalar | 81,534 | 80,937 |
| Mebel və avadanlıq | 61,433 | 60,746 |
| Kompüter və rabitə avadanlığı | 8,327 | 5,674 |
| Nəqliyyat vasitələri | 5,713 | 5,228 |
| Qeyri-maddi aktivlər | 230 | 183 |
| | 157,237 | 152,768 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə yığılmış köhnəlmə | (27,617) | (25,408) |
| **Əsas vəsaitlər və qeyri-maddi aktivlər - xalis** | **129,620** | **127,360** |

## Qeyd 12: Dövriyyədə olan nağd pul

Dövriyyədə olan nağd pul 1992-ci ildə milli valyutanın tətbiqi tarixindən başlayaraq dövriyyəyə buraxılmış manat məbləğini təşkil edir. Bankın maliyyə hesabatlarında ehtiyat fondundakı 494,027 milyon manat (1999: 528,200 milyon manat) məbləği həmin qalıqla əvəzləşdirilmişdir.

## Qeyd 13: Kommersiya banklarının hesabları

| | 2000 | 1999 |
|---|---|---|
| Müxbir hesablar | 118,206 | 93,265 |
| Milli valyutada məcburi ehtiyatlar | 3,993 | 3,915 |
| Xarici valyutalarda məcburi ehtiyatlar | 223,325 | 64,297 |
| **Kommersiya banklarının hesablarının cəmi** | **345,524** | **161,477** |

Məcburi ehtiyatlar kommersiya bankları tərəfindən Azərbaycan Respublikasının Milli Bankına köçürülmüş məbləğləri əks etdirir. Həmin məbləğlər bankların passiv hesablarının depozitlərə nisbəti kimi hesablanır. Bu məbləğlər üzrə faiz hesablanmır.

## Note 11: Premises, equipment, and intangible assets

| | 2000 | 1999 |
|---|---|---|
| Building | 81,534 | 80,937 |
| Furniture and equipment | 61,433 | 60,746 |
| Computer and communication equipment | 8,327 | 5,674 |
| Motor vehicles | 5,713 | 5,228 |
| Intangible assets | 230 | 183 |
| | 157,237 | 152,768 |
| Less: accumulated depreciation on tangible assets: | (27,617) | (25,408) |
| **Net premises, equipment and intangible assets** | **129,620** | **127,360** |

## Note 12: Money in circulation

Money in circulation represents the amount of national currency of the Republic of Azerbaijan, the Manat, issued into circulation since the introduction of the national currency in 1992. AZM 494,027 (1999: AZM 528,200), representing cash in reserves at the Bank, has been netted off with this balance.

## Note 13: Accounts of commercial banks

| | 2000 | 1999 |
|---|---|---|
| Correspondent accounts | 118,206 | 93,265 |
| Obligatory reserves in national currency | 3,993 | 3,915 |
| Obligatory reserves in foreign currencies | 223,325 | 64,297 |
| **Total accounts of commercial banks** | **345,524** | **161,477** |

Obligatory reserves represent amounts transferred to the National Bank of Azerbaijan by commercial banks, calculated as a percentage of their eligible liabilities to deposit holders. These amounts are non-interest bearing.

## Qeyd 14: Hökumətin hesabları

| | 2000 | 1999 |
|---|---|---|
| Büdcə hesabları | 26,861 | 126,964 |
| Digər hesablar | 541,473 | 645,516 |
| **Hökumət hesablarının cəmi** | **568,334** | **772,480** |

Büdcə hesabları üzrə faiz hesablanmır və onlar tələb edildikdə ödənilir.

## Qeyd 15: Digər müştəri hesabları

| | 2000 | 1999 |
|---|---|---|
| Dövlət müəssisələrinin hesabları | 2,579 | 4,037 |
| Qeyri-dövlət müəssisələrinin hesabları | 3,511 | 38,871 |
| Avropa Komissiyası | 14,435 | 32,200 |
| Digər hesablar | 704 | 455 |
| **Digər müştəri hesablarının cəmi** | **21,229** | **75,563** |

Digər müştəri hesabları üzrə faiz hesablanmır və onlar tələb edildikdə ödənilir.

## Qeyd 16: BVF qarşısında öhdəliklər

| | 2000 | 1999 |
|---|---|---|
| Alınmış kreditlər | 1,535,033 | 1,780,767 |
| Kvota ilə əlaqədar buraxılmış qiymətli kağızlar (Qeyd 9) | 939,388 | 857,041 |
| BVF-in digər hesabları | 2,145 | 2,145 |
| **BVF qarşısında öhdəliklərin cəmi** | **2,476,566** | **2,639,953** |

Beynəlxalq Valyuta Fondundan alınmış kreditlər 10 ilədək müddətə götürülmüş və illik faizi 0.5%-5.6% (1999: 0.5%-5.0%) təşkil edir. Kreditlərin ödənilməsi 1999-cu ildə başlanıb 2009-cu ilədək davam edəcəkdir. Beynəlxalq Valyuta Fondundan alınmış bütün kreditlər XBH ilə ifadə

## Note 14: Government accounts

| | 2000 | 1999 |
|---|---|---|
| Budget accounts | 26,861 | 126,964 |
| Other collections | 541,473 | 645,516 |
| **Total Government accounts** | **568,334** | **772,480** |

Budget accounts are non-interest bearing and payable on demand.

## Note 15: Other deposit accounts

| | 2000 | 1999 |
|---|---|---|
| Accounts of state organisations | 2,579 | 4,037 |
| Accounts of non-state organisations | 3,511 | 38,871 |
| European Commission | 14,435 | 32,200 |
| Other | 704 | 455 |
| **Total other deposit accounts** | **21,229** | **75,563** |

Other deposit accounts are non-interest bearing and payable on demand.

## Note 16: Liabilities to IMF

| | 2000 | 1999 |
|---|---|---|
| Loans received | 1,535,033 | 1,780,767 |
| Securities issued in respect of Quota (Note 9) | 939,388 | 857,041 |
| Accounts of IMF | 2,145 | 2,145 |
| **Total liabilities to IMF** | **2,476,566** | **2,639,953** |

Loans received from the International Monetary Fund mature in 10 years and bear interest from 0.5% to 5.6% (1999: 0.5% to 5.0%) per annum. The repayment of loans started in 1999. The loans will be fully repaid by 2009. All loans received from the IMF are denominated in SDRs. The loans

edilmişdir. Kreditlər müxtəlif müqavilələr, o cümlədən Stand-by, EFF, CCFF, STF və PRGF (keçmiş ESAF) müqavilələri əsasında verilmişdir.

**Qeyd 17: Digər beynəlxalq maliyyə institutları qarşısında öhdəliklər**

| | 2000 | 1999 |
|---|---|---|
| Digər beynəlxalq maliyyə institutları qarşısında öhdəliklər | 9,053 | - |

Bu məbləğ «İnstitusional quruculuğa texniki yardım layihəsi» çərçivəsində Dünya Bankından alınmış kreditlərdən ibarətdir.

**Qeyd 18: Hesablanmış ödəniləcək faizlər və digər passivlər**

| | 2000 | 1999 |
|---|---|---|
| Hesablanmış ödəniləcək faizlər | 9,995 | 9,628 |
| Digər passivlər | 11 | 658 |
| **Hesablanmış ödəniləcək faizlər və digər passivlərin cəmi** | **10,006** | **10,286** |

**Qeyd 19: Nizamnamə kapitalı və ehtiyatlar**

«Azərbaycan Respublikasının Milli Bankı haqqında Qanun»-a əsasən Bankın nizamnamə kapitalı və ehtiyatları hər il cari ilin mənfəəti hesabına artırılır.

Bankın ehtiyatlarına köçürüləcək məbləğlərin norması hər il Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir və mənfəətin sərbəst qalığı dövlət büdcəsinə köçürülür.

**Qeyd 20: Faiz gəlirləri**

| | 2000 | 1999 |
|---|---|---|
| Qeyri-rezident banklarda yerləşdirilmiş vəsaitlər üzrə faiz gəlirləri | 182,418 | 126,137 |
| Rezident banklara verilmiş kreditlər və yerləşdirilmiş vəsaitlər üzrə faiz əlirləri | 21,834 | 11,334 |
| Dövlətin qiymətli kağızları üzrə faiz gəlirləri | 9,956 | 15,175 |
| BVF-də yerləşdirilmiş XBH hesabı üzrə faiz gəlirləri | 48 | 284 |
| Hökumətə verilmiş kreditlər üzrə faiz gəlirləri | 1,558 | 1,273 |
| **Faiz gəlirlərinin cəmi** | **215,814** | **154,203** |

have been extended under a number of arrangements, including Stand-by, EFF, CCFF, STF and PRGF (formerly ESAF).

**Note 17: Funds borrowed from other international financial institutions**

| | 2000 | 1999 |
|---|---|---|
| Funds borrowed from other international financial Institutions | 9,053 | - |

The amount represents funds borrowed from the World Bank under the "Institutional Building Technical Assistance" Program.

**Note 18: Accrued interest payable and other liabilities**

| | 2000 | 1999 |
|---|---|---|
| Accrued interest payable | 9,995 | 9,628 |
| Other liabilities | 11 | 658 |
| **Total accrued interest payable and other liabilities** | **10,006** | **10,286** |

**Note 19: Charter fund and reserves**

In accordance with the Law on the National Bank of Azerbaijan, the Charter and Reserve Funds of the Bank are to be increased each year by transfers from the Bank's profit.

The amounts to be transferred to the Bank's reserves are set annually by the Board of Directors of the Bank and any surplus amounts are transferred to the State budget.

**Note 20: Interest income**

| | 2000 | 1999 |
|---|---|---|
